**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Jurnal 1970-ci ildən nəşr olunur.**

**2018, № 1 (222)**

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

**(elmi-metodik jurnal)**

**1**

**2018**

## REDAKSİYA HEYƏTİ

**Baş redaktor: prof.Y.Ş.Kərimov**

| | |
|---|---|
| **Aydın Əhmədov** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin Məktəbəqədər və ümumi təhsil şöbəsinin müdiri;* |
| **Nərminə Alnağıyeva** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin Məktəbəqədər təhsil sektorunun müdiri;* |
| **Faiq Şahbazlı** | *Azərbaycan Respublikası Təhsil İnstitutu Elmi-Pedaqoji Mərkəzinin direktoru;* |
| **Vidadi Xəlilov** | *Azərbaycan Respublikası Təhsil İnstitutunun elmi məsləhətçisi, pedaqoji elmlər doktoru, professor;* |
| **Ramiz Əliyev** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor ;* |
| **Asəf Zamanov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi işlər üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor ;* |
| **Nurlana Əliyeva** | *Azərbaycan Slavyan Universitetinin rektoru, filologiya elmləri doktoru, professor ;* |
| **Vaqif Əmiraslanov** | *Bakı Sosial-Pedaqoji Kollecinin direktoru, tarix üzrə fəlsəfə doktoru;* |
| **Mircəfər Həsənov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru ;* |
| **Laləzər Cəfərova** | *Azərbaycan Respublikası Təhsil İnstitutu məktəbəqədər təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru;* |
| **Azadxan Adıgözəlov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, pedaqoji elmlər doktoru;* |
| **Həqiqət Hacıyeva** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, biologiya üzrə fəlsəfə doktoru;* |
| **Zemfira Əsədova** | *Bakı şəhəri, Nizami rayonu, 175 nömrəli körpələr evi-uşaq bağçasının müdiri;* |
| **Esmira Ağayeva** | *İ. Əfəndiyev adına Elitar Gimnaziyanın ibtidai siniflər üzrə direktor müavini;* |
| **Zemfira Ağayeva** | *Bakı şəhəri, Nərimanov rayonu, 69 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi;* |
| **Bibixanım İbadova** (məsul katib) | *Azərbaycan Respublikası Təhsil İnstitutunun İbtidai təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru.* |



Yığılmağa verilmiş: 2018-ci il, yanvar ayının 24-də.
Çapa imzalanmış: 2018-ci il, mart ayının 27-də.
Kağız formatı 60x84 1/8. Şərti çap vərəqi 6,5.
Şifariş № 01. Tiraj 1000. Qiyməti 2 manat 50 qəpik.
Redaksiyanın ünvanı: AZ 1010. Bakı, Zərifə Əliyeva küçəsi, 96.
Tel. mob. (051) 623-01-15.

«RS Poliqraf» MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Bakı, A.Məmmədov küçəsi, 113.

# MÜNDƏRİCAT

## *ÜMUMPEDAQOJİ PROBLEMLƏR*


1. **Kərimov Y.**Elmi fəaliyyətini estetik təlimə həsr etmiş fədakar alim ........ 4
2. **Харисова Л.А., Шукаева Т.М.** Структурно-функциональная модель повышения качества инновационной деятельности педагогов ........ 6
3. **Teymurova Ə.** Təhsil müəssisələrində yanğından mühafizə ........ 11
4. **Həsənova Z.** Məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşdırılması ........ 14
5. **Məhərrəmova S.** Müəllimlərin innovativ metodlarla peşəkar hazırlığında mentorun rolu ........ 17


## *MƏKTƏBƏQƏDƏR TƏHSİL*


6. **Əliyeva Ş.** Məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətində sosial istiqamətlilik ........ 20
7. **Велиева Э.** Обзор открытого занятия в подготовительной группе по теме «Геометрические фигуры. Знакомство с часами» ........ 23
8. **Məmmədova Y.** Uşaq bağçalarında tərbiyə üzrə işin sistemi ........ 26


## *FƏNLƏRİN TƏDRİSİ VƏ QABAQCIL TƏCRÜBƏ*


9. **İbadova B.** İbtidai siniflərdə Azərbaycan dili dərslərində Blum taksonomiyalarından istifadə ........ 29
10. **Məmmədov V.** Birgə işə və məhsuldarlığa dair məsələlərin həlli ........ 33
11. **Əkbərov R.** Karate məşğələlərində ibtidai sinif şagirdlərinin koordinasiya bacarıqlarının inkişaf etdirilməsi və təkmilləşdirilməsi ........ 36
12. **Məmmədova S.** Riyaziyyat dərslərində istedadlı şagirdlərlə işin təşkili ........ 41
13. **İbrahimova S.** İbtidai siniflərdə şagird nailiyyətlərinin inkişafına məktəbəhazırlıq təhsilinin təsiri ........ 44
14. **Asaliyeva A.** Azərbaycan dili dərslərində inteqrasiya ........ 48


## *DEFEKTOLOGİYA*


15. **Həsənli L.** Kiçikyaşlı uşaqlarda nitq inkişafının ləngiməsi səbəbləri ........ 52


## *TƏRBİYƏ MƏSƏLƏLƏRİ*


16. **Kərimov V.** Məktəbəqədər müəssisələrdə tərbiyə üzrə işin məzmunu ........ 55
17. **Nəsibova K.** Məktəbəqədər yaşlı uşaqlarda estetik tərbiyənin formalaşdırılması yolları ........ 60
18. **Rəhimova S.** Məktəbəqədər təhsil müəssisələrində uşaqların milli və vətənpərvərlik ruhunda tərbiyə olunması təcrübəsindən ........ 62


## *YENİ NƏŞRLƏR*


19. **Ağalarov A.** Kamil Arazın uşaq dünyası ........ 68
20. **Süleymanova E.** Yaza dair şeirlər ........ 70


## *SUALLARA CAVABLAR*


21. **Kərimova E.** Nitqdə dillərarası münasibətləri şagirdlərə ntcə aydınlaşdıraq? ........ 71

# ELMİ FƏALİYYƏTİNİ ESTETİK TƏLİMƏ HƏSR ETMİŞ FƏDAKAR ALİM

**professor Yəhya Kərimov,**
pedaqoji elmlər doktoru, akademik,
Rusiya Pedaqoji Elmlər Akademiyasının üzvü,
ARTİ-nin baş məsləhətçisi



Pedaqogika aləmində əsl təfəkkür sahibləri çox azdır. Onlardan biri hamının tanıdığı akademik Vidadi Cəmil oğlu Xəlilovdur. O, 1968-ci ildə Azərbaycan Elmi Tədqiqat Pedaqogika İnstitutunun aspiranturasına qəbul olunanda direktorluq onu rəhbərlik etdiyim məktəbəqədər tərbiyə və ibtidai məktəb şöbəsinə göndərdi. Mən məmnuniyyətlə razılığımı bildirdim.

Vidadi Xəlilovun 7 və 132 nömrəli məktəblərdə bu sahədəki fəaliyyəti ilə hələ bir neçə il əvvəl tanış idim. 1961-ci ildə yaradılmış şöbənin estetik tərbiyə sahəsində elmi işçiyə ehtiyacı olduğundan onun şöbəyə gəlməsi məni sevindirdi. Elmdə öz sözü, dəst-xətti, xüsusi bacarığı olan bu gənc böyük ümidlər verirdi.

Vidadi müəllim ilkin fəaliyyəti ilə şöbənin digər əməkdaşlarından fərqlənirdi. Onun fəaliyyəti həmin əməkdaşların inkişafına da təkan verdi. Məktəbəqədər tərbiyə və ibtidai təlimi hərtərəfli əhatə edən möhkəm kollektiv yarandı.

Professor Vidadi Xəlilov respublikamızda keçirilən bütün tədbirlərdə fəal iştirak etmişdir. O, hələ gənc ikən birlikdə Azərbaycanın müxtəlif rayonlarına səfərlər etmişik. Bundan məqsəd yerlərdəki vəziyyəti nəzərə alaraq, müxtəlif praktik məsələlərin həllinə onda maraq oyatmaq, müəllimlərə elmi-metodik kömək göstərməsini təmin etmək olub.

Vidadi müəllimin diqqəti cəlb edən ilk tədqiqatı Azərbaycan xalq yaradıcılığı mövzusunda oldu.Təsadüfi deyil ki, o, 1975-ci ildə "İbtidai siniflərdə Azərbaycan xalq yaradıcılığı nümunələrinin öyrədilməsi estetik tərbiyə vasitəsi kimi" (musiqi və ədəbi folklor nümunələri əsasında) mövzusunda namizədlik dissertasiyasını müdafiə etdi. Onun elmi rəhbəri tanınmış bəstəkar Qənbər Hüseynli idi. O, tez-tez müzakirələrdə iştirak edir, Vidadi Xəlilovun yaradıcılığının respublika üçün faydalı olacağını bildirirdi. Qənbər müəllimin bu fikri sonralar özünü doğrultmağa başladı.

V.Xəlilov öz üzərində böyük səylə işləyərək,1994-cü ildə müvəffəqiyyətlə "Azərbaycan ümumtəhsil məktəblərində estetik tərbiyənin nəzəriyyəsi və təcrübəsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etdi. 1997-ci ildə professor adını aldı.

Adətən, görkəmli alimlərin axtarışlarının nəticələri dərsliklərin tərtibində özünü büruzə verir. V.Xəlilov bu sahədə xüsusi şöhrət qazandı. Elmi dərəcəyə yiyələndik-

dən sonra Vidadi Xəlilovun yaradıcılıq imkanları daha da artdı.1975-ci ildən Əməkdar incəsənət xadimi, Azərbaycanın xalq artisti Oqtay Zülfüqarovla birlikdə orta ümumtəhsil məktəblərinin V sinifləri üçün musiqi dərsliyi yazdı. Bununla da o, dərslik müəllifliyi fəaliyyətinin təməlini qoydu. O, bir neçə dərsliyin müəllifi oldu.

Bu, V.Xəlilovu təlimin məzmunu üzrə digər praktik məsələlərin həllinə yönəltdi. Onun tərtib etdiyi kompleks proqram SSRİ Pedaqoji Elmlər Akademiyası tərəfindən qəbul edildi. O, 1994-cü ildə digər müəlliflərlə birlikdə pedaqoji universitet və institutlar üçün proqram da tərtib etmişdir.

O, 1995-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetində, Naxçıvan Dövlət Universitetində, Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitututnda müdafiə şuralarının üzvü olub. V.Xəlilovun rəhbərliyi ilə 15 nəfər namizədlik diplomu almış, 24 nəfərin namizədlik və doktorluq dissertasiyasına rəy verilmişdir.

Vidadi Xəlilov öz fəaliyyətini yalnız respublikada gördüyü işlərlə məhdudlaşdırmadı. O, SSRİ Pedaqoji Elmlər Akademiyasının Rəyasət heyətinin 1978-ci il, iyulun 5-i tarixli qərarı ilə Estetik Tərbiyə üzrə Problem Şurasının üzvü seçildi. Mən də SSRİ Pedaqoji Elmlər Akademiyasının Problem Şurasının üzvü olduğumdan onunla Orta Asiyaya ezam edildik. Biz oranın təcrübəsini öyrəndik, mühüm pedaqoji tapşırıqlar yerinə yetirdik.

Vidadi Xəlilovun görkəmli şəxsiyyətlərə aid məqalələri, kitabları diqqəti cəlb edir. O,"Bəstəkar Süleyman Ələskərov", "Bəstəkar Qənbər Hüseynli", "Bəstəkar Oqtay Zülfüqarov" və başqa monoqrafiyaların müəllifidir. Akademik Mehdi Mehdizadə haqqında yazdığı "Əsrə bərabər ömür" əsəri pedaqoji baxımdan çox dəyərlidir.

Professor Vidadi Xəlilovun böyüklüyü onun yalnız gərgin pedaqoji fəaliyyəti, yeni kitablar yazması, qiymətli məruzə və çıxışları, elmlər namizədləri hazırlaması və s. ilə deyil, həm də gələcək fəaliyyət üçün zəngin elmi təcrübəyə malik olduğunu hiss etməsindədir.

Professor Vidadi Xəlilov müəllimlərin, alimlərin estetika ilə əlaqədar məqalələrini mükəmməl redaktə etməsi ilə özünü tanıtmışdır. O, "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jurnalının bütün fəaliyyətində fəallıq göstərmişdir. Bunu nəzərə alaraq, Azərbaycan Təhsil Nazirliyi 2001-ci ildə onu redaksiya heyətinin üzvlüyünə daxil etmişdir. Bundan sonra onun xidməti əvəzsiz olmuşdur.

Vidadi müəllim, Sizə can sağlığı, uzun ömür, ailənizə səadət və xoşbəxtlik, fəaliyyətinizdə uğurlar arzulayıram!

**JURNAL AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ QƏRARI İLƏ TÖVSİYƏ OLUNAN NƏŞRLƏR SİYAHISINA DAXİL EDİLMİŞDİR.**

# СТРУКТУРНО-ФУНКЦИОНАЛЬНАЯ МОДЕЛЬ ПОВЫШЕНИЯ КАЧЕСТВА ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ ПЕДАГОГОВ



**Людмила Алексеевна Харисова,**
ведущий научный сотрудник Центра исследований инновационной деятельности в образовании ФГБНУ «Институт стратегии развития образования Российской академии образования», доктор педагогических наук, профессор;

**Тезата Магомедовна Шукаева,**
старший научный сотрудник Центра исследований инновационной деятельности в образовании ФГБНУ «Институт стратегии развития образования Российской академии образования», кандидат педагогических наук,
E-mail:tezata@yandex.ru



**ключевые слова:** инновационная деятельность, качество деятельности, школа, педагоги, образовательная система;
**key words:** innovation, innovational activity, the quality of ctivity, school, teachers, educational system;
**açar sözlər:** innovativ fəaliyyət, fəaliyyətin keyfiyyəti, məktəb, pedaqoqlar, təhsil sistemi.

Стратегическим направлением повышения качества образования является переход образовательных организаций от простого функционирования к развитию. *Развитие образовательной организации* – процесс качественных изменений в составляющих ее компонентах и структуре. Этот процесс способствует достижению высоких образовательных результатов, всегда предполагает освоение/внедрение педагогических новшеств, активизирует *инновационную деятельность* (ИД), в результате чего происходит целенаправленное преобразование педагогическим коллективом образовательной системы с целью повышения качества образования.

Инновационная деятельность предполагает наличие у педагогов способности к «явлению и адекватной оценке проблем; поиску, адекватной оценке и внедрению новшеств; самостоятельной разработке новшеств и проектов их внедрения.Такая деятельность отличается от любой другой со следующими признаками:

– полный и глубокий анализ образовательной системы, результатов образования, индивидуальной работы каждого педагога; выявление проблемного поля, грамотное формулирование проблем, обоснование их причин, их адекватная оценка и ранжирование;

– активный поиск вне образовательной системы педагогических разработок, их анализ, принятие решения об их реализации;

– внедрение новых разработок в образовательную систему, их апробация и распространение; ведение экспериментальной работы;

– создание и реализация программ и моделей модернизации образовательной системы, планов действий и методик по оценке результатов [1].

Субъектом инновационной деятельности является педагогический коллектив образовательной организации, объектом – образовательная система, содержанием – преобразование этой системы посредством внедрения новшеств.

Исследования, проведенные под руководством В.С.Лазарева, показали, что образовательные организации имеют разные способности к развитию. Это проявляется в том, как они осуществляют инновационную деятельность, выявляют потенциально полезные для себя новшества, оценивают их, принимают решение о внедрении/невнедрении, т.е. способность к развитию выражается в качестве инновационной деятельности [2].

Как показывает практика, образовательные организации, которые ведут инновационную деятельность и внедряют системные новшества, испытывают при этом затруднения, т.к. отсутствуют теоретические модели по оценке качества такой деятельности, нет инструментария, механизмов его повышения.

Когда говорят о качестве деятельности, имеют в виду то, как выполняется ее назначение, насколько результаты соответствуют предъявляемым к ним объективным требова-

ниям. В общем смысле это отношение фактически достигнутых результатов к результатам объективно необходимым и возможным в существующих условиях. Уровень такого отношения зависит от того, насколько выявлены образовательные проблемы и каковы возможности их решения. Если выявлено только небольшое количество проблем, это свидетельствует о низкой чувствительности к ним инновационной системы (она возрастает, когда это число приближается к числу проблем, существующих реально). Но если диагностическая функция выполняется, а педагоги не реализуют существующие возможности, нельзя обеспечить эффективное развитие образовательной организации. Таким образом, знание проблем и возможностей их решения – условия необходимые, но недостаточные для высокого качества инновационной деятельности, т. к. имеющиеся возможности нужно уметь эффективно использовать.

Качество инновационной деятельности образовательной организации определяют как отношение между необходимыми, потенциально возможными и фактически реализуемыми изменениями в ее образовательной системе. ИД включает несколько этапов.

1. Выявление проблем в образовательной системе (в целях, содержании образования, образовательных технологиях, способах оценки результатов освоения программ; кадровых, материальных, нормативных, учебно-методических, организационных, управленческих условиях).

2. Поиск и выбор новшеств для последующего внедрения.

3. Повышение готовности (когнитивной, мотивационной, организационной, технологической) педагогического коллектива к проведению изменений в образовательной системе.

4.Преобразование образовательной системы и анализ результатов.

Внедрение новшеств–это осуществление управляемых изменений, предметом которых могут быть цели, условия, содержание, средства, методы, формы организации учебно-воспитательного процесса.

Результативность инновационной деятельности во многом определяется уровнем готовности к ней педагогов и наличием эффективных теоретических и технологических способов повышения ее качества. Однако выбор таких способов остается актуальной теоретической и практической проблемой. С целью ее решения нами разработана структурно-функциональная модель деятельности образовательных организаций по повышению качества инновационной деятельности. Данная модель является линейной по своей организационной форме и инновационной по содержанию. Она задает структуру и функции ИД и способствует решению следующих задач инновационного процесса:

–проблемно-ориентированный анализ педагогической системы школы, выявление ее недостатков, оценка их значимости;

–поиск и оценка возможностей устранения недостатков, а также решения актуальных проблем;

–проектирование желаемой педагогической системы;

–стратегическое и операциональное планирование изменений, построение организационной структуры их реализации;

–мотивация участия педагогов в инновационной работе;

–осуществление изменений, контроль и корректировка этого процесса, оценка его результатов.(Модель основана на теории развивающихся педагогических систем В.С.Лазарева).

Структурно-функциональная модель рассматривается нами как целостное образование, состоящее из взаимосвязанных и взаимообусловленных блоков: аналитического, организационно–поискового, проектировочного, внедренческого, диагностико-результативного.

**Аналитический блок** включает решение следующих задач: проведение проблемно-ориентировочного анализа образовательной системы и педагогической деятельности работников образования; анализ образовательных результатов; формулировка и обоснование проблемного поля образовательной организации. Для реализации данных задач предполагается выполнение поэтапных действий.

*На организационном этапе* создается рабочая группа для проведения анализа образовательной системы, разрабатываются или выбираются диагностические материалы; происходит обучение педагогов анализу, обобщению результатов и формулированию проблемного поля образовательной организации.

*На этапе проблематизации* образовательных результатов выявляются и устраняются недостатки в достижении результатов, информированности педагогов о современных требованиях к образовательным результатам на соответствующей ступени обучения.

*На этапе проблематизации образовательной системы* определяются недостатки в постановке целей для каждой ступени образования, образовательных программах и технологиях, компетентности педагогов; кадровой, материальной, учебно-дидактической, финансовой, организационной обеспеченности образовательной организации.

*На этапе обоснования* проблемного поля и выявления причин формулируются проблемы, выявляются их истоки, определяются пути решения.

Выполнение действий в рамках аналитического блока будет способствовать повышению когнитивной, мотивационной и технологической готовности педагогов.

**Блок организационно-поисковый** предполагает решение следующих задач: поиск и анализ возможностей развития образовательной организации, которые имеются вне ее; решение об их использовании в образовательной системе.

Реализация данных задач включает два этапа.

*На этапе создания рабочей* группы осуществляются: поиск и оценка педагогических новшеств, внедрение которых позволят повысить качество образования; разработка или выбор необходимых для этого диагностических материалов; обучение такой деятельности педагогов.

*На этапе поиска, выбора и оценки возможностей* улучшения образовательной системы анализируются педагогические разработки, которые сделаны вне данной организации и использование которых могло бы улучшить качество образования и результативность работы педагогов; отбираются новшества, которые будут оценены с помощью специальных методик; руководством образовательной организации принимается решение о внедрении предложенных новшеств в образовательную систему.

На данном этапе улучшается информированность педагогов осуществующих вне образовательной организации возможностях повышения качества образования, усиливается мотивация к их внедрению, повышается способность к оцениванию новшества и усовершенствованию методики оценки.

**Блок проектировочный** позволит определить, что, как и когда будет модернизироваться в образовательной системе.Реализация данного блока предполагает разработку новой модели, проекта модернизации образовательной системы, локальных проектов, программ их реализации и планов действий; определение последовательности внедрения новшеств и ответственных лиц.

*На первом этапе разработки новой модели образовательной организации* осуществляется создание рабочей группы по разработке проекта модернизации образовательной системы, программы реализации и плана действий; определяются направления модернизации; формулируются цели и задачи.

*На втором этапе разработки локальных проектов* модернизации образовательной системы формируется рабочая группа по созданию локальных проектов модернизации, разрабатываются программы их реализации и планы внедрения новшеств .(*План внедрения новшеств* – модель деятельности, определяющая совокупность действий и связей между ними, выполнение которых позволяет осуществить желаемые изменения в образовательной системе.)

**Блок внедренческий** предполагает введение в образовательную систему новшеств.

*На первом этапе происходит обучение педагогических работников* внедрению новшества в свою образовательную деятельность (самообразование, заседания методических объединений, курсы повышения квалификации, консультации ученых, тренинги, семинары методистов).

*На следующем этапе внедрения новшеств* создаются временные рабочие группы, осуществляющие этот процесс локально; реализуется план внедрения новшества; создается управленческий орган, координирующий и контролирующий действия всех участников проекта.

Внедренческий проект включает: определение проблемы и обоснование ее актуальности; внедряемое новшество; формулирование общей цели; этапы, сроки реализации и ожидаемые результаты; план-график реализации проекта; состав исполнителей и распределение обязанностей между ними; необходимые финансовые и материально-технические ресурсы; способы контроля хода и результатов проекта.

Реализация данного блока будет способствовать повышению организационной, тех-

нологической готовности педагогов; освоению ими внедренческой деятельности.

**Блок диагностико-результативный** включает оценку и анализ результатов проведенных изменений в образовательной системе.

*На этапе проведения эксперимента* происходит выбор методик эксперимента и его проведение; предварительное и заключительное (или только заключительное) тестирование.

*На этапе анализа результатов* делаются выводы, обсуждаются итоги (если они педагогов не удовлетворяют, то могут быть предложены пути дальнейшего совершенствования образовательной системы); готовится отчет руководству для последующего обсуждения.

Для реализации структурно-функциональной модели инновационной деятельности образовательной организации необходимо разработать:

– методики диагностики качества ИД, выявления проблем, повлиявших на результаты образования, а также в образовательной системе школ; оценки возможностей для улучшения образовательной системы и определения путей развития школы;

– программу повышения качества ИД, состоящую из четырех сессий, в которых определяются: 1) решаемые задачи, 2) содержание, 3) организационные формы, 4) методы, время, количество часов;

– методы повышения качества ИД (тренинги, консультации, обучающие лекции, презентации, инструктажи, памятки, деловые игры и др.);

– способы закрепления тех видов ИД, в которых участвовали педагоги (анализ, поиск, оценка, выбор новшеств, принятие решений).

Качество инновационной деятельности в школе во многом зависит от условий, в которых работает учебное заведение, но прежде всего – от уровня готовности педагогов к инновационной деятельности .

Рассмотрим действия по повышению готовности педагогов к инновационной деятельности.

1. *Повышение когнитивной готовности:*

– включение в программу и планы заседаний методических объединений направления «Повышение информированности учителей о новшествах»;

– внесение в план педсоветов тем, связанных с улучшением информированности учителей о существующих новшествах;

– выпуск специальных методических бюллетеней о новшествах в образовании (раз в год каждым МО);

–включение в аттестационные материалы критерия оценки знаний педагогов о новых образовательных технологиях;

–проведение учителями-новаторами мастер-классов, демонстрирующих опыт применения новых образовательных технологий;

–поиск педагогами новых образовательных технологий с последующей их презентацией;

–проведение школьным библиотекарем обзоров педагогических новинок;

– встречи педагогов с учеными с целью информирования о новых образовательных технологиях; с авторами программ, учебных пособий и технологий;

–проведение научно-практических семинаров, конференций, на которых рассматриваются различные проблемы в образовании;

–организация внутришкольной системы повышения квалификации;

–тестирования учителей, выявляющие уровень знания современных требований к образованию и новых образовательных технологий;

–взаимопосещение уроков, оценка деятельности коллег;

–участие учителей в экспертизе новых образовательных программ и пособий; обобщение и распространение ими педагогического опыта; разработка и корректировка программы развития школы;

–подписка на предметные газеты и журналы.

2. *Повышение мотивационной готовности:*

– создание положения о премировании и моральном стимулировании учителей, работающих в инновационном режиме;

– разработка программы для обучения методике проблемно-ориентированного анализа результатов педагогической деятельности;

– распределение между замдиректорами и руководителями МО работы по оценке

деятельности педагогов;

–создание специального плана устранения недостатков, поиск способов и устранения в образовательной системе школы;

–коллегиальный анализ школьной образовательной системы на педсоветах;

–проведение учеными семинаров и консультаций по обучению учителей формулированию целей и задач образования, а также проверке их на соответствие полученным результатам;

–приобщение педагогов к анализу различных направлений работы в школе, к участию в семинарах по применению новых образовательных технологий;

–создание в коллективе положительной атмосферы, уважение к учителям-новаторам; поощрение стремления учиться, познавать и использовать новшества.

3. *Повышение операциональной готовности:*

– обеспечение всем учителям доступа к интернету-увеличение подписных изданий в школьных библиотеках;

– информирование на педсоветах о новшествах в образовании, об изменениях в нормативно-правовой базе его развития; отражение вопросов информирования в планах МО;

– привлечение учителей к поиску новшеств для внедрения в образовательную систему школы, применение на практике методики их оценки; регламентации по поиску и оценке новшеств (в приказе);

– участие учителей в деловых играх, тренингах по овладению коллегиальными способами принятия решений о внедрении выбранных новшеств.

*1. Повышение организационной готовности:*

– издание приказа о подготовке планов поиска, оценки и принятия решений о внедрении новшеств; привлечение учителей к совместному планированию такой работы;

– разработка плана по применению предложенных новшеств и издание приказов об их внедрении в текущем учебном году и в перспективе; о контроле внедрения, создании совета по инновационной деятельности в школе.

Разработанная структурно-функциональная модель повышения качества инновационной деятельности является действенным механизмом и может быть реализована в школах.

**литература**

1. Лазарев В.С. Управление инновациями в школе. (учебное пособие). Москва: Центр педагогического образования, 2008.

2. Харисова Л.А., Шукаева Т.М. Восприимчивость учреждений общего образования к новшествам и методы ее повышения. (монография). Казань: РИЦ, 2011.

3. Шукаева Т.М. Факторы восприимчивости образовательных учреждений к новшествам. (автореферат диссертации кандидата педагогических наук). Москва, 2009.

**MÜƏLLİMLƏRİN İNNOVATİV FƏALİYYƏTİNİN KEYFİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN STRUKTUR VƏ FUNKSİONAL MODELİ**

**xülasə**

Məqalədə innovasiya fəaliyyətinin keyfiyyəti konsepsiyası müzakirə edilir və müəllimlərin innovativ fəaliyyətinin keyfiyyətinin yaxşılaşdırılması üçün struktur və funksional model təqdim olunur. Həmçinin müəllimlərin innovativ fəaliyyətə hazırlığının yüksəldilməsi üçün görülən tədbirlər mərhələ-mərhələ nəzərdən keçirilir.

**STRUCTURAL-FUNCTIONAL MODEL OF INCREASING QUALITY INNOVATIVE ACTIVITY OF TEACHERS**

**summary**

In the article the concept "quality of innovation activity" is considered, a structural and functional model of improving the quality of innovative activity of teachers is presented. Step by step the actions to increase the readiness of teachers to innovate are also considered.

# TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ YANĞINDAN MÜHAFİZƏ

**Əsmət Teymurova,**
ADPU-nun fizika və texnologiya fakültəsi,
Texnologiya və onun tədrisi metodikası kafedrasının baş müəllimi
Esmet.abdullayeva@mail.ru

**açar sözlər:** təhsil müəssisələri, məktəb, yanğın təhlükəsizliyi, şagird, tələbə, müəllim, laboratoriya, təlimat, tədris;
**ключевые слова:** учебные заведения, школа, пожарная безопасность, ученик, студент, преподава+тель, лаборатория, обучение, преподавание;
**key words:** educational institutions, school, fire safety, pupil, student, teacher, laboratory, teaching, teaching.



Yanğından mühafizə rejimi dedikdə, iqtisadi, texniki, yanğın profilaktikası, yaxud yanğın baş verdikdə onun yayılmaması və qarşısının alınması üçün görülən tədbirlər nəzərdə tutulur.

Hər bir ali və orta təhsil müəssisəsinin, internat-məktəbin, kollecin, liseyin, digər təhsil müəssisələri rəhbərlərinin borcudur ki, şagirdlərə, tələbələrə, müəllim və professor heyətinə, elmi işçilərə, xidməti heyətə təhsil müəssisələrində yanğın təhlükəsinin qarşısının alınması qaydalarının öyrədilməsini təşkil etsin.

Tədris, istehsalat, inzibati və köməkçi otaqlarda, laboratoriyalarda, anbarlarda siqaret çəkilməsi üçün xüsusi yerlərin ayrılması təmin edilməlidir. Yanğına həssas materialların müəyyən edilən miqdarda saxlanmasına, odla əlaqədar işlərin aparılmasına diqqət yetirilməlidir. Əməkdaşlar, xidmət heyəti, şagird və tələbələr tərəfindən yanğına qarşı müəyyən edilən rejimin gözlənməsinə müntəzəm nəzarət olunmalıdır. Bunlarla yanaşı, təhsil müəssisələrində yanğın baş verərkən insanların binadan köçürülməsi, otaqlarda yanğın təhlükəsizliyi qaydaları barədə təlimatların hazırlanması, yanğın zamanı şagird və tələbələrin davranışına dair praktik məşğələlərin həyata keçirilməsi də təhsil müəssisələrinin rəhbərləri tərəfindən təmin olunmalıdır.

Hər bir fakültə, kafedra, elmi-tədqiqat müəssisəsi, laboratoriya, məktəb, uşaq bağçası, istehsalat sahəsi, elektron-hesablama mərkəzi, kitabxana, təhsillə bağlı digər struktur qurumların yanğın təhlükəsizliyinə onların rəhbərləri məsuliyyət daşımaqla bu istiqamətdə bir sıra vəzifələri həyata keçirməlidirlər. Belə ki, təhsil müəssisələrinin, onun qurumlarının rəhbərləri qızdırıcı, havadəyişmə, elektrik qurğularının texniki vəziyyətinə daim nəzarət etməli, yanğın törədə biləcək amillərin aradan qaldırılması üçün tədbirlər görməlidirlər.

İş günü və dərslər qurtardıqdan sonra, növbətçi işıqlandırma və elektrik qurğuları istisna olmaqla, bütün elektrik cihazlarının dövriyyədən çıxarılması, həmçinin mövcud yanğınsöndürmə vəsaitlərinin istifadə üçün yararlı vəziyyətdə saxlanması təmin edilməlidir.

Müəssisə rəhbərliyi tərəfindən yanğın təhlükəsizliyi qaydaları işlənib hazırlanmalı və müvafiq yanğından mühafizə qurumu ilə razılaşdırılaraq təsdiq edildikdən sonra görünən yerdən asılmalıdır. Təhsil müəssisəsinin əməkdaşları, tələbələr, şagirdlər həmin qaydaları bilməli, onlara ciddi riayət etməlidirlər.

Hər bir təhsil müəssisəsində əməkdaşlar üçün yanğından mühafizə üzrə dərslər keçilməlidir. Təhsil müəssisəsi rəhbərinin əmri ilə yanğın-texniki minimumu üzrə təlimatların keçirilmə qaydaları, yeri və müddəti müəyyənləşdirilməlidir.Yanğına qarşı ilkin təlimat keçirilən otaqlar zəruri olan əyani vasitələrlə – plakatlar, maketlər, sxemlər və s. ilə təchiz olunmalı, yanğına qarşı təlimat keçməyən şəxslər işə buraxılmamalıdırlar.

Belə müəssisələrin yanğın təhlükəsizliyini təmin etmək üçün bir sıra qaydalara, o cümlədən, ərazinin saxlanması ilə əlaqədar tələblərə ciddi əməl olunmalıdır. Təhsil müəssisəsinin əra-

zisi həmişə təmiz saxlanmalı, bütün tullantılar xüsusi ayrılmış sahələrə yığılmalı və vaxtaşırı daşınmalıdır. Bütün bina və qurğulara, su mənbələrinə gedən yollarda maneə olmamalıdır.

Bu müəssisələrdə yanğına qarşı su təchizatına xüsusi diqqət yetirilməlidir. Təhsil müəssisəsinin rəhbərliyi tərəfindən mütəmadi olaraq yanğın üçün su hovuzları, çənləri, su kəməri şəbəkəsi və hidrantlar üzərində texniki müşahidə aparılmalı, su mənbələrinin yararlı vəziyyəti təmin olunmalı, daxili yanğına qarşı su kranları şlanq və lülələrlə təchiz edilməlidir. Yanğın üçün su hovuzlarında, çənlərdə lazımi miqdarda suyun olmasına da müntəzəm nəzarət edilməlidir.

Təhsil müəssisələrinin pilləkən qəfəslərində iş otaqlarının, həmçinin digər təyinatlı otaqların quraşdırılması və yerləşdirilməsi, insanların hərəkətinə mane ola biləcək avadanlıqların və əşyaların yığılması yolverilməzdir.

Təhsil müəssisələrinin zirzəmi və yarımzirzəmi otaqlarında, çardaqda partlayış təhlükəsi olan maddə və materialların, asan alışan, yanar mayelərin, habelə partlayış-yanğın təhlükəli proseslərin aparıldığı laboratoriyaların yerləşdirilməsi qadağan olunur.

Çardaq otaqlarının və texniki mərtəbələrin qapıları daim qıfılla kilidlənməli, qıfılın açarı istənilən vaxtda götürülməsi mümkün olan yerdə saxlanılmalıdır. Çardaqda və texniki mərtəbələrdəki otaqların taxta konstruksiyalı elementlərinə üç ildə ən azı bir dəfə odadavamlı məhlul hopdurulmalıdır.

Təhsil müəssisələrində otaqların yuyulub təmizlənməsində benzin, kerosin və digər tezalışan mayelərdən istifadə etmək qadağandır.Otaqların divarlarına, tavanına yandıqda zəhərli maddələr buraxan materiallardan üzlük çəkmək, oddan istifadə etməklə donmuş su və kanalizasiya borularını qızdırmaq olmaz. Müəssisələrin əksəriyyətində qadağan edilmiş hallara tez-tez rast gəlmək olur.

Təhsil müəssisələrində yanğın zamanı insanların və əşyaların maneəsiz köçürülməsi üçün bütün əsas, ehtiyat qapılar açılmalı, təxliyyə yollarının qapıları asan açılan qıfıllarla bağlanmalıdır. Auditoriyaların, siniflərin, mühazirə və idman zallarının, digər otaqların pəncərələrində dəmir barmaqlıqların quraşdırılması qadağandır. Təxliyyə yollarında, insanların kütləvi toplaşdığı otaqlarda xalçalar, ayaq altlıqları döşəməyə bərkidilməlidir.

Hər bir təhsil müəssisəsində elektrik cihazlarının yanğına qarşı vəziyyətinə məsul şəxs olmalı, onların istismarı zamanı yanğın təhlükəsizliyi qaydalarının gözlənməsinə, texniki vəziyyətinə, istifadəyə yararlılığına nəzarət etməlidir. Təhsil müəssisələrində müvəqqəti elektrik şəbəkələrinin quraşdırılması və istismarı qadağandır. Səyyar elektrik lampaları qoruyucu şüşə örtüklərlə və metal torla təchiz edildikdən sonra istifadə oluna bilər.

Təhsil müəssisəsi binasının dam örtüyü yanar materialdan olarsa, onun üzərindən elektrik xətlərinin çəkilməsi qadağandır. Qoruyucu örtüyü, həmçinin naqillərinin izolyasiyası zədələnmiş, standarta uyğun olmayan, nasaz elektrik cihazlarının istismarına yol verilməməlidir.

Təhsil müəssisələrində elektrik təsərrüfatının istismarı yalnız «Elektrik qurğularının quraşdırılması Qaydaları»nın tələblərinə uyğun həyata keçirilməlidir.

Təhsil müəssisələrində isitmə sistemlərinin yanğın təhlükəsizliyi da həmişə diqqət mərkəzində olmalıdır.Qış mövsümü başlamazdan əvvəl bütün isitmə qurğuları, cihazları diqqətlə yoxlanmalı, zərurət olarsa, təmir edilməlidir. Nasaz soba və isitmə cihazlarının istismarına yol verilməməlidir. Qazanxanaya kənar şəxslərin daxil olması, orada qeyri-müvafiq işlərin görülməsi, qadağandır. Otaqlarda sobadan istifadə edildikdə döşəməyə ən azı eni 50 sm, uzunu 70 sm ölçüdə metal təbəqə vurulmalıdır.

Sobanın yandırılması üçün benzin, kerosin, dizel yanacağından, asan alışan digər mayelərdən istifadə edilməsi, həmçinin həmin materialları bilavasitə sobanın odluq dəliyinin qarşısında saxlamaq, yanar sobanı nəzarətsiz qoymaq qadağandır. Nasaz sobalardan və tüstü bacalarından istifadə etmək yolverilməzdir.

Təhsil müəssisələrində havadəyişmə sistemindəki kameralar, hava boruları, filtrlər mütəmadi olaraq tozdan və tullantılardan təmizlənməlidir.Havadəyişmə kameralarında əşyaların saxlanmasına, oraya kənar şəxslərin daxil olmasına yol verilməməlidir.

Təhsil müəssisələrində təlim məqsədləri üçün nəzərdə tutulan qurğular normal iş rejimində olmalı, yanğın təhlükəsizliyi tələblərinə cavab verməlidir. Partlayış, yanğın təhlükəli qaz, buxar və toz ayıran maddələrin dövr etdiyi qurğular, aparatlar və boru kəmərləri hermetik olmalı, qurğular işləyərkən onların səthinin temperaturu müsbət 45 dərəcədən yuxarı olmamalıdır. Yanğına səbəb ola biləcək nasaz qurğu və cihazlardan istifadəyə yol verilməməlidir.

Normativ sənədlərə uyğun olaraq, hər bir təhsil müəssisəsi ilkin yanğınsöndürmə vasitələri ilə təchiz edilməlidir. Təhsil müəssisələrində mövcud olan telefon vasitələrinin birindən gün ərzində sərbəst istifadə edilməlidir.

Təhsil müəssisələrində şagird və tələbələrin yanğın təhlükəsizliyi sahəsində maariflənməsinə də xüsusi diqqətlə yanaşılmalıdır. «Yanğın təhlükəsizliyi haqqında» Azərbaycan Respublikası Qanununun16-cı maddəsi, 3-cü bəndinin tələblərinə uyğun olaraq, məktəbəqədər tərbiyə müəssisələrində uşaqlara, ümumtəhsil məktəblərində şagirdlərə yanğın təhlükəsizliyi qaydalarının icbari şəkildə öyrədilməsi həyata keçirilməlidir. Yanğın təhlükəsizliyi ilə əlaqədar məktəblərdə keçirilən məşğələlərdə bu qaydaları öyrətməklə yanaşı, baş verən hadisələrin nəticələrinə görə məktəblilərdə məsuliyyət hissini formalaşdırmaq, bu peşənin qəhrəmanlıq romantikasını təbliğ etmək, həmin sahədə elmi-texniki nailiyyətləri işıqlandırmaq, gəncləri müasir binaların, tikililərin, nəqliyyat vasitələrinin yanğın xüsusiyyətləri barədə məlumatlandırmaq və s. məsələlərə də diqqət yetirmək lazımdır.

Təhsil müəssisələrinin əməkdaşları, tələbələr, məktəblilər bu qaydaları bilməli və onlara ciddi riayət etməlidirlər. FHN-dən verilən təlimata görə, digər müəssisə və obyektlərdə olduğu kimi, təhsil ocaqlarında da yanğın təhlükəsizliyi üçün məsuliyyət müəssisə rəhbərinin üzərinə düşür.

Məktəblərdə yanğın və ya hər hansı bədbəxt hadisə zamanı bayıra çıxmaq üçün əlavə çıxışlar olmalıdır. Bundan başqa, yanğın söndürmək üçün vasitələr də əlçatan yerlərə qoyulmalıdır. Bu vasitələrin işlək vəziyyətdə olması müntəzəm yoxlanmalıdır. Təəssüf ki, bunlara hər müəssisədə əməl olunmur. Elə müəssisələr var ki, orada əlavə çıxışlar ləğv olunmuşdur.Bu qaydalardan kənara çıxmaq cinayətdir.

Vəzifəsindən asılı olmayaraq, hər bir işçi müəssisədə yanğından mühafizə qaydalarına ciddi riayət etməli və fəlakətə səbəb olacaq hərəkətlərə yol verməməlidir.

**ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1977.
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı, 2005.
3. Əzizov A. Əmək mühafizəsi . Bakı, 2006.
4. Şıxəliyev F. Əmək mühafizəsi. Bakı, 1981.
5. Həsənov V. Əmək mühafizəsi. Bakı, 1983.


**РЕГУЛИРОВАНИЕ РЕЖИМА ПОЖАРНОЙ БЕЗОПАСНОСТИ В ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ**

**резюме**


В статье рассказывается о том, как регулировать режим пожарной безопасности в образовательных учреждениях – в дошкольных учреждениях и общеобразовательных школах. Отмечается, что независимо от служебного положения, каждый сотрудник должен строго придерживаться правил противопожарной защиты и избегать любых действий, вызывающих пожар.


**REGULAR MODE POSITION BETWEEN CURRENT MOTOR TRANSMISSION**

**summary**


In the article it will be explained how to regulate the regime of firefighting in educational institutions – in downgrade institutions and in specialized schools. It is forbidden for anyone to be in service, every soldier who has a right to be denied the right to live and to be punished by acts of deceit.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASI

**Zəhra Həsənova,**
ADPU, Məktəbəqədər təhsilin pedaqogikası və
metodikası kafedrasının müəllimi,
E-mail: h_elgin@mail.ru



**açar sözlər:** kiçikyaşlı uşaqlar, fəaliyyət növləri, şəxsiyyətin formalaşması;
**ключевые слова:** дети младшего возраста, формирование идентичности, виды деятельности;
**key words:** younger children, identity formation, activities.

İnsan öz inkişafında müxtəlif mərhələlərdən keçir və hər bir dövr şəxsiyyətin inkişafına müəyyən təsir göstərir. Pedaqogika tarixində insanın yaş dövrləri ilə bağlı müxtəlif mülahizələr (Aristotel, N.Gəncəvi, Y.A.Komenski, C.C.Russo və b.) irəli sürülmüşdür. Yaş dövrlərinin göstərilən bölgüləri elmi hesab edilə bilməz. Pedaqoji, psixoloji və herontoloji baxımdan insanın aşağıdakı yaş dövrləri müəyyən edilmişdir:

- yeni doğulmuş uşaq: 1-2 ay;
- çağalıq dövrü: uşağın doğulduğu andan 1 yaşadək;
- körpəlik dövrü: 1 yaşdan 3 yaşadək;
- məktəbəqədər yaş dövrü: 3 yaşdan 6 yaşadək;
- kiçik məktəb yaşı dövrü: 6 yaşdan 10 yaşadək;
- yeniyetməlik dövrü: 10–11 yaşdan 14–15 yaşadək;
- gənclik dövrü: 15 yaşdan 25 yaşadək;
- yetkinlik dövrü: 25 yaşdan 60 yaşadək;
- yaşlılıq dövrü: 60 yaşdan – 70 yaşadək;
- qocalıq dövrü : 75 yaşdan 90 yaşadək;
- uzunömürlülük dövrü: 90 yaşdan yuxarı.

Məktəbəqədər yaş dövrü uşağın həm fiziki, həm psixofizioloji, həm də şəxsiyyət kimi inkişafının keyfiyyətcə dönüş dövrüdür. Bu dövrdə ilk növbədə uşağın fiziki inkişafı diqqəti cəlb edir. 3–6 yaşlı uşağın boyunun, çəkisinin artmasında nəzərə çarpacaq dəyişikliklər baş verir. Onun əzələ və sümük sistemi xeyli inkişaf etmiş olsa da, əl və ayaq əzələlərində hələ sümükləşməmiş qığırdaqlar qalır. Uşağın skeleti, əsasən, qığırdaq toxumalardan ibarət olur. Ona görə də lazımi tələblərə əməl olunmadıqda uşağın qaməti düzgün inkişaf etmir.

Ünsiyyət uşağın sosial keyfiyyətlərinin formalaşmasında başlıca rol oynayır. Bu dövrdə uşaq valideyn ilə daha çox ünsiyyətdə olur. Uşağın sosial tərbiyəsi onun sosial inkişafının əsasını təşkil edir. Məhz məktəbəqədər yaş dövründə uşaqlar və böyüklər arasında qarşılıqlı ünsiyyət yaranır. Erkən uşaqlıqda uşaqlar əşyalardan necə istifadə etmək lazım olduğunu öyrənirlər. Daha sonra uşaqlar böyüklərin hərəkətlərini təqlid edir, onlar kimi davranmağa çalışırlar.

Sosial tərbiyə nədir? Sosial tərbiyə uşağın başqalarının istəklərinə diqqət yetirmək, onların işləri ilə maraqlanmaq, insanlara hörmətlə yanaşmaq, kədərinə heyifsilənmək, sevincinə sevinmək və s. deməkdir. Çalışmaq lazımdır ki, bu dövrdə uşaqlarda paxıllıq, günahkarlıq hissi formalaşmasın. Oğlan yaşıdının əlindəki oyuncaq maşını kobudcasına aldığı üçün narahat olmalı, ondan üzr istəməlidir. Qızlar kuklaları zədələməməli, anlamalıdırlar ki, oyuncaqları korlamaq olmaz. Onlar hər bir əşyanın qiymətini bilməlidirlər.

Məktəbəqədər dövr uşağın fəaliyyətin subyekti kimi formalaşmasının ilkin mərhələsidir. Bu dövrdə məqsədyönümlülüyün əsası qoyulur. Böyüklərin qiymətləndirməsi, nəzarətinin təsiri altında bağça yaşının sonlarında uşaqlar öz hərəkət və fəaliyyətlərindəki qüsurları hiss etməyə başlayırlar. Bununla əlaqədar onlar təqlid obyektlərini dəqiqləşdirirlər. Məktəbəqədər yaş dövründə həm ümumi, həm də xüsusi qabiliyyətlərin formalaşması imkanları yaranır. Bu dövrdə bir sıra *anatomik-fizioloji xüsusiyyətlər* özünü göstərir. Uşaq fiziki cəhətdən inkişaf edir: erkən uşaqlıq dövründə (1–3 yaş) onun boyu ildə orta hesabla 4–5 sm, çəkisi 1–2 kq, 5–6 yaşda isə boyu 5–6 sm, çəkisi 2–2,5 kq artır. Bu yaşda uşaqların sümük-əzələ sistemi xeyli inkişaf etsə də, sümükləri kövrək olur. Odur ki, uşağın ağır yük qaldırmamasına, düzgün oturmasına, yatmasına nəzarət etmək lazımdır.

Bu yaşda uşaqlarda müəyyən *psixoloji xüsusiyyətlər* də özünü göstərir: duyğuları, qavrayışları, hafizələri, nitqləri inkişaf edir, idrak maraqları artır. Uşaqlar hər şeyi öyrənməyə can atır, böyüklərə çoxlu suallar verirlər.

Məktəbəqədər dövrdə uşağın iradəsi zəif, təqlidetmə güclü olur. O, təsir altına tez düşür. Yaşlıların, xüsusən, valideynlərin müsbət nümunəsi, sözü onlar üçün böyük əhəmiyyət kəsb edir. Oyun, idman, əmək, rejim iradəni möhkəmlətməkdə, çətinlikləri aradan qaldırmaqda onlara kömək göstərir. 3– 6 yaşlı uşaqların hissi-emosional aləmi zəngin olur. Onlar şən oyunları, əyləncələri, nağıl və yumoru xoşlayırlar. Bu tədbirlərin təsiri ilə uşaqlarda əxlaqi-estetik hisslər formalaşır.

Bu yaşda uşaqlarda xarakterin bünövrəsi qoyulur. Uşağı hədsiz dərəcədə əzizlədikdə, daim güzəştə getdikdə, bütün tələblərini ödədikdə onda eqoizm, şıltaqlıq, kobudluq, ərköyünlük, dəcəllik baş qaldıra bilər. Bunun qarşısını almaq üçün uşağa münasibətdə qayğı ilə tələbkarlığı uzlaşdırmaq lazımdır. Uşaqlarda qabiliyyət və bacarıqların ilk əlamətləri (musiqi duyumu, rəsm, rəqs və s.) özünü büruzə verir. Onları vaxtında aşkara çıxarmaq və uşaqların inkişafı üçün qayğı göstərmək vacibdir.

Üçyaşlı uşaqlarla böyüklərin münasibətlərində müəyyən çətinliklər yaranır: uşaqlar müstəqilliyə can atır, hər şeyi özləri sərbəst yerinə yetirmək istəyirlər. Valideynlər isə onların müstəqilliyini məhdudlaşdırır, çox şeyi qadağan edirlər. Uşaq tərslik edir, hər şeyi əksinə etməyə çalışır. Bununla da o, böyüklərin tələblərinə, qadağalarına öz neqativ münasibətini bildirirlər. Psixoloqlar bunu "üç yaş böhranı" adlandırırlar. Məktəbəqədər yaşda əsas fəaliyyət növü oyundur. Valideynlər uşağa müəyyən sərbəstlik verməli, onu müxtəlif növ oyunlara cəlb etməli, birlikdə oynamağa çalışmalıdırlar. Uşaq oyunlarına rəhbərlik zamanı diqqət yetirmək lazımdır ki, oyun təkcə əyləncə vasitəsi olmasın, uşaq oyunda həyatı öyrənsin, tərbiyələnsin və psixi cəhətdən inkişaf etsin.

Psixoloji tədqiqatlar göstərmişdir ki, uşaqlarda ixtiyari diqqətin inkişafına fikirləşmək, danışmaq xeyli kömək edir. Təcrübə göstərir ki, əgər uşaqları həmişə nə edəcəklərini hündürdən deməyə alışdırsaq, onlar ixtiyari olaraq öz diqqətlərini hər hansı obyekt və ya onun detalları üzərində daha uzun müddət saxlaya bilirlər.

Məktəbəqədər yaşın sonuna doğru uşaqda tədricən öz diqqətini müstəqil idarə etmək bacarığı özünü göstərir. Bağça yaşı dövründə uşaqların hafizəsi tədricən qeyri-ixtiyari yaddasaxlamadan ixtiyari yaddasaxlamaya keçidlə səciyyələnir.

Psixoloqların tədqiqatları göstərmişdir ki, mnemik əməliyyatlar aparılmasına xüsusi olaraq hazırlanmadıqda onlarda yaddasaxlama və yadasalma qeyri-ixtiyari xarakter daşıyır. Böyük bağça yaşı dövründə eyni şəraitdə tədricən qeyri-ixtiyari yaddasaxlama və yadasalmadan ixtiyari yaddasaxlama və yadasalmaya keçid baş verir. Beləliklə, bağça yaşının sonunda uşaqlarda yaddasaxlama və yadasalma tədricən ixtiyari xarakter daşımağa başlayır.

Bağça yaşının əvvəlində qeyri-ixtiyari görmə – emosional hafizə üstünlük təşkil edir. İxtiyari hafizənin inkişafı uşaqların qarşısına yaddasaxlama və yadasalma ilə bağlı xüsusi mnemik

məqsədlərin qoyulması ilə sıx bağlı olur. Bunun üçün oyun fəaliyyətindən istifadə daha səmərəli nəticə verir.

**Kiçikyaşlı məktəblilərin xüsusiyyətləri.** Bu yaşda orqanizmin *anatomik-fizioloji inkişafı* yeni mərhələyə qədəm qoyur: uşaqların boyu ildə orta hesabla 3–4 sm, çəkiləri 2–3 kq artır. Skeletin sümükləşməsi başa çatmadığından onların partada düzgün əyləşmələrinə diqqət yetirmək lazımdır. Bu yaşda ürək-damar sistemi zəif inkişaf edir. Buna görə də uşaqların hərəkətdə olmalarına ehtiyac duyulur. Kiçikyaşlı məktəblilərin özlərinə məxsus psixoloji xüsusiyyətləri vardır. Bu yaşda konkret təfəkkür, qeyri-ixtiyari diqqət, mexaniki hafizə üstünlük təşkil edir. Onların nitq bacarıqları da zəif olur. Çox vaxt şagirdlər mətnləri şeir kimi əzbərləyir, mexaniki yadda saxlamağa çalışırlar. Bunun qarşısının alınmaması nəticəsində onlarda əzbərçilik yaranır. Buna görə müəllim şagirdləri mətnin məzmununu öz sözləri ilə danışmağa, ona plan tutmağa, suallara cavab tapmağa, sərbəst mövzularda kiçik inşalar yazmağa daha çox cəlb etməlidir.

Bu yaşda əsas fəaliyyət növü *təlimdir*. Təlim prosesində uşaq biliklərə yiyələnir, tərbiyə olunur və psixi cəhətdən inkişaf edir. Müəllim şagirdlərə öz təlim əməklərini düzgün təşkil etməyə, öyrənmənin səmərəli yollarını mənimsətməyə çalışmalıdır. K.D.Uşinski bunu ibtidai təlimdə bilik verməkdən də vacib vəzifə hesab edirdi.

Kiçikyaşlı məktəblilərlə təlim-tərbiyə işində bu yaşın xüsusiyyətlərini nəzərə almaq mühüm əhəmiyyət kəsb edir. Onlardan başlıcaları aşağıdakılardan ibarətdir:

**a)** Kiçikyaşlı məktəblilər hər şeyi öyrənməyə can atırlar. Bunu nəzərə alaraq, şagirdlərdə mütaliə tələbatı formalaşdırmaq lazımdır.

**b)** Uşaqlar şən, emosional təbiətə malikdirlər. Müəllimlər və valideynlər bədii əsər və filmlərdən, canlı sözdən istifadə edərək, onlara yüksək mənəvi hisslər (vətənə məhəbbət, xeyirxahlıq, qayğıkeşlik, diqqətlilik və s.) aşılamağa çalışmalıdırlar.

**c)** Kiçikyaşlı məktəblilərdə ünsiyyət tələbatı güclüdür. Bunu nəzərə alaraq, uşaqları kollektiv tədbirlərə, birgə oyunlara, əməyə cəlb etmək, onlarda kollektivçilik, yoldaşlıq, dostluq, nəzakətlilik, diqqətlilik kimi keyfiyyətlər aşılamaq lazımdır.

**ç)** Uşaqlar təsir altına tez düşürlər. Bundan şagirdlərin düzgün tərbiyəsi üçün istifadə edilməlidir.

**d)** İbtidai sinif şagirdləri müəllimin tapşırıqlarını böyük həvəs və səylə yerinə yetirirlər. Müəllim və valideynlər uşaqları müəyyən tapşırıqlar sisteminin tətbiqinə, həvəsləndirməklə onlarda müsbət keyfiyyətlərin tərbiyələnməsinə nail ola bilərlər.

**ədəbiyyat**

1. Mursaqulova R. Məktəbəqədər pedaqogika. Bakı: ADPU-nun nəşriyyatı, 2012.
2. Həsənov A. M. Məktəbəqədər pedaqogika. Bakı: "Nasir", 2000.
3. Əzimli Q. E. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı, 2006.
4. Qədirov Ə. Ə. Yaş psixologiyası. Bakı, 2002.
5.Выготский Л. С. Собрание сочинений. Москва, 1982.

**РАЗВИТИЕ ЛИЧНОСТИ У ДЕТЕЙ В ДОШКОЛЬНОМ ВОЗРАСТЕ**

**резюме**

В статье рассказывается о развитии личности у детей в дошкольном возрасте. Отмечается, что человеческое развитие проходит через разные возрастные периоды, и каждый период оказывает определенное влияние на развитие личности. Дошкольный возраст является качественным поворотным моментом в развитии физического, психофизиологического и личностного характера ребенка. В этот период в первую очередь привлекает внимание физическое развитие ребенка.

**DEVELOPMENT OF PERSONALITY IN PRESCHOOL AGE OF CHILDREN**

**summary**

Human development passes through different age periods, and each period has a certain impact on the development of the individual. Preschool age is a qualitative turning point in the development of the child's physical, psychophysiological and personal character. During this period, the child's physical development first of all attracts attention.

# MÜƏLLİMLƏRİN İNNOVATİV METODLARLA PEŞƏKAR HAZIRLIĞINDA MENTORUN ROLU

**Sevinc Məhərrəmova,**
Sabirabad şəhər N. Nərimanov adına 2 nömrəli texniki
təmayüllü beynəlmiləl məktəb-liseyin ibtidai sinif müəllimi
sevinc.m@mentor.ite.az



**açar sözlər:** mentor, innovasiya, təlim texnologiyaları, metodik tövsiyə, pedaqoji yanaşma, distant təhsilə dəstək;
**ключевые слова:** mentor, инновации, технологии обучения, методические рекомендации, педагогический подход, дистанционная поддержка;
**key words:** mentor, innovation, learning technology, methodical recommendations, distancesupport.

Müasir cəmiyyətin səviyyəsinə uyğunlaşa bilən, öz fəaliyyəti ilə bu inkişafın iştirakçısı olacaq yeni vətəndaş yetişdirməyin, müəllimlərlə yanaşı, həmin prosesdə rolu olan müvafiq qurumların qarşısında da mühüm tələb kimi qoyulması diqqəti cəlb edir.

Müəllimlərin peşəkarlığının innovativ metodlarla artırılması, aktual məsələ kimi, həmişə diqqət mərkəzində olmuşdur. Cəmiyyətin tələblərinə cavab verə bilən, ixtisasına dərindən yiyələnən, öz üzərində daim işləyən, pedaqoji-psixoloji problemlərdən xəbərdar olan müəllim ordusu yetişdirmək yeni yanaşmalar tələb edir. "Cəmiyyətin sosial sifarişini layiqincə yerinə yetirmək üçün hər bir müəllim müasir kütləvi informasiya vasitələrindən, elmi-metodik vəsaitlərdən, dayaq məntəqələrinin, metodik mərkəzlərin, məktəb metodbirləşmələrinin, ölkəmizdə qabaqcıl müəllimlərin fəaliyyətindən dünya təhsil sistemində əldə edilən müsbət nəticələrdən, təcrübələrdən yaradıcı yanaşmalarla yararlanmalıdır. (2, səh.131)

*Mentor və ya mentorluq nədir?*

Müxtəlif sahələri əhatə edən mentorluq nümunəvi davranış, bilik, bacarıq, səriştəlilik kimi xüsusiyyətləri özündə birləşdirməklə yanaşı, təcrübəsini paylaşa bilən, uğurlu əməkdaşlıq strukturunu təmin etmək bacarığına malik bələdçilik fəaliyyətidir. *Mentor* sözü ingilis dilində *müdrik, ağıllı, məsləhət verə bilən* mənasında işlənir. Mentorluq daha təcrübəli, daha bilikli bir peşəkarın təcrübəsi, səriştəsi nisbətən az olan müəllimə metodik yardım göstərməsi üçün yaradılmış əlaqələr sistemidir. Təhsil sahəsində də mentorluq sisteminin yaradılması təlimin keyfiyyətinin yüksəldilməsində ideal variantlardan biridir. Hər bir ümumtəhsil məktəbində mentorluq fəaliyyəti sistemli şəkildə qurularsa, təhsilin inkişafına böyük təkan verə bilər.

Mentor öz-özünü qiymətləndirə bilir. O, peşəkar inkişafın fərdi iş planını və nümunəvi dərsləri təşkil edir. Mentor məktəbin ibtidai siniflər üzrə tələbatlarını araşdırır və onun əsasında müəllimlər üçün peşəkarlığın inkişafına dair təlim təşkil edir.

Bəzən yeniliyi qəbul etməkdə çətinlik çəkən, hətta ona qarşı barışmaz mövqedə duran, ənənəvi metodların tətbiqinə üstünlük verən müəllimlərə də rast gəlirik. Belə hallarda fəaliyyətin səmərəli təşkili metodmərkəzin rəhbərlik bacarığından, mentorların səriştə və məsuliyyətindən, müasir məktəbə, insana yanaşma tərzindən asılıdır.

Təhsilverənlərin peşəkarlıq səviyyəsinin daim yüksəlməsini təmin edən yeni sistemin yaradılması (1.2-ci istiqamət, 2.1.), digər tədbirlərlə yanaşı, müəllimlərin innovativ metodların tətbiqi bacarıqlarının artırılmasını nəzərdə tutur. Qabaqcıl pedaqoji təcrübələrin öyrənilməsi, ümumiləşdirilməsi və yayılmasına, təlimin yaxşılaşdırılmasına xidmət etmək mentorun fəaliyyət planına daxil olan məsələlərdəndir. Təlim-tərbiyə prosesinin keyfiyyətinin yaxşılaşdırılması, yeni pedaqoji texnologiyaların, müasir təlim metodları və strategiyalarının öyrənilməsi, yaradıcı-

lıqla tətbiqi sahəsində, məktəb, metodbirləşmə rəhbərləri, müəllimlərin işinin istiqamətləndirilməsində mentorun rolu danılmazdır. Müəllimlərin tədrisdən ayrılmadan peşəkarlıq səviyyəsinin artırılması üzrə özünü doğrultmuş innovativ modellərin tətbiqinin (2.2-ci istiqamət, 2.1.2.) reallaşdırılmasına dəstəkləyici mühitin yaradılması məqsədilə ilkin tədbirlərdən biri məhz müəllimlə mentor arasında işgüzar əlaqələrdir.

Mentor təlim resursları, müxtəlif vəsaitlər, peşəkarlığın inkişafına dair tövsiyələr hazırlayır. O, müəllimlərin peşəkar inkişafının fasilitatoru olur, onlara məsləhətlər və əlavə işlərin icrası haqqında təlimatlar verir. Mentorun fəaliyyətinin miqyası çox genişdir. Onun vəzifəsi öz bilik və təcrübəsini yalnız öz məktəbinin müəllimləri ilə deyil, eləcə də digər məktəblərin müəllimləri ilə də bölüşmək, onlara kömək etmək, peşəkar məsləhətlər verməkdir.

"Mentor müəllimləri qiymətləndirmə qrupunun nümayəndələri ilə monitorinqlər keçirir, bu təcrübənin kimin üçün maraqlı və müvafiq olduğunu araşdırır. Mentor ildə ən azı 5 model dərsin keçilməsini təşkil edir" (3, səh. 36–37), məktəbin tələbatlarının təhlilini aparır və alınan nəticələr əsasında müəllimlər üçün peşəkar inkişaf tədbirlərini planlaşdırır. Təbii ki, müəllimlərin fərqli tələbatları ola bilər. Bunun üçün peşəkar inkişaf tədbirlərini fərqli şəkildə də planlaşdırmaq olar. Mentorun özü konkret vəziyyətdən irəli gələrək belə qərar qəbul edir.

Mentorun əsas fəaliyyəti tədris resursları hazırlamaq, dövri mətbuatda peşəkar elmi-metodik məqalələrlə çıxış etmək, konfranslarda onların təqdimatını formalaşdırmaqdır. Bu fəaliyyətdən məqsəd odur ki, mentor peşəkar müəllim kimi öz biliyi, təcrübəsi, kompetensiyalarını həmkarları üçün faydalı etsin və beləliklə, məktəbin inkişafına dəstək versin.

Tədrisin səviyyəsini yüksəltmək üçün müəllim hazırlığının keyfiyyətini təmin etmək lazımdır ki, onlar müxtəlif məzmunlu nəzəri və praktik bacarıqlar formalaşdıran təlimlərə cəlb olunsalar da, bacarıqların tədris prosesində tətbiqi zamanı bir çox çətinliklərlə qarşılaşırlar. Bu, təhsil müəssisələrində mentorluq xidmətinin genişləndirilməsi zərurətini yaradır. Hər sahədə mühüm irəliləyişlərə nail olmuş qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, təhsilverənlərin tədrisdən ayrılmadan peşəkarlıq səviyyələrini artırmaları, mentorun onlara dəstək göstərməsi, iş prosesində onlara baş çəkməsi, əməkdaşlıq etməsi, rəy verməsi və fikir yürütməsi perspektivləri təmin edir. Mentorlar pedaqoji heyətin peşəkarlığının inkişafına dəstək göstərərək aşağıdakıları yerinə yetirirlər:

- Təhsil müəssisələrindəki və məktəblərdəki real vəziyyəti qiymətləndirirlər.
- Mentorluq dəstəyi göstəriləcək müəllimləri və inzibati heyəti müəyyən edirlər.
- Pedaqoji heyətin peşəkarlığının inkişafına dəstək göstərmək istiqamətində məqsədləri müəyyənləşdirirlər.
- Əyani, yaxud distant dəstək göstərməklə pedaqoji heyətin fəal təlim prosesini təşkil edir, müşahidə aparırlar.
- Mentorluq dəstəyi göstəriləcək müəllim və inzibati heyətin hər bir üzvü üçün fərdi inkişaf planının tərtibinə kömək göstərirlər.
- Pedaqoji heyətin fəaliyyət prosesini təhlil edirlər.
- Pedaqoji heyətin fəaliyyətinin qiymətləndirilməsini həyata keçirirlər.

Mentor müəllimlərin fəaliyyətini müşahidə etməklə mövcud əməliyyata uyğun innovasiyalar, yeni informasiya mənbələri təklif etməli, onlara təlim texnologiyalarının tətbiqi ilə bağlı kömək göstərməli, bacarıqların dinamikliyinin yüksəldilməsinə çalışmalıdır. Müasir təlim texnologiyaları dərsə hazırlıq prosesində müəllimin, dərsdə isə şagirdlərin fəallığını tələb edir. Bunu nəzərə alaraq, mentor fəal təlim metodlarından istifadə yollarını göstərir. Müasir təlim texnologiyalarının köməyi ilə təlimin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici funksiyaları özünü daha qabarıq şəkildə büruzə verir, onun keyfiyyətini yüksəldir. Buna görə də mentor müəllimlərə tədris prosesində təlim texnologiyalarından istifadə bacarığını möhkəmləndirmək məqsədilə interaktiv lövhə (*Promethean, Mimio, Smartboard* və b.) texnologiyalarından, fəal tə-

lim mühitində tədris prosesinin şagirdlərin maraqlarına uyğun qurulması, kompüterin tətbiqi proqramları və resursların hazırlanması üçün faydalı ola biləcək digər proqramlardan da istifadə etməyi öyrədir.

Rayon (şəhər) təhsil şöbələrinin nəzdindəki metodik mərkəzlərdə çalışan mentorlar həm də müəllim kimi fəaliyyət göstərirlər. Mövcud əsasnaməyə görə, metodmərkəzdə işləyən mentor rayon (şəhər) təhsil şöbəsinin əməkdaşı olmaqla, onun tabeliyindəki bütün təhsil müəssisələrinə metodik xidməti həyata keçirməlidir. " Öz fəaliyyətində təhsil qanununu, direktiv orqanların təlim-tərbiyə sahəsinə dair normativ-hüquqi sənədlərini, "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin nümunəvi Nizamnaməsi"ni, Azərbaycan Respulikası Təhsil Nazirliyinin, yerli təhsil orqanlarının əmr, sərəncam və təlimatlarını rəhbər tutmalı, mülkiyyət növündən asılı olmayaraq, bütün təhsil müəssisələrinə metodik xidmət göstərməlidir". (4, səh.18)

Ayrı-ayrı fənlər üzrə mentorlar metodbirləşmələrin işinə paralel, istiqamətverici mövqedə dayanır, onlara mentor köməyi göstərir, bir növ müəllimin dayaq məntəqəsinin və metodbirləşmənin təlimatçısı funksiyasını yerinə yetirirlər. Bəzən fənlər üzrə müəllimlərin sayı az olduqda iki qohum fənnə (dil-ədəbiyyat, fizika-riyaziyyat, kimya-biologiya, fiziki tərbiyə və çağırışaqədər hazırlıq və s.) bir metodist təyin olunur. Mentor müəllimin ən yaxşı məsləhətçisi olmalı, ayrı-ayrı fənlər və qohum fənn birləşməsi üzrə kurator funksiyasını yerinə yetirməlidir. Deməli, mentor, hər şeydən əvvəl, idarəçilik qabiliyyətinə, təlim texnologiyalarına və dərin ixtisas biliklərinə malik, güclü təlimçi, "öyrədənin öyrədəni" olmalıdır.

Metodbirləşmə ibtidai siniflər və ayrı-ayrı fənlər üzrə bir məktəbdə işləyən müəllimləri əhatə edir. O, məktəbin metodiki şurasına tabedir. Metodbirləşmə rəhbəri ali təhsilli, qabaqcıl təcrübəli, idarəetmə bacarığına malik təlimçi-müəllim olmalıdır. Kiçik məktəblərdə metodbirləşmə, əsasən, qohum fənlərin birləşdirilməsi yolu ilə təşkil olunur.

Beləliklə, mentorlar peşəkar inkişaf məqsədilə keçirilmiş tədbirlərdə, konfrans və seminarlarda məruzəçi kimi çıxış etməli, treninqlərin və dərs resurslarının hazırlanmasında, elmi-metodiki məqalələrin yazılmasında fəallıq göstərməlidirlər. Mentorların metodiki ədəbiyyatın, dərsliklərin tərtibində, nazirliyin hazırladığı proqram və layihələrdə iştirakı məqsədəuyğundur.

**ədəbiyyat**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 2013-cü il, oktyabr ayının 24-ü.

2.Əsədova İ. Məktəbin metodik təminatında metodmərkəzlərin işinin idarə olunmasının rolu. Bakı: ARTPİ-nin "Elmi əsərlər"i, 2015, №2.

3.İnasaridze M., Lobjanidze S., Ratiani M., Samsonia İ. Müəllimlik fəaliyyətinin başlanması, peşəkar inkişaf və karyera irəliləyişi sxeminin məlumat kitabçası. (I hissə) Gürcüstan Təhsil və Elm Nazirliyi, Müəllimlərin Peşəkar İnkişafı Milli Mərkəzi, 2015.

4. Qəribov Ş. Ümumtəhsil məktəblərinin idarəolunmasında proqnozlaşdırma və hesabatvermə (topluda məqalə).Təhsilin idarə edilməsinin aktual problemləri. Bakı: "Şahin-MB" MMC, (metodik vəsait), 2016.


**РОЛЬ МЕНТОРА В ПРОФЕССИОНАЛЬНОЙ ПОДГОТОВКЕ УЧИТЕЛЕЙ ИННОВАТИВНЫМИ МЕТОДАМИ**

**резюме**


В статье расскрывается роль деятельности ментора в повышении профессионализма учителей. В то же время приводится краткая информация об основной деятельности, функциях ментора. Так же рассказывается о повышении уровня профессионализма учителей без отрыва от работы, об укреплении способностей использования технологий. Уделяется вниманиии использованию интерактивных досок в учебным процессе.


**THE ROLE OF THE MENTOR IN THE PROFESSIONAL TRAINING OF TEACHERS INNOVATIVE BY METHODS**

**summary**


The article reveals the role of the mentor's activity in raising the professionalism of teachers. At the same time, a brief summary of the main activities and functions of the mentor is provided. The same is told about raising the level of professionalism without detaching the work of teachers, on strengthening the ability to use technology.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİNDƏ SOSİAL İSTİQAMƏTLİLİK

**Şəhla Əliyeva,**
ADPU-nun məktəbəqədər təhsil, psixoloji xidmət və korreksiyaedici təlim fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru



**açar sözlər**: uşaq, ailə, məktəbəqədər müəssisə, sosiallaşma, ətraf aləmlə tanışlıq, inkişaf;
**ключевые слова**: ребенок, семья, дошкольное учреждение, социализация, знакомство с окружающим миром, развитие;
**кey words:** child, family, preschool, socialization, acquaintance with the outside world, development.

Uşağın sosiallaşmasında ailədən sonra məktəbəqədər təhsil müəssisəsi ciddi fəaliyyət göstərir. Uşağın gələcək inkişafı, onun yeni fəaliyyət şəraitinə uyğunlaşması, sosiallaşması, əsasən, bu müəssisədən asılıdır.

Uşaqlarla bir neçə istiqamətdə aparılan iş bu problemin həllinə xidmət edir. Bunlardan biri *ətraf aləmlə tanışlıqdır* ki, onun köməyi ilə cəmiyyətə yaxından bələd olmaq imkanı yaranır. Müəyyən problemlər üzrə, digər proqramlardan da istifadə olunmaqla, uşaqların fərdi-psixoloji xüsusiyyətləri və əməkdaşlıq imkanlarına uyğun yeni texnologiyalar tətbiq edilir.

Hazırda məktəbəqədər təhsil müəssisələrində ətraf aləmlə tanışlıq üzrə proqramların məzmunu yeniləşir, müvafiq metodik vəsaitlər yazılır. Beləliklə, bir çox problemlərin həllinə şərait yaradılır.

Uşaqların sosial cəhətdən inkişaf etdirilməsi üzrə məktəbəqədər təhsil müəssisələrinin işi bir sıra məqamlardan ibarətdir. Bu işin məzmununa doğma yaşayış məskəninin ekoloji problemlərinin, tarixinin, mədəniyyətinin öyrənilməsi, insanların həyat fəaliyyəti, ünsiyyət formaları, adət-ənənələri və s. daxildir. Ətraf aləmlə tanışlıq prosesində uşaqlar sağlamlığın qorunması, öz hüquqları haqqında ilkin məlumatlar alırlar.

## uşağın sosial inkişafına təsir edən amillər

**sxem 1**




“Fərd cəmiyyətdən kənarda mövcud ola bilməz. Cəmiyyətlə əlaqəsi və müəyyən fəaliyyəti qarşısında vəzifəsi olmayan insan sosial cəhətdən inkişafının mahiyyətini itirir. Şəxsiyyətin

sosiallaşması prosesi uşaqlıqdan başlayır və ömür boyu davam edir. Uşağın həyat haqqında dolğun anlayışı onun məkan-zaman, keyfiyyət-kəmiyyət normalarının vəhdətindən yaranır". [6, səh. 33]

Məktəbəqədər yaşlı uşaqlar şüurlarında cəmiyyət anlayışını yarada və özlərinin oradakı yerini sərbəst şəkildə müəyyənləşdirə bilmirlər. Bu istiqamətdə onların böyüklərin köməyinə ehtiyacı vardır. Məktəbəqədər dövrün sonuna yaxın uşaqlarda ilkin dəyərlər sistemi yaranır.

Uzun illər Azərbaycanda məktəbəqədər təhsil uşaqların idrakının inkişafına istiqamətləndirilmişdir. Təhsilin bu mərhələsinin məqsədi uşağa bilik mənimsədilməsindən çox, onun fərdi xüsusiyyətlərinin – mənəvi keyfiyyətlərin, emosional tələbatların, digər insanlarla münasibətlər prosesində sosial-psixoloji xüsusiyyətlərin, özünüqiymətləndirmənin inkişaf etdirilməsindən ibarət olmuşdur.

Uşağın sosiallaşmasında ailədən sonra növbəti vacib mərhələ körpələr evi, uşaq bağçası qrupudur. Uşağın fərdi və sosial inkişafında onun qrup yoldaşları ilə qurduğu münasibətlər çox vacibdir.Tərbiyəçi bir çox hallarda uşaqlarla heç bir qohumluq əlaqəsi olmayan insandır. Onunla ünsiyyət prosesində uşaq müəyyən təcrübə qazanır.

Məktəbəqədər təhsil müəssisəsində uşağın tərbiyəsi ilə tərbiyəçi ilə yanaşı, psixoloq, musiqiçi, idmançı və b. pedaqoqlar da məşğul olurlar. Məktəbəqədər təhsil müəssisəsində sosial fəaliyyət uşağın yaş xüsusiyyətləri və məktəbə hazırlıq səviyyəsi nəzərə alınmaqla təşkil edilir. Məktəbəqədər təhsil müəssisəsindəki hərtərəfli fəaliyyət uşağın sosial gerçəkliyə cəlb olunmasının həm vacib şərti, həm də vasitəsidir ki, onlar uşaqlara ətraf aləmi fəal şəkildə dərk etmək imkanı yaradır. Bu fəaliyyət uşağın ətraf aləmlə tanışlıq metodlarını – hərəki, oyun, kommunikativ, bədii-estetik, yaradıcı metodları necə mənimsəməsindən asılıdır. Uşaqlar müxtəlif fəaliyyət növləri və metodlarının mənimsənilməsi vasitəsilə yeni məlumatlar toplayır, müəyyən təcrübə qazanır, nəticədə daha yüksək səviyyədə fəaliyyətə sövq olunurlar. Böyüklə uşaq arasında müştərək məzmunlu fəaliyyət sosial təcrübənin ötürülməsi sosiallaşma məktəbinin əsasını təşkil edir. Sosiallaşmanın əsasında fəaliyyət durur. Məktəbəqədər təhsil müəssisəsində fəaliyyət sosiallaşmanın şərti və vasitəsi kimi çıxış edir. Sosiallaşma oyunlar, məşğələlər, ekskursiyalar, gəzintilər prosesində həyata keçirilir. Uşağın praktik həyata hazırlanmasında onun kommunikativ bacarıqları – ünsiyyət, oxu, rəsm müsabiqələri və s. mühüm yer tutur. Bu proqramın həyata keçirilməsi nəticəsində uşaqlar müəyyən biliklər alır, emosional təcrübə qazanır, müxtəlif situasiyaları qiymətləndirməyə başlayır, fəallıq nümayiş etdirirlər.

Gerçəkliklə tanışlıq vasitələrindən biri də ünsiyyətdir. *Ünsiyyət*, fəaliyyət növü olaraq, şəxsiyyətin sosiallaşması prosesində mühüm rol oynayır. Pedaqoqlar, valideynlər, yaşıdları ilə ünsiyyət zamanı uşaq müxtəlif əşyalar, onların mahiyyəti, təbiət hadisələri və ictimai həyat, insanlar arasındakı münasibətlər, onların müxtəlifliyi haqqında məlumat alır və biliklərini dərinləşdirir. Müştərək fəaliyyət prosesində yaranan ünsiyyət bir çox fərdi xüsusiyyətlərin formalaşmasını təmin edir. Bu, hisslərin yaranmasının, idraki marağın, digər insanlarla ünsiyyətin inkişafı, insanlarla münasibətdə müsbət və mənfi təcrübənin toplanmasının əsasını təşkil edir. Həmin baza üzərində uşağın xarakteri formalaşır, o, sonradan hərəkətləri və davranışında öz əksini tapacaq normaları, qaydaları mənimsəyir.

Məktəbəqədər təhsil müəssisəsində bütün fəaliyyət növlərinin qarşılıqlı əlaqəsi şəxsiyyətin sosiallaşmasının ən vacib komponentidir. Sosiallaşma – cəmiyyətdə müstəqil həyata hazırlaşan fərdin sosial-mədəni təcrübəni mənimsəməsi prosesidir ki, onun nəticələri sosial fəaliyyətin müxtəlif növlərində fəal, səriştəli və məsuliyyətli iştirak etməyə imkan verir. Sosiallaşmaya müxtəlif dəyərlər, bilik və bacarıqlar, şəxsiyyətlərarası qarşılıqlı münasibətlər, davranış normaları daxildir. Bu, onunla izah olunur ki, şəxsiyyətin intellektinin, hisslərinin, mənəviyyatının inkişaf etdirilməsi məsələləri bir-biri ilə bağlıdır və tərbiyə prosesində onları ayırmaq mümkün deyil. Məktəbəqədər təhsil müəssisələrində sosial uyğunlaşma prosesində həyata keçirilən bu

kompleks yanaşma problemli ailələrdən çıxan uşaqlar üçün xüsusilə vacibdir. Belə ki, bu uşaqların ailə tərbiyəsində çatışmazlıqlar müşahidə olunur. Bu zaman kollektivin hər bir işçisi uşağın davranışını anlamalı və qəbul etməlidir. Belə yanaşma müxtəlif səviyyələrdə ünsiyyət qurmaq üçün əlverişli şərait yaradır.

Tərbiyəçilərin məqsədlərindən biri də *kommunikativ bacarıqların inkişaf etdirilməsidir*. Şəxsiyyətin sosiallaşması üzrə kompleks yanaşma zamanı etüdlərin, hekayələrin uydurulması, modelləşdirmə, təhlil, yaradıcı tapşırıqlar, mini-müsabiqələr, improvizasiya və s. priyomlardan istifadə olunur. İnsanlararası münasibətlər əsasında qurulan korreksiyaedici-inkişafetdirici oyunlar uşaqlara bir-biri ilə ünsiyyət qurmağı, yaşıdlarına hörmətlə yanaşmağı öyrədir, ümumbəşəri dəyərləri mənimsədir. "Uşaqlarda ekoloji mədəniyyətin tərbiyə olunması inkişafetdirici təlim prinsipləri əsasında həyata keçirilir. Böyük məktəbəqədər yaşlı uşaqlarda təbiət haqqında, insanın oradakı yeri və rolu haqqında dolğun fikirlər formalaşır. Uşağın intellekti aldığı məlumatlara uyğun formalaşır. Hər bir mövzuya uyğun biliklərin məzmununda insanın ətraf mühitin yaradılması və inkişaf etdirilməsində roluna böyük yer ayrılır". [4, səh.29]

Məktəbəqədər yaşlı uşaqların bilik dairəsinin genişlənməsi onlarda böyüklər aləminə marağın inkişaf etməsi ilə paralel baş verir. Söhbətlər əsasında uşaqlar böyüklərin peşəkar fəaliyyətləri ilə tanış olur, onların əməyinin digər insanlar üçün əhəmiyyətini öyrənirlər. Uşaq özünü dərk etməklə ailədə sosial rolunu, doğmaları ilə əlaqəsini, nəslinə aidiyyatını anlayır. Bu istiqamətdə "Mən", "Mən kiməm?", "Mən və valideynlərim", "Ailə", "Evdə tək olduğum zaman", "Yaxşı-pis" kimi mövzular öyrənilir. Bu mövzuların öyrənilməsi uşaqların biliyini artırır, onlarda müxtəlif hərəkətlərə düzgün münasibət formalaşdırır. Söhbət zamanı "Sən bu vəziyyətdə nə edərdin?" sualından istifadə olunur. "Ailə və qohumluq münasibətləri haqqında söhbətlər zamanı uşaqlara insan üçün ailənin əhəmiyyəti başa salınır. Ailə – diqqət, qayğı, sevgi, nəvaziş, yardım deməkdir. Bu gedişlə uşaqlar ilk dəfə "Mən kim idim?", "İndi kiməm?", " Kim olacağam?" kimi maraqlı suallar ətrafında düşünməyə başlayırlar". [3, səh. 56]

Nəqliyyat sisteminin inkişaf etdiyi, bu sahədə cinayət hallarının artdığı müasir dövrdə uşaqlarda müstəqilliyin tərbiyə olunması çox vacibdir. Məşğələlərdə uşaqlar həyat fəaliyyətinin təhlükəsizliyinin əsaslarını yaş səviyyələrinə uyğun olaraq mənimsəyirlər. Uşaq bağçasından kənarda böyüklərlə qarşılıqlı münasibətlərdə, davranış qaydaları ilə tanış olurlar. Təhlükəsizlik və sağlamlıq dəqiqələrinin keçirilməsi əhəmiyyətlidir. Yuxarı yaş qrupunda küçədə, yollarda, ictimai yerlərdə rast gəldikləri adamlarla münasibətdə davranış qaydaları öyrədilir. "Sosial-məişət sahəsində sosiallaşma çərçivəsində gigiyenik vərdişlər aşılanır, məsələn, meyvə və tərəvəzlərin faydası haqqında məlumat verilir, yeyərkən onları yumaq məsləhət görülür. Uşaqlar öyrənirlər ki, bəzi tərəvəzlər çiy, bəziləri bişmiş halda yeyilir. Uşaqlara "Mebel" mövzusu öyrədilərkən əşyalara ehtiyatlı münasibət (onu qorumaq, ağır əşyaları qaldırmamaq, mebelin üzərində yellənməmək və s.) tələb olunur.

Sosial uyğunlaşma üzrə ən mühüm istiqamətlərdən biri *kütləvi tədbirlərin keçirilməsidir*, məsələn, Bakı şəhəri, 266 nömrəli uşaq bağçasında "Mənim dördayaqlı dostum" mövzusunda rəsm müsabiqəsi keçirilmiş, müvafiq sərgilər yaradılmışdır. Tərbiyəçilər, uşaqlar və valideynlər həmin tədbirlərdə fəal iştirak etmişlər.

"Qrupun mini-muzeyi və uşaq kəşfləri aləmi" müsabiqəsi uşaqlarda yaradıcı bacarıqları inkişaf etdirməyə imkan verir. "Yaşlı insanlar günü" (yaşlı nəslə hörmətlə yanaşmaq), "Yanğınsöndürənlər günü" (yanğınsöndürənlərin peşəsi ilə tanışlıq, alovla ehtiyatlı davranmaq) qeyd olunarkən uşaqların ekoloji bilikləri zənginləşir. Belə tədbirlər, məktəbəqədər təhsil müəssisələrindəki şərait, işçilərin peşəkarlıq səviyyəsi, proqramların sosial-mənəvi məzmunu, onların metodik təminatı uşaqların fərdi inkişafı və sosial uyğunlaşması, həmçinin tərbiyə işinin daha da mükəmməlləşdirilməsi üçün şərait yaradır.

**ədəbiyyat**

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil Proqramı (kurikulumu). (3-6 yaş). Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10 iyul 2012-ci il tarixli sərəncamı.
2. Əliyeva Ş. Məktəbəqədər təhsilin aktual problemləri. Bakı, ADPU-nun nəşriyyatı, 2010.
3. Солодянкина О.В. Социальное развитие ребенка дошкольного возраста. Москва: АРКТИ, 2006.
4. Бреслав Г.М. Эмоциональные особенности формирования личности в детстве. Москва: «Просвещение», 1990.
5. Иванова Н.Б. и др. Социальное развитие детей в ДОУ. (мет. пособие). Москва: ТЦ «Сфера», 2008.

**СОЦИАЛЬНОЕ НАПРАВЛЕНИЕ В УЧРЕЖДЕНИЯХ ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ**

**резюме**

В статье рассказывается о социальном ориентации в деятельности дошкольных образовательных учреждений. Отмечается, что в настоящее время проблема соответсвия между дошкольниками и обществом является очень актуальной. Работа проводится в нескольких направлениях. Одним из них является знакомство с окружающей средой. При знакомстве с окружающей средой дети будут информированы о знаниях про общество. В дополнении к этому, используются и другие программы, которые решают конкретные проблемы.

**SOCIAL DIRECTION IN PRESCHOOL EDUCATION INSTITUTIONS**

**summary**

The article describes the social orientation in the activities of pre-school educational institutions. It is noted that at present the problem of correspondence between preschool children and society is very urgent. Works in several directions. One of them is familiarity with the environment. As a result, children will be informed about the knowledge about society. In addition to this, other programs are also used that solve specific problems.

# ОБЗОР ОТКРЫТОГО ЗАНЯТИЯ В ПОДГОТОВИТЕЛЬНОЙ ГРУППЕ ПО ТЕМЕ «ГЕОМЕТРИЧЕСКИЕ ФИГУРЫ. ЗНАКОМСТВО С ЧАСАМИ »

**Эльмира Велиева,**
РФ, город Москва, Государственное бюджетное образовательное учреждение,
школа №1454, ДОП «Тимирязевская», воспитатель I категории



Образование, как область социальной деятельности, зависит от факторов, событий, процессов, которые могут быть связаны как с внутренней средой, так и с внешними факторами: соответствие национального образовательного процесса мировым стандартам; предоставление большей автономии учебным заведениям в контексте национальных стандартов; использование передовых информационных технологий в учебно-воспитательном процессе; самостоятельное обучение и творческая деятельность в решении проблем и т. д. Эти факторы послужили основой для модернизации образовании.

Исходя из этих требований мы педагоги тоже стараемся приводить в исполнение программные требования. Внизу привожу краткий обзор открытого занятия в подготовительной группе по теме «Геометрические фигуры. Знакомство с часами.»

**Группа:** подготовительная.

**Тема:** Геометрические фигуры. Знакомство с часами.

**Цель**: Систематизация и закрепление математических представлений детей. Знакомство с разнообразием часов. Развивать чувство времени.

**Задачи:**

*Образовательные:*

– закрепление знаний о геометрических фигурах, об их элементов (углы, стороны );

–развивать умение группировать их по цвету и форме;

–закрепление умений последовательно определять и называть дни недели; устанавливать соответствие между вчерашним и завтрашним днем.

–упражнять в составлении тематических композиций из геометрических фигур.

*Развивающие:*

–развивать слуховое и зрительное внимание, логическое мышление, мелкую моторику рук, воображение, сообразительность;

–развивать социальные навыки: работа индивидуальная и в коллективе, умение договариваться, учитывать мнение партнера.

*Воспитательные:*

– воспитание личностных качеств у каждого ребенка: любознательности, целеустремлености, устойчивости интереса к знаниям и умениям, самостоятельности.

## Ход занятия

– Ребята, сегодня мы с вами вспомним геометрические фигуры. Какие геометрические фигуры вы знаете? (*Ответы детей*).



– А теперь поиграем в игру «Будь внимателен!» (На доске треугольники разной конфигурации, разного цвета и размера.) Посмотрите на эти фигуры и скажите: что общего у них? Чем они все похожи**?**

– Правильно. Все эти фигуры – треугольники. А чем они отличаются друг от друга? (Ответы детей.)

– Молодцы! Верно, все эти треугольники различаются по цвету и величине. А теперь посмотрите на эти фигуры и скажите, чем они похожи? (На доске изображены 2 прямоугольника разной величины, 2 ромба разного цвета, 2 трапеции разной величины и цвета, 1 квадрат.) (Ответы детей).



– Правильно, у всех этих фигур по 4 угла, а значит они называются….

– Четырехугольниками.

– А чем они отличаются друг от друга?

– Размером, цветом.

–А теперь предлагаю вам поиграть в «Геометрическое лото». Веселый Карандаш нарисовал замечательные фигуры. Сравните их. Что у них общего? (Большой красный треугольник и маленький синий треугольник).

– Они одной формы.

– Правильно, они одной формы. А чем они отличаются?

– Размером и цветом.

– Сколько признаков отличия вы заметили? (Два). Веселый Карандаш предлагает вам пофантазировать и поставить две следующие фигуры, изменяя два признака. (Ответы детей). Молодцы, и с этим сложным заданием вы справились!

–Веселый Карандаш хочет узнать, как будет называться многоугольник, у которого 5 углов, 6, 7, 8 углов? Возьмите, пожалуйста, линейки и начертите в тетрадках шестиугольник. Он даже вам помог – наметил вершины и пунктирной линией начертил две стороны. Приложите линейку так, чтобы она соединила точки 1 и 2,2 ; 3, 3 и 4 и т.д.

**Физкультминутка.** Разбить детей на группы по 3, 4, 5, 6 человек. Каждая группа получает веревки с соответствующим числом узлов и строит «свой» многоугольник.



–Назовите мне, пожалуйста, сегодняшнее число. А день недели? Какой день недели был вчера? Какой день наступит завтра? Какой сейчас месяц? Какое время года? (Ответы детей)

На доске изображение кремлевских курантов.

–Это самые главные часы нашей страны, а находятся они на Спасской башне Московского Кремля. Они не только показывают, но и «отбивают» время: в 2 часа они бьют 2 раза, в 3 часа –3 раза и т. д. Современные часы бывают электронными и механическими. Механические нужно заводить, а в электронных– менять батарейку. Людям всегда хотелось знать сколько времени и они придумывали самые разные способы измерения времени. Что только не использовали в качестве часов: и свечки, и сосуды с водой и песком, и водяные часы, и песочные, и солнечные. Но все эти часы не были удобными в использовании. Вот люди и придумали современные часы – они удобны, их можно носить на руке, в кармане, они идут днем и ночью.

–У меня на столе много видов часов. Посмотрите внимательно и скажите, чем они похожи и чем отличаются? (Ответы детей). Правильно, все это разнообразие механизмов – это часы, у некоторых из них есть стрелки, а у некоторых нет, у некоторых есть цифры, а у некоторых нет, а вот у этих песочных часов нет ни стрелок, ни цифр.



После того как дети знакомятся разнообразиями часов, я предлагаю им познакомиться с устройством часов.

– Давайте познакомимся с устройством часов – круг, на котором изображены цифры от 1 до 12 называется циферблатом. Время на часах показывают стрелки – большая и маленькая. Маленькая указывает сколько сейчас часов, а большая – сколько сейчас минут. Большая минутная стрелка проходит весь круг от 1 до 12 за 1 час, а маленькая часовая стрелка за это время проходит лишь от одной цифры до другой. Обратите внимание – между цифрами еще есть 5 черточек. Это минуты для большой стрелки. Расстояние от одной цифры до другой означает 5 минут.



– А теперь сравните циферблаты этих часов (с арабскими цифрами) с циферблатом этих (с римскими цифрами). Это тоже цифры – их придумали очень давно древние римляне и поэтому их называют римскими.

На доске под арабскими цифрами начинаю строить ряд из римских, объясняя принцип их образования: I– одна палочка, один; II–две палочки, два; III– три палочки, три. Затем под арабской цифрой 5 ставлю римскую цифру:

– V – это цифра 5. Римляне договорились, что будут ставить палочку слева, если число меньше 5, и палочки справа, если число больше 5. Под цифрой 4 ставлю римскую цифру V и спрашиваю:

– 4 больше или меньше 5? На сколько? (Меньше на 1). Значит куда умный римлянин поставит палочки – слева или справа? И сколько палочек? (Слева, одну палочку).

Под арабской цифрой 6 ставлю римскую цифру V и спрашиваю у детей:

–На сколько число 6 больше 5, с какой стороны и сколько нужно поставить палочек? (Справа, одну).

Аналогично знакомлю с цифрами 7 и 8. Затем изображаю под цифрой 10 римскую цифру Х. Изображение этого числа состоит из двух пятерок, соединенных уголками. По аналогии пишем римские цифры IX и XI.

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII |

**Физкультминутка:**

Раз–согнуться, разогнуться.
Два–нагнуться, потянуться,
Три – в ладоши три хлопка,
Головою три кивка.
На четыре– руки шире.
Пять, шесть–тихо сесть.

**Итог занятия:**

–Чем мы сегодня занимались?

–Что нового мы узнали о часах?

–Что мы узнали об арабских и римских числах?

В конце занятия подвожу итоги, поощряется деятельность детей. В заключении детям демонстрирую видеоролик про часов.

## UŞAQ BAĞÇALARINDA TƏRBİYƏ ÜZRƏ İŞİN SİSTEMİ

**Yeganə Məmmədova,**
ADPU, Məktəbəqədər təhsilin
pedaqogikası və metodikası kafedrasının müəllimi,
E-mail: yeganememmedova.doc@gmail.com



**açar sözlər:** məktəbəqədər təhsil, şəxsiyyətyönümlü təhsil, nəticəyönümlü təhsil, humanizm, şəxsiyyətin tərbiyəsi;

**ключевые слова:** дошкольное образование, образование ориентированное на личность, образование ориентированное на результат, гуманизм, воспитание личности;

**key words:** preschool education, person-centered education, results-oriented education, humanism, personality education of the person.

Məktəbəqədər təhsil ümumi təhsil sisteminin ilk pilləsi olmaqla uşaqların fiziki, psixoloji, intellektual inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlanmalarında xüsusi əhəmiyyət kəsb edir. Gənc nəslin, o cümlədən, məktəbəqədər yaşlı uşaqların tərbiyəsi qarşısında duran başlıca məqsəd mütərəqqi dünyagörüşə, milli, ümumbəşəri əxlaqa, mənəvi və mədəni dəyərlərə yiyələnən şəxsiyyət formalaşdırmaq, cəmiyyətimiz üçün layiqli vətəndaşlar yetişdirmək olduğundan uşaq bağçalarında onların tərbiyəsini müasir tələblər səviyyəsinə qaldırmaq vacibdir. Məktəbəqədər dövr gələcək şəxsiyyətə bir çox qiymətli keyfiyyətlərin aşılanmasına xidmət edən zəruri mərhələ hesab olunur. Ona görə də məktəbəqədər müəssisələr ilk növbədə uşaqların qayğısına qalmalı, tərbiyə prosesini müxtəlif vasitələrlə, rəngarəng və maraqlı tədbirlərin köməyi ilə həyata keçirməlidir.

Təhsil sistemində əsas dəyər uşaqdır. Məktəbəqədər dövr insan həyatının ən mühüm, məsuliyyətli mərhələsidir. İnsanda bütün mənəvi dəyərlərin təməli bu zaman qoyulur. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda deyilir: "Təməl bacarıqlar uşaq-

lıq dövrünün ilk illərində əldə edildiyinə görə onların zehninin erkən inkişafı vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur".

Təhsilin modernləşdirilməsinin məqsədi həmin sistemin davamlı inkişaf mexanizminin yaradılmasından ibarət olduğundan, qarşıya qoyulmuş məqsədlərə yiyələnmək üçün məktəbəqədər təhsilin müasir tələblərə cavab verən səviyyəyə çatdırılması vacibdir. Müasir tələblərə görə, təhsil şəxsiyyətyönümlü, inkişafyönümlü olmalıdır. Bu, uşaqlarda müstəqil dərketməyə hazırlığı yüksəldir.

Məktəbəqədər yaş dövrü uşağın sosiallaşması, böyüklərlə, yaşıdları ilə daha çox ünsiyyət qurması, mədəni vərdişləri mənimsəməsi, mənəvi və estetik hisslərin oyanması dövrüdür. Məktəbəqədər müəssisə uşaqların ətraf aləmlə qarşılıqlı, ahəngdar inkişafını təmin etməyə, onlarda xeyirxah hisslər oyatmağa, əməkdaşlığı və özünütəsdiqi formalaşdırmağa qadirdir. Məhz bu dövrdə uşaqlarda ətraf aləm haqqında ilkin təfəkkür elementləri, təsəvvürlər formalaşır, hadisələr, sadə qanun və qanunauyğunluqlar arasında əlaqələri müəyyənləşdirmək, qazanılmış bilikləri praktik fəaliyyətdə tətbiq etmək bacarığı yaranır.

Məktəbəqədər yaş dövrünün öyrənilməsi prosesində aşkar edilmişdir ki, qabaqcıl bağçalarda tərbiyəçilər uşaqların tərbiyəsi sahəsində işi proqram tələbləri səviyyəsində qurur və gözəl nəticələrə nail olurlar. Həmin tərbiyəçilərin nailiyyətləri onunla izah edilir ki, onlar tərbiyə işini yalnız məşğələlərin təşkili ilə məhdudlaşdırmır, bu məqsədlə məşğələdənkənar prosesdə özünəxidmət, müsahibə, oyun, gəzinti, ekskursiya və başqa fəaliyyət növlərindən də istifadə etməyi bacarırlar. Məşğələdənkənar işlərdə uşaqların tərbiyəsinin formalaşdırılmasının əhəmiyyəti, fəallığı onların keçirilməsinə verilən tələblərə əməl edilməsindən çox asılıdır. Bu tələblərdən birincisi işin məqsədyönlü şəkildə aparılmasıdır. Məşğələ prosesində, yaxud məşğələdənkənar işlər üçün elə materiallar seçilməlidir ki, onlar uşaqların fiziki, əqli, əxlaqi, estetik tərbiyəsinin formalaşmasına və inkişafına kömək etsin. Bütün bu keyfiyyətlərin uşaqlara aşılanması sistemli şəkildə həyata keçiriləndə daha səmərəli olur.

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim prosesi uşaqların yaddaşının təkcə yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, həm də biliklərin müstəqil mənimsənilməsinə, mühüm bacarıq və vərdişlərin, şəxsi keyfiyyətlərin, qabiliyyətlərin qazanılmasına yönəlib. Bu zaman uşaqlar tərbiyəçinin rəhbərliyi altında xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materiallarının öyrənilməsi prosesində faktları, hadisələri, onların səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyə, nəticə çıxarmağa, mühüm ümumiləşdirmələr aparmağa vərdiş edirlər.

Məktəbəqədər təhsilin yeniləşdirilməsi tərbiyəçilərin qarşısında müasir tələblər qoyur. 2007-ci il, aprel ayının 12-də «Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı»nın (2007–2010) təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2089 nömrəli sərəncamı imzalamışdır. Həmin proqramda məktəbəqədər təhsilin bütün sahələrinin inkişafı ilə əlaqədar istiqamətlər müəyyənləşdirilmişdir. Sənəddə qeyd olunur: «Bu istiqamətlərdən biri də məktəbəqədər təhsilin məzmunca yeniləşdirilməsi məqsədilə məktəbə hazırlıq baxımından uşaqların fiziki, sosial-mənəvi, estetik və psixoloji inkişafı, dərketmə, nitq qabiliyyətlərinin yüksəldilməsi üzrə əsas tələbləri özündə ehtiva edən, həmçinin pedaqoji prosesin humanistləşdirilməsini nəzərdə tutan məktəbəqədər təhsil üzrə milli kurikulumun hazırlanması, müvafiq qaydada təsdiq olunmasıdır».

Məktəbəqədər təhsil müəssisələrində uşaqların hərtərəfli inkişafı üçün zəruri amillərdən biri onun məzmununun yeniləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi ilə əlaqədardır. Bununla bağlı qəbul olunan sənəddə məktəbəqədər təhsil üzrə sahələr aşağıdakı kimi müəyyənləşdirilmişdir: fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik; nitq, savad təlimi, qavrama; sosial-emosional ünsiyyət; mədəni-estetik inkişaf.

Məktəbəqədər təhsil kurikulumunun tələbi budur ki, uşaq cəmiyyətdə gedən proseslərə reaksiya verə bilsin. Əvvəllər təhsil yalnız biliklərin mənimsədilməsinə yönəlmişdisə, indi həyati bacarıqlar da əsas götürülür. Müasir tələblərə görə, uşaq müstəqil həyatda özünə aid nə varsa, onlara yiyələnməlidir. Ümumiyyətlə, məktəbəqədər təhsilin kurikulumu uşaqların şəxsiyyət kimi formalaşdırılmalarına yönəlib, onlarda müstəqilliyin, qabiliyyət və bacarıqların formalaşmasını təmin etməlidir. Bu kurikulumun standartları şəxsiyyətyönümlülük və nəticəyönümlülük səviyyələri ilə dəyərləndirilir. Şəxsiyyətyönümlü və nəticələrə əsaslanan kurikulumun əsas məqsədi yüksək intellektual hazırlığa malik olan, qazandığı bilikləri həyatın bütün sahələrində tətbiq etməyi bacaran, milli, ümumbəşəri mənəvi keyfiyyətlərə yiyələnmiş, fəal, şüurlu, məsuliyyətli şəxsiyyətin yetişdirilməsindən ibarətdir.

Məktəbəqədər dövrdə tərbiyə sahəsində buraxılmış kiçik xətalar sonralar çox ciddi, qarşısıalınmaz nöqsanlar kimi özünü büruzə verə bilər. Ona görə də həmin dövrdə heç bir şeyi nəzərdən qaçırmadan uşaqları müstəqil fəaliyyətə hazırlamaq lazımdır. Bu dövr tərbiyə prosesinin çətinliyi ilə yanaşı, düşünülmüş, sistemli və səmərəli işin aparılması kimi də xarakterizə olunur. Bir daha qeyd edək ki, tərbiyə sahəsində müvəffəqiyyət qazanmaq üçün uşaqların yaş və fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınması əsas amillərdən biridir.

**ədəbiyyat**


1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil Proqramı( kurikulumu). (3–6 yaş). Bakı, 2013.
2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı. Bakı, 2007.
3. Baxışova Ş. Məktəbəqədər təhsilin məzmununa verilən müasir tələblər. Bakı: “Kurikulum” , 2011, №3.
4. Məktəbəqədər təhsilin dövlət standartı və proqramı. Bakı, 2010-cu il, iyul ayının 16-sı.
5. Müasir uşaq bağçalarında təlimin təşkili. Bakı: “Apostrof” Çap Evi, 2011.
6. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998.


**ДЕТСКИЕ САДЫ КАК ОСНОВНОЙ ОБЪЕКТ ВОСПИТАНИЯ**

**резюме**


Дошкольное образование является первым шагом в единой системе образования и имеет особое значение для интеллектуального, физического и психологического развития детей, их самобытности и подготовки к школе. Образование – это базовая ценность для ребенка. Дошкольный возраст – это не только этап подготовки к школьной жизни, но и самый ответственный и самый важный возраст человеческой жизни, в котором заложен фундамент всех моральных ценностей в человеке.


**DETAILED WHEELS AROUND OBJECTIVE EDUCATION**

**summary**


Preschool education is the first step in a unified system of education and is of particular importance for the intellectual, physical and psychological development of children, their identity and preparation for school. Education is the basic value for the child. Preschool age is not only a stage of preparation for school life, but also the most important and most important age of human life, in which the foundation of all moral values in man is laid.

# İBTİDAİ SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ BLUM TAKSONOMİYALARINDAN İSTİFADƏ

**Bibixanım İbadova,**
ARTİ-nin Ümumi və məktəbdənkənar təhsilin kurikulumu şöbəsinin
müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent.
E–mail: aibadov@mail.ru



**açar sözlər:** Blum taksonomiysı, təlim məqsədləri, mətn, tapşırıqlar, idraki təfəkkür;
**ключевые слова:** таксономия Блума, цели обучения, текст, упражнения, когнитивное мышление;
**key words:** taxonomy, the purpose of learning, text, exercises, cognitive thinking.

Respublikamızda aparılan təhsil islahatının əsas qayəsini **"**müstəqil, yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək" təşkil edir (1). "Həyatı boyu formalaşan, özünəməxsus fərdi xüsusiyyətləri, müəyyən təfəkkürə, davranış tərzinə, hisslərə malik olan insan şəxsiyyət adlanır" (2) .

Müstəqil və yaradıcı düşünmənin təməli təlim prosesində qoyulur, inkişaf etdirilir. Məhz bu baxımdan ümumtəhsil məktəblərində uğurla tətbiq edilən yeni təhsil proqramlarının (kurikulumların) əsas səciyyəvi cəhətlərindən biri də onun şəxsiyyətyönümlü olmasıdır. Fənnin məzmununu təşkil edən məzmun standartlarının bilik, bacarıq və vərdişlərdən ibarət olması, fəaliyyətin növlərinin (idraki, psixomotor, emosional) tətbiqi şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün, ünsiyyət və hərəki bacarıqların inkişafına təkan verir. Fəaliyyətin növlərinin taksonomik quruluşa malik olması isə təlim prosesinin səmərəli təşkilinə imkan yaradır. *Taksonomik quruluş* dedikdə, təlim prosesində qarşıya qoyulmuş məqsədlərin sistemli və ya şəbəkəli (iyerarxik) təsnifatı nəzərdə tutulur.

Pedaqoji ədəbiyyatda taksonomiyalardan istifadənin zəruriliyi aşağıdakı kimi əsaslandırılır:

- təhsildə qarşıya düzgün *məqsəd* qoymaq üçün;
- təhsilalanların *tapşırıqları* düzgün formulə etmələri üçün;
- adekvat *qiymətləndirmə vasitələri* seçmək üçün;
- təlim nəticələrinə əsasən düzgün *təhlil* aparmaq üçün  (3).

**Taksonomiya təlim məqsədlərində.** Təlim prosesində mövzunun necə mənimsədilməsini deyil, standartın necə reallaşdırıldığını ön plana çəkən müəllimin şagirdlərinin nəticələri daha yüksək olacaqdır. Standartın bilik hissəsində verilən məzmunun bacarığa çevrilməsi üçün təlim prosesində həm dərsin mərhələləri, həm də öyrədilən material arasında  məntiqi əlaqə olmalıdır. Məntiqi əlaqə Blum taksonomiyalarında verilmişdir. "Məntiqilik həm də  taksonomiyaların əsas prinsiplərindən biridir. Təlim məqsədləri müəyyən şəbəkədə əlaqələri ilə mövcud olur. Onları bir-birinə şagird şəxsiyyətinin inkişafını təmsil edən və sadədən mürəkkəbə prinsipi əsasında sıralanmış taksonlar bağlayır". (4)

Müəllimin dərsə hazırlaşarkən məzmun standartarına əsasən qarşısına qoyduğu məqsədə nail olub-olmadığını yoxlamaq üçün idrak taksonomiyasından istifadə etməsi  onu düzgün qərar verməyə gətirib çıxaracaqdır, çünki bu taksonomiyada iyerarxiya mövcuddur. Hər hansı vərdiş özündən əvvəlkinin üzərində qurulur, inkişaf etdirilir, yəni anlama biliyi, tətbiqetmə isə bilik və anlamanı tələb edir və s.

**Taksonomiya tapşırıqların tərtibində.** Şagirdin məqsədə gedən yolu aydın dərk etməsi, onun fəaliyyətinin düzgün istiqamətləndirilməsi müəllimin fəaliyyətindən asılıdır. Bu isə müəllimin düzgün müəyyənləşdirdiyi təlim məqsədlərində, ona uyğun tərtib etdiyi təlim tapşırıqlarında öz ifadəsini tapır.

Tapşırıqlar təlim fəaliyyətinin açarı olub, məqsədin reallaşdırılmasına xidmət edir. Müəllim də, şagird də bu tapşırıqlar vasitəsilə qarşıya qoyulmuş məqsədə nail olurlar. Odur ki, tapşırıqların məqsədə uyğun, eləcə də düşündürücü, axtarışa yönəldən, həyatla əlaqəli olması müəllimdən peşəkarlıq, yaradıcılıq tələb edir.

Tapşırıqlar məntiqi, yaradıcı xarakterli olmaqla yanaşı, şagirdlərdə təhliletmə, hadisələrə müxtəlif nöqteyi-nəzərdən yanaşma, tətbiqetmə və s. bacarıqların formalaşmasına imkan yaratmalıdır. Bu baxımdan tapşırıqların tərtibi zamanı taksonomiyaların nəzərə alınması mühüm əhəmiyyətə malikdir.

| **№** | **idraki fəaliyyətlərin taksonomiyası** | **şagirdlərin fəaliyyətini müəyyən edən tapşırıqlar** | | | **resurslar (veb sayt, mənbələr, materiallar)** |
|---|---|---|---|---|---|
| 1 | **bilik** | Bir yerdə qruplaşdırın. | Anlayışların siyahısını tərtib edin. | Müəyyən bir ardıcıllıqla yerləşdirin. | |
| 2 | **anlama** | Əlaqəni göstərin. | Səbəbini göstərin. | Nümunələrlə əsaslandırın. | |
| 3 | **tətbiqetmə** | Qrafik şəkildə təsvir edin. | Təqdimat hazırlayın. | Verilmiş məlumatları tətbiq edin. | |
| 4 | **təhlil** | Təsnif edin. | Baxışları, yanaşmaları müqayisə edin. | Əsas xüsusiyyətləri ardıcıllıqla qeyd edin. | |
| 5 | **tərkib** | Oyun fikirləşin. | Plan tərtib edin. | İdeyanı inkişaf etdirən ssenari hazırlayın. | |
| 6 | **qiymətləndirmə** | Sıralayın və əsaslandırın. | Vəziyyəti ekspertiza edin. | Mümkün olan qiymətləndirmə meyarlarını müəyyən edin. | |

***nümunə:***

1. Mətni oxuyun. Xarakterinə görə obrazları qruplaşdırın.
2. Onlar arasındakı əlaqəni, bunu yaradan səbəbləri nümunələrlə göstərin.
3. Oxşar və fərqli cəhətləri Venn diaqramında ifadə edin.
4. Hər bir obrazın xarakterik xüsusiyyətlərini ardıcıllıqla təsnif edin. Onların həyata baxışlarını müqayisə edin.
5. Əsas fikri saxlamaqla mətni genişləndirin.
6. Əsəri hansı xüsusiyyətlərinə görə və necə dəyərləndirmək olar? Meyarları yazın.

Bu tapşırıqlar fərdi, cütlərlə, qruplarla iş formasında yerinə yetirilə bilər. İki akademik saatlıq (90 dəqiqə) Azərbaycan dili dərsində Blum taksonomiyasının tətbiqi şagirdlərdə məntiqi, yaradıcı, tənqidi təfəkkürün inkişafına, eyni zamanda, standartlarda qoyulan bilik və fəaliyyətin inteqrativ şəkildə gerçəkləşməsinə imkan yaradacaqdır.

**taksonomiya mətn üzrə işin təşkilində "Ağac" hekayəsi:** "Bir ağac var idi. O, hələ çox balaca idi, cəmisi iki yaşı vardı. Ağacın yanından bir oğlan keçirdi. O, bir yarpaq qoparıb yerə atdı. Sonra fikirləşdi: "Bu yarpağı niyə qopartdım? Eh, nə olsun. Bir yarpaqla heç nə olmaz. Gör ağacın nə qədər yarpaqları var?!"

Bu vaxt başqa bir oğlan oradan keçirdi. O, ağacın budağını sındırdı və fikirləşdi: “Bir budaqla nə olacaq? Ağacın budağı çoxdur”.

Bir qız da əlində top buradan keçirdi. Topu yuxarı atdı. Top ağaca dəyib, onun budağını sındırdı. Qız pərt oldu: “Gör nə pis iş oldu?! Eh, eybi yoxdur. Təzəsi boy atar”.

Ağacın yanından bir keçi keçirdi. Keçi onun qabığını gəmirdi.

Əlində bıçaq olan oğlan bıçağını sınamaq istədi. O, iti bıçağı ilə bir budaq kəsdi.

Bir neçə gündən sonra ağac qurudu.

Ağacı əkən uşaqlar gəlib çıxdılar və dedilər:

– Ağac burada bitmir, yəqin torpaq pisdir.”(5)

| **səviyyə** | **tapşırıqlar** |
|---|---|
| **bilik** | Ağaca hansı zədələr dəydi? (Sadalayın.)<br>Ağacı əkənlər hansı nəticəyə gəldilər? |
| **anlama** | Uyğun olanı seçin:<br>1. Ağac canlıdır.<br>2. Ağacın qayğıya ehtiyacı var.<br>3. Ağac özü böyüyür. |
| **tətbiqetmə** | Şam ağacı ilə alma ağacının inkişafı üçün lazım olanları cədvəldə qeyd edin. |
| **təhlil** | Ağacın quruma səbəblərini izah edin. |
| **tərkib** | “Eh, nə olsun. Bir yarpaqla heç nə olmaz. Ağacın gör nə qədər yarpağı var.”, “Bir budaqla nə olacaq? Ağacın budağı çoxdur”, “Eh, eybi yoxdur. Təzəsi boy atar”, Keçi ağacın qabığını gəmirdi”, “Bir budaq kəsdi” fikirləri ilə “Ağac qurudu” fikri arasında əlaqəni izah edin. |
| **qiymətləndirmə** | Ağacı əkənlərin qənaətinə münasibət bildirin. Fikrinizi nümunələrlə əsaslandırın. |

**“Blum kubu” metodu:** Təlim prosesində “Blum kubu” metodundan istifadə şagirdlərin bilik və bacarıqlarını həm şifahi, həm də yazılı şəkildə yoxlamağa imkan yaradır. I–III siniflərdə sadə suallardan istifadə olunması məqsədəuyğundur:

**Təsvir et.** Adını, formasını, rəngini, ölçüsünü və s. xüsusiyyətlərini de.

**Müqayisə et.** Hadisə, yaxud əşyanın oxşar və fərqli cəhətlərini söylə.

**Əlaqəliliyi göstər.** Verilmiş əşya və ya hadisəni ona bənzər digəri ilə əlaqələndir

**Təhlil et.** Tərkibi, hazırlanmasında istifadə olunan materialların xüsusiyyətlərini və s. sadala.

**Tətbiq et.** Nümunələr göstər və ya özün tətbiq et.

**Qiymətləndir.** Müsbət və mənfi cəhətlərini göstərməklə münasibət bildir.

IV sinif ibtidai təhsilin son dövrü olduğu üçün “Blum kubu”metodu şagirdlərə cədvəl şəklində təqdim edilir və onu doldurmaq tapşırılır. Cavablar sinifdə təhlil edilir.

**nümunə: M.Dilbazi. “Böyüklərə hörmət et!”**

| **№** | **sualların təsnifatı** | **xüsusiyyətləri** | **nümunələr** |
|---|---|---|---|
| 1. | Adlandır. | Sadə suallardır. Əsasən, bilikyönülüdür. | “Böyüklərə hörmət et!” şerinin müəllifi kimdir? |
| 2. | Nə üçün? | Hadisənin baş vermə səbəbini, eləcə də səbəb-nəticə əlaqələrinin təsvirini təmin edir. | Nə üçün şeir “Böyüklərə hörmət et!“ adlanır? |
| 3. | İzah et. | Suallar dəqiqləşdirici xarakterə malik olub, şagirdin diqqətini əsas problemə yönəltməklə ona müxtəlif aspektlərdən yanaşmaqda kömək edir. Bu zaman “Sən həqiqətən beləmi düşünürsən?”, “Sən əminsənmi? ” kimi | “Böyüklərə həmişə hörmət etməliyikmı?”, “ Sən əminsənmi ki, onlara həmişə qayğı göstərmək lazımdır?”, “ Həqiqətən belə düşünürsən?” və s. |

| | | | |
|---|---|---|---|
| | | istiqamətləndirici suallardan istifadə etmək olar. | |
| 4. | Təklif et. | Şagird öyrəndiklərini hansı şəraitdə tətbiq edəcəyini bildirməlidir. | Böyüklərə, şeirdə göstərilənlərdən əlavə, daha necə hörmət etmək olar? |
| 5. | Fikirləş və yenisini yarat. | Yaradıcı xarakterlidir. Əsas fikri saxlamaqla yeni mətn və ya şeir yaradır. | Bu məzmunda müasir dövrə uyğun hekayə və ya şeir yaz. |
| 6. | Fikirlərini bölüş. Münasibət bildir. | Bu bölmədə suallar şagirdlərdə idraki fəallığa, təhlilə, fakt və nəticələri seçməyə, onların əhəmiyyətliliyini dəyərləndirməyə, eyni zamanda hisslərini ifadə etməyə yönəltməlidir. | Şeir səndə hansı hissləri yaratdı? Fikirlərini dostlarınla paylaş. |

Nümunələrdən göründüyü kimi, təlim prosesində taksonomiyalardan məqsədəuyğun istifadə həm müəllim fəaliyyətinin səmərəli təşkilinə, həm də şagirdlərin idraki fəallığı üçün geniş imkanlar açır. Eyni zamanda, hadisələrin başvermə səbəbləri və nəticələri arasındakı əlaqələrin şagirdlər tərəfindən araşdırılması onlarda özünəinam, fikrini sərbəst ifadəetmə və s. kimi həyati bacarıqlar formalaşdırır.

**ədəbiyyat**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. www.president.az/articles/9779
2. Sultanova İ. Taksonomiya nədir? Standart və kurikukumlar: nəzəri və praktik məsələlər. Bakı: "Şahin" MB. MMC, 2016.
3. Sultanova İ. Taksonomiyalar hansı prinsiplər əsasında yaradılmışdır? Standart və kurikukumlar:nəzəri və praktik məsələlər. Bakı: "Şahin" MB.MMC, 2016.
4. İsmayılov R., Orucova G., Cəfərova D., Xəlilov Z. Azərbaycan dili. (III sinif). Bakı: "Altun kitab", 2014.

**Использование таксономий Блума на уроках Азербайджанского языка в начальных классах**

**резюме**

В статье представлено практическое применение таксономий Блюма на уроках Азербайджанского языка в начальных классах. Отмечается, что применение таксономий способствует развитию познавательного мышления у младшеклассников.

**Using Blum's taxonomy in lessonsof the Azerbaijani language in primary school**

**summary**

The article presents the practical application of Blum's taxonomy in the lessons of the Azerbaijani language in primary classes. It is noted that the use of taxonomy contributes to the development of cognitive thinking in junior students.

# BİRGƏ İŞƏ VƏ MƏHSULDARLIĞA DAİR MƏSƏLƏLƏRİN HƏLLİ

**Valeh Məmmədov,**
ADPU-nun baş müəllimi



**açar sözlər:** məhsuldarlıq, işin həcmi, zaman, sürət, birgə iş, mədaxil, məxarıc, doldurmaq-boşaltmaq;

**ключевые слова:** производительность, объем работы, время, скорость, совместная работа, доходы и расходы, наливание-выливание;

**key words:** productivity, amount of work, time, speed, teamwork, income and expenses, pouring-pouring out.

Şagirdlərə məsələ şərtinin modelləşdirilməsində, hesablamaların yoxlanılmasında, səhvlərin düzəldilməsində, vacib informasiyaların verilməsində, bilik səviyyəsinin yüksəldilməsində, öyrənilən materialın tədqiqində, nəticələrə nəzarət edilməsində, eləcə də şagirdlərin əldə etdikləri nəticələrinin qiymətləndirilməsində birgə işə və məhsuldarlığa aid məsələlərin rolu böyükdür.

Təlim prosesində şagirdlərin riyazi biliklərinin genişləndirilməsi və möhkəmləndirilməsi, tətbiqi üzrə sistemli işin həyata keçirilməsi ilə əlaqədar fikrimizi şərh edək. Görülən işin həcmi, birgə iş, məhsuldarlıq, zaman, mədaxil, məxaric, nəticələrin qiymətləndirilməsinə aid məsələlərin həlli yolları şagirdlərə izah olunmalıdır. Onlar belə məsələləri sərbəst həll etməyi bacarmalıdırlar.

Məhsuldarlıq fəaliyyətin sürəti ilə əlaqədar olduğundan, müəyyən zaman daxilində (1 saatda, 1dəqiqədə, 1 saniyədə) nə qədər işin yerinə yetirildiyini göstərir. "Çap qurğusunun məhsuldarlığı dəqiqədə 40 səhifədir", yaxud "Pərviz 1 dəqiqədə 200 söz oxuyur".

**Məsələ 1.** Avtomat konfet qutularına 1 dəqiqədə 100 qiymət kağızı yapışdırır. Deməli, avtomat 2 dəqiqədə 200, 3 dəqiqədə 300, 10 dəqiqədə 1000 qiymət kağızı yapışdırar. "Avtomat 1 saatda neçə qiymət kağızı yapışdırır?" sualına cavab vermək üçün mühakimə aparaq;

1 dəqiqədə – 100 qiymət kağızı;

60 dəqiqədə – 60 dəfə çox qiymət kağızı;

*Həlli:* 60 100=6000 qiymət kağızı.

*Cavab:* Avtomat 60 dəqiqədə 6000 qiymət kağızı yapışdırar.

Buradan belə nəticə çıxır ki, işin həcmini tapmaq üçün, onun görülmə sürətini (məhsuldarlığı) sərf olunan zamana vurmaq lazımdır.

Alınan nəticəni aşağıdakı asılılıqla ifadə etmək olar:

| | | | | |
|---|---|---|---|---|
| **işin sürəti** | x | **zaman** | = | **işin həcmi** |

və ya **v t = a** düsturunu yaza bilərik. Burada v– *görülən işin sürəti,* t *–işə sərf olunan zaman;* a *– işin həcmidir.*

**Məsələ 2.** Çörəkbişirmə sobasında 8 saatda 400 bulka bişirdilər. 1 saatda neçə bulka bişirmək olar?

Mühakimə aparaq: Soba 8 saatda 400 bulka bişirsə, 1 saatda neçə bulka bişirər? (8 dəfə az).

*Həlli :* **v t = a** düsturuna əsasən, **v = a: t** , yəni **v** = 400 : 8 = 50 bulka.

| | | | | |
|---|---|---|---|---|
| **sürət** | = | **işin həcmi** | : | **zaman** |

*Cavab :* Bir saatda 50 bulka bişirmək olar.

**Məsələ 3.** Ekskovatorun məhsuldarlığı saatda 40 $m^3$-dir. 560 $m^3$ həcmində quyu qazmaq üçün ekskovatora nə qədər vaxt lazımdır?

Bu məsələni həll etmək üçün **sürət x zaman = işin həcmi** asılılığından istifadə edək.

**v t = a** düsturundan istifadə etməklə 40 **t** = 560 yazıb, **t = a : v,** yəni **t** = 560:40 =14 saat olduğunu taparıq.

Buradan belə nəticəyə gəlirik ki, *işin görülmə müddətini tapmaq üçün onun həcmini görülmə sürətinə (məhsuldarlığa) bölmək lazımdır.*

*Məhsuldarlığı (işin görülmə sürətini) tapmaq üçün işin həcmini zamana bölmək* nəticəsini də şagirdlərə izah etmək lazımdır.

Bəs məsələnin məhsuldarlığa aid olduğunu necə müəyyən etmək mümkündür? Əgər məsələdə hər hansı vahid zamanda bir hadisədən (iş, hərəkət), onun başvermə sürətindən danışılırsa, deməli, o, məhsuldarlığa aiddir. Belə məsələlərin həllində aşağıdakı asılılıqdan istifadə etmək olar:

**sürət x zaman = işin həcmi** və ya **v t = a**.

Bu bilikləri möhkəmləndirmək üçün sadə məsələlərdən istifadə etməklə nəticə alınır.

1. Fəhlə saatda 29 detal hazırlayır. O, 8 saata neçə detal hazırlaya bilər?
2. Operator saatda 25 səhifə yığır. O, 6 saatda neçə səhifə yığa bilər?
3. İnsan gün ərzində 150 *l* su sərf edir. O, bir həftədə nə qədər su sərf edər?

Bu məsələlər müstəqil yerinə yetirildikdən sonra işin həcminin hesablanmasına dair mətnli məsələlərin həllinə başlamaq olar.

1. Bir traktor iş günü ərzində 18 *ha*, digər traktor isə 12 *ha* sahəyə gübrə səpir. 6 iş günü ərzində birinci traktor ikinci traktordan nə qədər artıq sahəyə gübrə səpə bilər?
2. Günay bir gündə 25 səhifə oxuyur. Kitabın 160 səhifəsi var. 5 gündən sonra onun oxuması üçün neçə səhifə qalar?

Bu növ məsələlərin həllinin şagirdlər tərəfindən mənimsənildiyinə əmin olduqdan sonra *məhsuldarlıq və zamanın hesablanmasına* aid məsələlərin həllinə keçmək mümkündür.

1. Birinci briqada 6 saatda 276 detal, ikinci briqada 8 saatda 336 detal hazırlamışdır. Hansı briqadanın məhsuldarlığı nə qədər yüksəkdir?
2. Bir nasos gündə quyudan 180.000 *l*, digər nasos 20 saata 160.000 *l* su vurur. Hansı nasosun məhsuldarlığı nə qədər yüksəkdir?

Sonra *birgə işə* aid məsələlərin həllinə keçmək olar. Əvvəlcə işin həcminin hesablanmasına aid məsələyə baxaq:

Mini traktor 1 saatda 650 $m^2$, digəri 750 $m^2$ yer şumlamışdır. Traktorların ümumi məhsuldarlığı nə qədərdir?

1 saatda ………. $m^2$-dir.

Hər iki traktor 4 saat işləyərsə, birlikdə nə qədər yer şumlanar?

**I yol:**

| **I traktorun məhsuldarlığı** | x | **zaman** | + | **II traktorun məhsuldarlığı** | x | **zaman** | = | **işin ümumi həcmi** |
|---|---|---|---|---|---|---|---|---|

**II yol:**

| **ümumi məhsuldarlıq** | x | **zaman** | = | **işin ümumi həcmi** |
|---|---|---|---|---|

Bu izahdan sonra aşağıdakı məsələlərin müstəqil yerinə yetirilməsi məsləhətdir.

1. Bir asfaltdöşəyən maşın saatda 350 *t*, digəri isə 280 *t* asfalt döşəyir. Asfaltdöşəyən maşınlar 3 saatda nə qədər asfalt döşəyər? (Məsələni iki yolla həll edin).
2. Bir nasos saatda 300 *l,* digəri 200 *l* su vurur. Nasoslar birlikdə gün ərzində nə qədər su vurar? (Məsələni ixtiyari yolla həll edin.)

Ümumi məhsuldarlığa aid məsələlərin həllini öyrəndikdən sonra müxtəlif məsələlərin həllinə (mədaxil, məxaric, doldurmaq, boşaltmaq, nəticənin qiymətləndirilməsi) dair nümunələri nəzərdən keçirmək olar.

**Məsələ:** Həftə ərzində şirkətin 420 manat mədaxili, 350 manat məxarici olmuşdur. 7 gündən sonra şirkətin gəliri nə qədər olacaqdır?

***I yol:***

**mədaxil** x **zaman** – **məxaric** x **zaman** = **gəlir**

1) 420 x 7= 2. 940 *manat* (7 gün ərzində mədaxil olunan məbləğ).
2) 350 x 7=2.450 *manat* (7 gün ərzində məxaric olunan məbləğ).
3) 2.940 – 2.450=490 *manat* (şirkətin gəliri).

*Cavab*: 490 *man*at.

***II yol:***

1) Həftə ərzində şirkətin mədaxili 420 manatdır.
2) Həftə ərzində şirkətin məxarici 350 manatdır.

Məsələni aşağıdakı sxem üzrə həll edə bilərik.

**mədaxil və məxaric arasındakı fərq** x **zaman** = **gəlir**

1) 420 –350 =70 *man.* – mədaxil və məxaric arasındakı fərq;
2) 70 x 7 = 490 *man.* – şirkətin gəliri.

*Cavab:* 490 *man.*

Nümunəyə əsasən aşağıdakı məsələlərin həlli də maraqlıdır:

1. Şirkətin aylıq mədaxili 720 manat, məxarici 850 manatdır. Şirkətin il ərzində itkisi nə qədərdir?
2. Nənə 1 dəqiqədə 3 qutab bişirir. Bu müddətdə baba 1 qutab yeyir. 12 dəqiqədən sonra boşqabda neçə qutab qalar?

Birgə işə və məhsuldarlığa aid məsələlərin həlli prosesində şagirdlər aşağıdakı bacarıq və vərdişlərə yiyələnirlər:

• Çətin mövzunun dərk edilməsi asanlaşır.
• Riyaziyyatın ibtidai kursundakı ən çətin, vacib mövzuların mənimsənilməsinə aid bilik və bacarıqları artırır.
• Mənimsənilmiş biliklərin möhkəmləndirilməsini asanlaşdırır.
• İbtidai məktəbin riyaziyyat kursu üzrə yekun qiymətləndirməyə hazırlaşmağa kömək edir.
• Konkret mövzular üzrə tədris materialına yiyələnmənin səviyyəsinin müəyyənləşdirilməsi üçün yoxlama testlərini hazırlamağa kömək edir.
• Tədris materialını əhatə edən əsas cəhətlərin geniş şərhini verməyə şərait yaradır.
• Təhsilin sonrakı pilləsinə hazırlıq üçün çətin mövzuların mənimsənilməsinə, dəqiq fəaliyyət proqramı tərtib etməyə imkan verir.

Bu növ məsələlərin öyrədilməsi müəllimlərin:

• məsələ həlli üzərində işi sistemləşdirmələrinə;
• konkret mövzular üzrə şagirdlərin biliklərinin qiymətləndirilməsi üçün testlər hazırlamalarına;
• şagirdlərin biliklərindəki boşluqları müəyyən etmələrinə və fərdi təlim proqramı hazırlamalarına imkan yaradır.

**ədəbiyyat**


1. Riyaziyyat fənn kurikulumu. Bakı, 2008.
2. Шклярова Т.В. Математика. IV класс. (сборник упражнений). Москва, 2010.

3. Обучение решению арифметических задач. (методическое пособие). Москва, 2010.
4. Максимова Т.Н. Сборник текстовых задач по математике. IV класс. Москва, 2010.
5. Истомина Н.Б. Математика. IV класс. Смоленск, 2006.

**ОБУЧЕНИЕ РЕШЕНИЮ ЗАДАЧ ПРО ПРОИЗВОДИТЕЛЬНОСТЬ И СОВМЕСТНЫХ РАБОТ**
**резюме**

В статье рассказывается об обучении решений задач на производительность и на совместную работу, относящиеся к курсу начальной школы. Приводится примеры задач по теме. Материалы, данные в статье обеспечивают все этапы (объяснение, решение, проверка) формирования навыка решения этих задач.

**LEARNING TO SOLVE THE PROBLEMS OF PROBLEMS OF PRODUCTIVITY AND JOINT WORK**
**summary**

The article describes the training of solutions to productivity problems and on joint work related to the primary school course. Examples of tasks on the topic are given. The materials given in the article provide all the steps (explanation, solution, verification) of forming a skill in solving these problems.

# KARATE MƏŞĞƏLƏLƏRİNDƏ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN KOORDİNASİYA BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ

**Rüfət Əkbərov,**

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası,
Bədən tərbiyəsi və idmanın nəzəriyyəsi və metodikası kafedrasının baş müəllimi



**açar sözlər:** koordinasiya bacarıqları, fiziki inkişaf, ibtidai sinif şagirdləri, fiziki tərbiyə, şərq əlbəyaxa döyüş növləri, karate məşğələləri, qodzyu-ryu, metodika, pedaqoji eksperiment, test sınağı;

**ключевые слова:** координационные способности, физическое развитие, ученики начальных классов, физическое воспитание, восточные единоборства, занятия каратэ, годзю-рю, методика, педагогический эксперимент, тестирование;

**key words:** coordination abilities, physical development, pupils of primary classes, physical education, martial arts, karate classes, goju-ryu lessons, methods, pedagogical experiment, testing.

Koordinasiya bacarıqlarının təşəkkülü sağlam insanın formalaşdırılması üçün lazım olan mühüm məsələlərdən biridir. Koordinasiya bacarıqları bilavasitə mərkəzi sinir sistemi ilə bağlıdır. Aşağı məktəb yaşı dövrü onun formalaşmasının ən mühüm mərhələsi hesab edilir. Bu mərhələdə koordinasiya bacarıqlarının formalaşması yalnız fiziki hərəkətlər vasitəsilə həyata keçirilir [2, səh.19]. Aşağı məktəb yaşı uşaq həyatının 6–7 yaşdan 10–11 yaşadək olan mərhələsidir ki, bu dövrdə o, orta ümumtəhsil məktəblərinin ibtidai siniflərində təhsil alır. [8,səh.17]

Son zamanlar Azərbaycanda şərq əlbəyaxa döyüş növlərinə, xüsusilə karateyə böyük diqqət yetirilir. Ölkəmizdə milli karate federasiyaları, o cümlədən, VKC növləri üzrə Azərbaycan Milli Karate Federasiyasının köməyi ilə karate-donun tarixi, nəzəriyyəsi və praktikasının insanın fiziki inkişafına təsirinin öyrənilməsi üzrə araşdırmalar aparılır.

Hazırda aşağı məktəb yaşlı uşaqlar arasında şərq döyüş sənətləri çox məşhurdur. Onlar həvəslə müvafiq idman bölmələrinə gedirlər. Məqalədə 10–11 yaşlı uşaqların karate məşğələlərində koordinasiya bacarıqlarının formalaşması metodları nəzərdən keçiriləcəkdir.

Məqsədimiz ibtidai təhsil mərhələsində şagirdlərin karate məşğələlərində koordinasiya bacarıqlarının inkişaf etdirilməsi və təkmilləşdirilməsinin tədqiqidir. Araşdırma zamanı aşağıdakı

metodlardan istifadə olunmuşdur: elmi-metodiki mənbələrin təhlili, pedaqoji müşahidə, eksperiment, test sınaqları, tədqiqat nəticələrinin riyazi işlənilməsi.

Elmi-metodik ədəbiyyatın təhlili əsasında aşkarlanmışdır ki, aşağıdakılar çeviklik göstəriciləri hesab olunur: mənimsənilən hərəki tapşırığın koordinasiya mürəkkəbliyi; onun məkan, zaman, güc, ritmik səciyyələrinin, yeni hərəkətin mənimsənilməsi üçün zəruri olan hərəki fəaliyyətin yerinə yetirilməsi; mürəkkəb hərəki reaksiyanın müddəti.

*Koordinasiya bacarıqlarının tədrisi metodikası, səmərəliliyi* ilə əlaqədar pedaqoji eksperiment 10–11 yaşlı uşaqlarla 9 ay müddətində, dörd mərhələdə həyata keçirilmişdir. Bu zaman cütlərlə iş aparılmış, seçim yolu ilə iki qrup təşkil olunmuşdur: eksperimental qrup (15 nəfər), yoxlama qrupu (15 nəfər). Qrupların fiziki hazırlıq səviyyələri eksperimental qrupun lehinə bir qədər fərqli olmuşdur. Təlim dərs və dərsdənkənar məşğələ formalarında aparılırdı. Dərs-məşğələlər, hərəsi 45 dəqiqə olmaqla, həftədə iki dəfə keçirilirmişdir. Hər bir məşğələnin baza hissəsində dərsin ümumi vaxtının (45 dəqiqə) 28%-i karate üzrə kompleks hərəkətlərə, 72%-i isə fiziki tərbiyə üzrə məktəb proqramının yerinə yetirilməsinə ayrılmışdır. Bu da müvafiq olaraq 12,6 və 32,4 dəqiqə təşkil etmişdir.

Variativ (eksperimental) hissədə Okinava qodzyu-ryu məktəbində əsas götürülən karate-do metodları və öyrənilmə prinsiplərini əks etdirən proqram üzrə material verilir. Qodzyu-ryu karatesində çoxlu əl və ayaq texnikaları mövcuddur. Həm yumşaq, həm sərt texnikalardan, eləcə də dairəvi və xətti hərəkətlərdən istifadə olunur. Bu üslubun əsas ideyası gücə qarşı güc tətbiq etməkdənsə, sərt zərbələrdən müdafiə olunmaq üçün yumşaq blokedici texnikalara üstünlük verilməsidir. Hücum zamanı «yüngül» hədəfə qarşı sərt və əksinə zərbələr tətbiq edilir. [5, səh.14] Təklif olunan proqramın özünəməxsusluğu burada ənənəvi normativlərin olmamasıdır. Material isə texniki hazırlıq səviyyəsinə uyğun, bloklar üzrə, pillə-pillə verilir.

Konkret olaraq qodzyu-ryu üslubu üzrə karate-do növündə 1–10 *kyu*luq ilkin mərhələdən 1–10 *dan*lıq usta səviyyəsinədək 20 pillə vardır. Ustalıq artdıqca *kyu* kəmiyyəti azalır, *dan* kəmiyyəti isə artır.

Tədris ili ərzində hər bir blokun mənimsənilməsi hərəki fəaliyyətin karate elementli xüsusi hərəkətlərin dəfələrlə təkrarlanmasına yönəlmiş sərbəst məşğələlər hesabına artırılmasını stimullaşdırır ki, bu da fiziki hazırlığı yüksəldir.

Proqram materialı üç bölmədə verilir: biliyin əsasları (nəzəri hissə); karate elementli xüsusi tapşırıqlar (texniki hərəkətlərin adları yapon dilindədir); bacarıq və vərdişlərin, fiziki keyfiyyətlərin inkişafı.

«Şərq döyüş sənətinin elementləri» bölməsində karateyə aid texniki hərəkətlər öyrədilir: ***duruşlar*** (xaçici-daçi, xeysoku-daçi, musubi-daçi, dzenkutsu-daçi, kiba-daçi, kokutsu-daçi) və ***yerdəyişmələr***; ***bloklar – "Uke Vadza"*** (age-uke, gedan-baray, uçi-ude-uke, soto-ude-uke, şuto-uke); ***əllə zərbələr – "Ate Vadza"*** (gyaku-dzuki, oy-dzuki, mae-tetsui-uçi, mavaşi dzuki, ura-ken-uçi); ***ayaqla zərbələr – "Geri vadza"*** (mae-geri keage, yeko-geri kekomi, mavaşi-geri); ***kata*** (Taykiyeku şodan, Taykiyeku nidan, Xeyan şodan); ***qoxon-kumite*** (oy dzuki çudan, oy dzuki dzedan).

Bu bölmə öyrədilərkən, əsasən, aşağıdakı metodlar tətbiq edilir: şifahi – izah, nəqletmə; tətbiqi sahə – əyani, nümayiş, göstərmə; ciddi reqlamentləşdirilmiş təmrinlər-elementlər üzrə və ümumilikdə, dəfələrlə təkrarlamaqla öyrənmə; oyun – cütlüklərdə duruş, bloklar və zərbələrin tətbiqi (bunkay, kumite).

«Bacarıq və vərdişlər, fiziki keyfiyyətlərin inkişafı» bölməsində karate elementlərindən ibarət fiziki hərəkət kompleksləri, "rendzoki", "şixo", "kata", "kumite" və digər zəruri hərəkətlər verilir ki, bunlar da müəyyən bacarıq, vərdiş və fiziki keyfiyyətlərin inkişafına şərait yaradır. Şagirdlər tərəfindən kompleksləri rasional avtomatikləşənədək yerinə yetirən bacarıq və vərdişlər əldə edildikcə tapşırıqların həcmi də artırılır.

Yoxlama və eksperimental qruplarda şagirdlərin fiziki tərbiyəsi üzrə təlimin təşkilində oxşar cəhətlərlə yanaşı, fərqli məqamlar da vardır.

Oxşar məqamlar:

1. Eksperimental və yoxlama qruplarının şagirdləri yaş, orqanizmin ilkin fiziki və funksional səviyyəsi baxımından, əsasən, bir-birinə yaxın idi.

2. Məşğələlərin isinmə və yekun hissələri, eləcə də əsas hissədə karateyə aid xüsusi hərəkətlər istisna olmaqla, digər tapşırıqlar hər iki qrupda eyni idi.

3. Hər iki qrupda əsas hissəyə eyni müddət ayrılır, eyni vəsait və metodlardan istifadə olunurdu.

Fərqli məqamlar:

1. Eksperimental qrupda dərslərin hazırlıq, əsas və yekun hissələrində xüsusi karate hərəkətlərindən istifadə edilirdi ki, bunlar da, fiziki keyfiyyətlərin inkişafından asılı olaraq, fərdi ölçü ilə verilirdi. Yoxlama qrupunda isə, ümumən qəbul edilmiş metodikaya əsasən, bütün şagirdlər üçün müxtəlif intensivlikli yük nisbəti eyni idi.

2. Pedaqoji yanaşma aşağıdakı ardıcıllıqla qurulurdu:

- tədris prosesinin ciddi, sərt idarə olunması;
- karate elementlərinin tətbiqi;
- çevik, uyumlu idarə (konkret hərəkətlərin yerinə yetirilməsi tələbi deyil, fiziki təmrinlərlə məşğul olmağa yönəldilmiş məqsəd və motivin yaradılması tələbi);
- özünüidarə vərdişlərinin inkişaf etdirilməsi;
- şəxsi özünüidarə (qarşıya məqsəd qoyulmasında şagirdin sərbəstliyi, özünənəzarəti, səriştəliliyi);
- şagirdin daxili gücünə və imkanlarına istinad etməsi;
- birgə idarə (fiziki hazırlıq planının, proqramın tərtib olunması, qarşıya məqsədin qoyulması, nəzarət, qiymətləndirmə və dəyərləndirmə meyarlarının işlənilməsi).

Yük intensivliyinə nəzarət saniyəölçən vasitəsilə, ÜDT göstəriciləri üzrə həyata keçirilmişdir.

Karate bölməsində dərsdənkənar formatda məşğələlər iki akademik saat (90 dəq.) olmaqla, idman zalında həftədə bir dəfə aparılır. Təlim məşğələlərində də eyni vəzifələr və onların həlli metodları əksini tapır. Dərs formatında və bölmə təlimlərində məşğələlərin strukturu, adi qaydada olduğu kimi, üç hissədən ibarət idi. Dərslərin hər bir hissəsində sağlamlaşdırıcı, tərbiyəedici və tədrisedici vəzifələr öz həllini tapırdı.

**Hazırlıq hissəsində** (20–25 dəq.) qrup düzülür və dərsdə qarşıya qoyulan vəzifələr, onların həlli vasitələri açıqlanır. Özünənəzarət məqsədilə nəbz yoxlanılır. Bu hissədə karate elementli fiziki hərəkətlərlə məşğul olanlar tədricən məşğələdə nail olunması qarşıya məqsəd qoyulan yüklənmələrə çatdırılır, yəni fəal isinmə hərəkətləri yerinə yetirirlər. Optimal psixoloji qıcıqlanmaya yönəlmiş hərəki köklənmə həyata keçirilir, dərsin əsas hissəsinə hazırlıq üçün diqqət toplanır. Bu məqsədlə qısa məsafəyə qaçışdan, ümuminkişafetdirici gimnastika və xüsusi hərəkətlərdən istifadə edilir.

Dərsin **əsas hissəsi** (50–60 dəq.) karate elementlərinin öyrədilməsinə həsr olunur. Bu bölmədə bir neçə vəzifə yerinə yetirilir: Keçilmiş materialın təkrarlanması (kixone mövqeyində, yeriyərək və müxtəlif duruşlarda zərbələr və bloklar), karate hərəkətlərinə dair yeni texnikanın öyrədilməsi həyata keçirilir. Bu zaman əvvəlcə mürəkkəb texnika öyrədilir (zərbə və blok kompozisiyaları elementlərə ayrılır, hər biri dəfələrlə təkrarlanır, sonra hərəki elementlər vahid kompozisiyada birləşdirilir və avtomatik icra vəziyyətinə qədər işlənir). Daha sonra qüvvə, sürət, çeviklik, müvazinət və dözümlülük kimi fiziki keyfiyyətlərin inkişaf etdirilməsi, təkmilləşdirilməsi üçün kompleks hərəkətlər yerinə yetirilir. Əsas hissənin sonlarına yaxın kumite və cütlüklərlə iş həyata keçirilir. Bu hissənin əvvəlində və sonunda diz üstə oturma mərasimi, 2–3 də-

qiqəlik meditasiya, zalı, müəllimi və bir-birini salamlama ritualları icra olunur.

**Yekun hissədə** (5–10 dəq.) orqanizm normal, işdən əvvəlki vəziyyətə gətirilir. Artıq gərginlik götürülür, orqanizmə rahatlıq, bir növ boşalma verilir.Tədricən yük azaldılır, tənəffüs təmrinləri, rahatlama, bərpa hərəkətləri yerinə yetirilir. Nəbz yoxlanılır, dərsin nəticələri yekunlaşdırılır, şagirdlərin diqqəti növbəti dərsə yönəldilir.

İmtahan proqramına əsasən, şərq əlbəyaxa döyüş növlərinə aid taktiki-texniki hərəkət proqramı ardıcıllıqla öyrədilir. Hər dərsdə karateyə aid bir-iki xüsusi hərəkət verilir və onlar həm elementlərə ayrılaraq, həm də bütöv şəkildə öyrədilir, tətbiqi əhəmyyəti, yerinə yetirilmə strukturu izah edilir.

Hazırlanmış metodikanın səmərəliliyi pedaqoji eksperiment nəticəsində sübuta yetirilmişdir. Eksperiment keçirmək üçün 3 yoxlama normativini əhatə edən test sınaqları həyata keçirilmişdir: 1) irəliyə üç dəfə mayallaq aşmaq; 2) gimnastika skamyasında dörd dəfə dönmək; 3) gözləri yumaraq bir ayaq üzərində dayanmaq.

Birinci cədvəldə eksperimental və yoxlama qruplarının test nəticələri göstərilir. Eksperimentin başlanğıcında əldə edilmiş orta qrup məlumatları və dərs ilinin sonunda artım göstəriciləri bu qruplarda tətbiq olunmuş metodikanın səmərəliliyini dəyərləndirməyə imkan verir.

**cədvəl 1**

**koordinasiya bacarıqlarının inkişafının müqayisəli təhlili**

| göstəricilər | x±δ | | | | artım %-i | |
|---|---|---|---|---|---|---|
| | ilkin məlumatlar | | son məlumatlar | | | |
| | eks.qrup | yoxl.qrupu | eks. qrup | yoxl.qrupu | e.q. | y.q. |
| irəli üç dəfə mayallaq aşmaq | 5,01±0,10 | 5,91±0,32 | 4,55±0,10 | 5,59±0,32 | 9 | 5 |
| gimnastika skamyasında dörd dəfə dönmək | 15,7±0,30 | 16,6±0,18 | 14,8±0,30 | 16,3±0,18 | 5,7 | 1,8 |
| bir ayaq üstə durmaq | 34,2±4,45 | 31,2±4,41 | 47,1±3,82 | 36,2±4,33 | 37 | 16 |
| qruplarda orta artım %-i | | | | | 17 | 7 |

Test nəticələrinə əsasən, *irəli üç dəfə mayallaq aşma* testində orta vaxt sentyabr ayında 5,01±0,107 saniyə, may ayında isə artıq 4,55±0,108 saniyə təşkil etmişdir. Bu göstərici üzrə faktiki nəticə qrup üzrə 9% artmış, lakin nəticələr qeyri-bərabər olmuşdur.

*Gimnastika skamyasında dörd dəfə dönmə* testində də zaman kəmiyyəti azalmış, 15,7±0,303 saniyədən 14,8±0,305 saniyəyə enmişdir. Faktiki vaxt orta hesabla 0,9 san., yaxud 5,7% azalmışdır.

*Bir ayaq üstə durma* testində hesablamalar göstərmişdir ki, sentyabr ayında orta zaman kəmiyyəti 34,2±4,453 saniyə idisə, artıq may ayında 47,1±3,653 saniyə olmuşdur. Bu testdə qrup üzrə nəticə 37% yaxşılaşmışdır.

Pedaqoji eksperimentdən sonra qruplardakı yoxlama ölçmələrində orta nəticə əhəmiyyətli dərəcədə fərqli olmuşdur ($P<0,05$). Bu göstəricilər aşağı məktəb yaşlı uşaqlarla aparılan təlimləndirici eksperimentin müsbət nəticələndiyini göstərir. Karate məşğələlərində 10–11 yaşlı uşaqlarda koordinasiya bacarıqlarının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən təlimləndirici eksperimentə cəlb olunmuş qruplarda onun səviyyəsinin artmasına dair müsbət nəticələr alınmışdır.

• Çevikliyin inkişaf vasitə və metodları yeni hərəkətlərin müntəzəm şəkildə öyrədilməsindən və hərəki fəaliyyət anında yenidən qurmağa yönələn fiziki hərəkətlərin (idman oyunları və s.) tətbiqindən ibarətdir.

• Çeviklik təmrinlərini 15 dəqiqədən artıq olmayan mərhələlərlə təlim-məşq dərslərinin ilk üçdə bir hissəsinə daxil etmək daha məqsədəuyğundur.

Hərəki koordinasiyanı (çevikliyi) artıran çoxsaylı müxtəlif metodik yollardan aşağıdakılar tövsiyə olunur:

* qeyri-adi ilkin vəziyyətlərin tətbiqi (qaçış);
* müxtəlif mövqelərin sürətlə dəyişdirilməsi (oturmaq, uzanmaq, qalxmaq);
* hərəkət sürətinin dəyişdirilməsi;
* tapşırıqların yerinə yetirilməsi metodlarının əvəzlənməsi: yuxarıdan, aşağıdan, yandan atma;
* bir və ya ikiayaqla, dönməklə tullanma;
* müxtəlif formalı, çəkılı, həcmli əşyalardan istifadə;
* şagird iştirakçılarla uzlaşdırılmış hərəkətlərin yerinə yetirilməsi (ikilikdə əl-ələ tutmaqla oturub-qalxmalar, əyilmələr, tullanmalar);
* müntəzəm və məqsədyönlü şəkildə mütəhərrik oyunların tətbiqi, oyun şərtlərinin çətinləşdirilməsi.

Əldə olunmuş məlumatlar belə bir nəticəyə gəlməyə imkan verir ki, ibtidai sinif şagirdlərinin fiziki tərbiyə sistemində şərq əlbəyaxa döyüş növü olan karatedən istifadə onların koordinasiya bacarıqlarının müsbət istiqamətdə dəyişməsini təmin edir. İlkin göstəricilərlə müqayisədə 17% artım müşahidə olunmuşdur ($P<0,05$).

Məktəblilərin fiziki tərbiyəsində karatenin tətbiqi eksperimental qrupda koordinasiya bacarıqları göstəricilərinin statik artımının dəqiq göstəricilərini əldə etməyə imkan vermiş, yoxlama qrupuna nisbətən yekun nəticələr orta hesabla 10% artıq olmuşdur.

**ədəbiyyat**

1. Həsənova Z.A., Cəfərov Q.M. İdmançı hazırlığının əsas cəhətləri və idman məşqinin xüsusi prinsipləri. Bakı, 1992.

2. Salahov T.O., Əkbərov R.A. Karate idman növündə təlim-tədris məşqinin keçirilmə xüsusiyyətləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. № 4/2016. Bakı: "Mütərcim", 2016.

3. Барковский В.Е., Смирнов Н.В.Практическое каратэ. Донецк: «Л.-Смарт», 1990.

4. Бишоп М. Окинавское каратэ: учителя, стили, тайные традиции и секретная техника школ воинского искусства / Пер. с англ. А. Кратенкова. Москва: ФАИР-ПРЕСС, 1999.

5. Вихман В.Д. Школа каратэ-до. (издание 2-е). Москва, 1988.

6. Гилби Д.Ф. Секреты боевых искусств. Москва, 1991.

7. Гогунов Е.Н., Мартьянов Б.Н. Психология физического воспитания и спорта. Москва: «Физкультура и спорт», 2000.

8. Есио Сидзато. Каратэ Годзю-рю. Харьков: «СПДФЛ», 2006.

**РАЗВИТИЕ И СОВЕРШЕНСТВОВАНИЕ КООРДИНАЦИОННЫХ СПОСОБНОСТЕЙ У ДЕТЕЙ МЛАДШЕГО ШКОЛЬНОГО ВОЗРАСТА НА ЗАНЯТИЯХ КАРАТЕ**

**резюме**

В статье рассказывается о развитии и совершенствовании координационных способностей у детей младшего школьного возраста на занятиях каратэ. Актуальность выбранной темы заключается в том, что формирование координационных способностей является важным элементом формирования здорового человека, т. к. координационные способности напрямую связаны с работой центральной нервной системы. Важным периодом формирования координационных способностей является младший школьный возраст. Формирование координационных способностей может осуществляться только при занятиях физическими упражнениями.

**DEVELOPMENT AND IMPROEMENT OF COORDINATION ABILITES IN CHILDREN OF PRIMARY SCHOOL AGE IN KARATE CLASSES**

**summary**

The article describes the development and improvement of coordination abilities in children of primary school age in karate classes. The relevance of the chosen topic is that the formation of coordination abilities is an important element in the formation of a healthy person, since the coordination abilities are directly related to the work of the central nervous system. An important period in the formation of coordination abilities is the junior school age. Formation of coordination abilities can be carried out only during physical exercises.

# RİYAZİYYAT DƏRSLƏRİNDƏ İSTEDADLI ŞAGİRDLƏRLƏ İŞİN TƏŞKİLİ

**Sitarə Məmmədova,**
Bakı şəhəri, 60 nömrəli tam orta məktəbin
ibtidai sinif müəllimi



**açar sözlər:** istedad, qabiliyyət və bacarıqlar, yaradıcılıq potensialı, dövlət proqramı, riyazi qabiliyyətlər, məntiqi təfəkkür, kiçik məktəb yaşı dövrü;
**ключевые слова:** талант, умения и способности, творческие потенциалы, государственная программа, математические способности, логическое мышление, младший школьный возраст;
**key words:** talent, abilities and abilities, creative potentials, state program, mathematical abilities, logical thinking, younger school age.

İstedadlı şagirdlərin aşkar olunması, onların meyil və bacarıqlarının daha da inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılması ümumtəhsil məktəblərinin qarşısında duran mühüm problemlərdən biridir.

Prezident İlham Əliyevin "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" 2006-ci ildə imzaladığı sərəncam belə şagirdlərin səmərəli təhsil almaları üçün lazımi şəraitin yaradılmasını stimullaşdırdı. 2006–2010-cu illəri əhatə edən Dövlət Proqramının əsas məqsədi də məhz respublikanın ümumtəhsil müəssisələrində mövcud olan istedad potensialını vaxtında müəyyənləşdirib, onun inkişafını təmin etmək üçün xüsusi tədbirlər həyata keçirməkdən, ictimaiyyətin diqqətini bu vacib məsələnin həllinə yönəltməkdən ibarətdir. 2013-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd edilirdi ki, təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərində qazanıldığından onların zehninin erkən yaş dövründən inkişafı qayğısına qalmaq vacibdir.

Dövlətin göstərdiyi qayğıya cavab olaraq məktəblərin, müəllimlərin öhdələrinə çox məsuliyyət düşür. Məktəb rəhbərliyi, fənn müəllimləri, psixoloqlar bu məsuliyyəti dərk etməklə yanaşı, ailə ilə birlikdə problemin optimal həlli yollarını müəyyənləşdirməli, uşaqlarla sistemli iş aparmalıdırlar.

Bu məqalədə istedadlı şagirdlərin riyazi qabiliyyətləri haqqında söz açmaq istərdik. Respublikamızda istedadlı şagirdlərin səmərəli təhsil almalarını təmin etmək məqsədilə rayon və şəhərlərimizdə liseylər və gimnaziyalar fəaliyyət göstərir. Bu tipli tədris müəssisələrində təhsilin məzmunu müasir tələblərə uyğunlaşdırılır. Riyaziyyat fənn proqramında göstərilir: "Riyaziyyat məntiqi təfəkkürün formalaşmasında, mühakimə və dərketmə qabiliyyətlərinin yüksəlməsində müstəsna rol oynayır. Riyazi məşğələlər şagirdlərin məntiqi mühakimə yürütmək bacarıqlarını, intuisiyalarını, fəza təsəvvürlərini inkişaf etdirir. Riyazi fəaliyyət zamanı induksiya–deduksiya, təhlil–tərkib, təsnifetmə–sistemləşdirmə, konkretləşdirmə–ümumiləşdirmə, mücərrədləşdirmə kimi əqli mühakimə metodlarından istifadə olunur. Bu, şagirdlərin məntiqi təfəkkürünün inkişafını sürətləndirməklə yanaşı, diqqətin, hafizə və nitqin inkişafına kömək göstərir ".

Kiçik məktəb yaşı dövrü ilkin biliklərin toplanması və mənimsənilməsi mərhələsidir. Deməli, cəmiyyətimizin kiçikyaşlı üzvlərinin bacarıq, qabiliyyət və istedadlarının erkən müəyyənləşdirilməsi vacibdir. Bu, istedadın aşkarlanması, qorunması və inkişafını özündə ehtiva edir.

Pedaqogikada "istedadlı uşaqlar" ifadəsindən geniş istifadə olunur. Əgər uşaq tədris prosesində, fərdi yaradıcılığı zamanı qeyri-adi uğurlar qazanırsa, öz yaşıdlarından fərqlənirsə, deməli, o, istedadlıdır. *İstedad* və *bacarıq* anlayışları əlaqəli olmaqla, biri digərini müəyyən edir. Orta ümumtəhsil məktəblərində fənn müəllimlərinin əsas vəzifəsi hər bir şagirdin inkişafını izləmək,

onların qabiliyyətlərinin səviyyələrini müəyyən etməkdir. Onların inkişafını düzgün istiqamətləndirmək və həyata keçirmək üçün şəraitin yaradılması vacibdir.

Şagirdlər yaradıcılıq prosesinə cəlb edildikdə, istedadlı uşaqlarda tədqiqatçılıq fəallığı özünü daha aydın büruzə verir. Bu, onlarda biliyə həvəs yaradır, yeni "kəşflər etmək" arzusu oyadır. Onlar özlərini dərk etmək üçün zehni əmək fəaliyyətinə qoşulmalıdırlar. Bunu nəzərə alaraq ilk günlərdən işə başlayarkən uşaqların üzərində müşahidə aparmaqla onların qeyri-adi bacarıqlarını aşkara çıxarmaq lazımdır. Qeyri-adi bacarıqlara malik uşaqları seçərkən onları mövzuya dair zəruri materialları müstəqil tapmağa təşviq etmək, yenidən işləyib hazırlamaq kimi bacarıqlara üstünlük verilməlidir.

Təlim prosesində istedadlı uşaqların bilik və bacarıqlarının artırılmasına onların yaradıcılıq potensialının inkişafı kimi baxılmalıdır. Şagirdlərdə müəlliflik bacarığı formalaşdırılmalı, qarşıya qoyulmuş məqsədə çatmaq yollarını müstəqil müəyyənləşdirən, öz imkanlarından maksimum dərəcədə istifadə edə bilən məsuliyyətli şəxsiyyət yetişdirilməlidir.

İstedadlı uşaqlarla işləyərkən aşağıdakı metod və priyomlardan istifadə edilməsi məqsədəuyğundur: tədqiqatçılıq; qismən axtarıcılıq; problemli təlim, layihələr metodu və s. İntellektual marafonlardan, müxtəlif müsabiqə və viktorinalardan, şifahi, rollu oyunlardan istifadə etmək də məsləhətdir. Bütün bunlar imkan verir ki, istedadlı şagirdlər əlverişli yaradıcılıq növü seçə və öz potensial imkanlarını göstərə bilsinlər. Bu, onların gələcək inkişafına stimul verir.

Dərsdə cütlərlə, kiçik qruplarla işdən, müxtəlif çətinlik səviyyəli yaradıcı tapşırıqlardan, problemlə əlaqədar məsləhətləşmələrdən,diskussiyalardan və başqa iş formalarından istifadə edilə bilər.

İbtidai siniflərdə istedadlı şagirdlər müşahidə yolu ilə müəyyənləşdirilir. Bu zaman uşağın fərdi-psixoloji xüsusiyyətləri, məntiqi təfəkkürü,yaddaşı, nitqi, valideynləri və yaşıdları ilə münasibətləri, ünsiyyət səviyyələri öyrənilir.

İstedadlı uşaqlarda aşağıdakı xüsusiyyətlər özünü göstərir: yüksək yaradıcı təfəkkür; uyğunlaşma bacarığı; proqnozlaşdırma bacarığı; diqqətin yüksək dayanıqlılığı.

Hər bir müəllim diferensial yanaşmanın köməyi ilə bu xüsusiyyətləri inkişaf etdirməlidir. İstedadlı uşaqlarla işləyərkən bunları bilmək vacibdir:

• tədris proqramını zənginləşdirmək, təlimin məzmununu yeniləşdirmək və genişləndirmək;
• şagirdlərin qavrama qabiliyyətlərini inkişaf etdirmək;
• diferensiasiya əsasında işləyərək şagirdlərə fərdi yanaşmaq;
• özünün və bütün sinfin təlim-tərbiyə prosesini təhlil etmək;
• pedaqoji-psixoloji məzmunlu qərarlar qəbul etmək;
• kollektiv yaradıcılıq fəaliyyəti üçün material hazırlamaq.

Bəzən istedadlı uşaqlar intellektlərinin çiçəkləndiyi vaxtda çətinliklərlə üzləşirlər. Onları nəinki evdə, hətta məktəbdə də başa düşmürlər. Məktəbdə istedadlı uşaqları başqaları ilə eyni səviyyədə öyrədirlər ki, bu da onlar üçün maraqsız, darıxdırıcı olur. Onlar artıq oxumağı, hesablamağı bacardıqlarına görə, digər uşaqlar əlifba və ilkin riyazi hesablamaları öyrənərkən boş qalır, təlimə maraqlarını itirirlər.

Əlbəttə, çox şey tədrisin necə aparılmasından asılıdır. Bəzən müəllim bütün siniflə məşğul olduqda şagirdlərə nə qədər fərdi yanaşmağa çalışsa da, güclü şagirdlərə xüsusi diqqət yetirmək imkanından məhrum olur. Bacarıqlı şagird zehni qabiliyyətlərinə uyğun olaraq proqramdakından daha çox təlim yükü tələb edir. Xüsusi qabiliyyətlərə malik uşaqların bəziləri tədricən ümumi tələblərə uyğunlaşır, öz müstəqilliyini, maraq və yaradıcılıq fəaliyyətini itirirlər. Beləliklə, onların real imkanları sönür.

Bəziləri düşünürlər ki, istedadlı şagirdlər öz intellekt səviyyələrinə uyğun uşaqlarla birlikdə, xüsusi məktəblərdə və ya siniflərdə təhsil almalıdırlar.

Məşhur riyaziyyatçı A.N.Kolmoqorov riyazi qabiliyyətlərin xüsusiyyətlərini belə qruplaşdırmışdır:

a) hərflərlə ifadə olunmuş mürəkkəb riyazi ifadələri çevirmək, standart qaydalara uyğun olmayan tənlikləri həll etmək üçün uğurlu yollar tapmaq, hesablama və alqoritmik qabiliyyətləri adlandırmaq bacarığı;

b) həndəsi təsəvvür və ya həndəsi intuisiya;

c) ardıcıl, düzgün şəkildə formalaşdırılmış məntiqi düşüncə tərzi [3, səh.9].

A.N.Kolmoqorov qeyd edir: riyazi qabiliyyətlər o zaman üzə çıxır ki, şagirdlərin riyazi məsələləri nə qədər sürətlə, dərindən mənimsədikləri təzahür olunsun. Bu qabiliyyətlər riyazi materialın həlli prosesində aşkar edilir.

Riyazi materialı mənimsəmə sürəti şagird tərəfindən müəyyən müddətdə həll olunan tapşırıqların sayı ilə, həm də müxtəlif şagirdlərin eyni problemin həlli üçün istifadə etdikləri müddətə görə qiymətləndirilir.Təlim materialının möhkəmləndirilməsi və davamlılığı əvvəlcədən seçilmiş tapşırıqlar əsasında müəyyən edilir. Mənimsəmənin dərinliyi müəllimin əvvəlki izahatı əsasında şagirdin öz şəxsi ehtiyacları üçün təlim materialını istifadə etməsi ilə müəyyənləşdirilir. Bu xüsusiyyətlərin (sürət, dərinlik, davamlılıq) hər biri məcburidir və inkişaf etmiş riyazi qabiliyyətlərin yeganə göstəricisi hesab olunmur. Onlardan ən azı biri kifayət qədər inkişaf edirsə, şagirdin riyazi qabiliyyətlərinin mövcudluğu təsdiqlənir.

Dərs dediyim uşaqlar arasında istedadlıları seçmək üçün onlara yüksək təfəkkür fəaliyyəti tələb edən məsələlər verirəm. Ayda bir dəfə onlara təqdim olunmuş mövzular üzrə layihələrin müdafiəsini təşkil edirəm. Bu, uşaqlarda əlavə material toplamaq biliklərini genişləndirmək kimi yüksək yaradıcılıq bacarıqları formalaşdırır.

İstedadlı uşaq idraki tələbata, yaradıcı təfəkkür və təxəyyülə, yüksək intellektə malik olmalıdır. Riyazi istedadın əsas əlamətləri bunlardır: ümumiləşdirmə bacarığı, məntiqi cəhətdən əsaslandırılmış, formalaşdırılmış düşüncə, çeviklik, dərinlik, sistemlilik və güclü yaddaş.

İstedadlı uşaqları müəyyən edərkən bu qabiliyyətin qiymətləndirmə göstəricilərindən ibarət olan bir sıra kompleks yanaşmaların tətbiqi məqsədəuyğundur. Bunlar test, müşahidə, eksperiment, anket sorğusu və s. ola bilər. Bu zaman qiymətləndirmə sisteminə əsaslanan yanaşmadan fərqli olaraq, uşağın intellekt səviyyəsini hərtərəfli öyrənmək mümkündür. İstedadlılığın müəyyənləşdirilməsi və təsdiqi müxtəlif sahələrdən olan ixtisaslı mütəxəssislərin iştirakını tələb edən kompleks prosesdir.

Uşaq istedadının, onun inkişafının müəyyənləşdirilməsinə bir neçə yanaşma var. Bütün nəzəri mövqeləri birləşdirən əsas an – istedadlılığa şəxsiyyətin fəaliyyətinin bir prosesi kimi yanaşılması istedadlı uşaqların şüurunun, yaradıcı potensialının inkişafını həyata keçirir.Bu potensialın inkişafına şərait yaratmaq üçün iki yol vardır: təlim prosesini zənginləşdirmək və sürətləndirmək. İstedadlı uşaqlarla işləyərkən fərdiləşdirmə, fərqləndirmə və təlimin tədqiqat prinsiplərini nəzərə almaq məsləhətdir.

İstedadlı uşaqların inkişafının əsas psixoloji, pedaqoji metodlarına (təhsil prosesinin zənginləşdirilməsi və sürətləndirilməsinin tərkib hissəsi kimi) xüsusi riyazi tapşırıqların həlli, evristika, oyun, problemli və fəal təlim metodları daxil edilməlidir.

İstedadlı uşaqlarla işləyən müəllimlərin əsas çətinlikləri psixoloji dəstəyin, xüsusi metodik və didaktik ədəbiyyatın olmamasıdır. Biz istedadlı uşaqların təlimindən danışarkən yalnız inkişafetdirici materialı nəzərdə tuturuq, lakin hazırda bütöv təhsil sistemində, xüsusilə də ümumtəhsil məktəblərində riyaziyyatın tədrisi prosesində istedadlı uşaqlarla işləmək üçün metodiki sistem zəifdir.

Xüsusi məktəblərdə riyaziyyat üzrə müsabiqələr, olimpiadalar təşkil olunur, lakin tədqiqatlar göstərir ki, bu tədbirlər istedadlı uşaqların problemini həll etmir. Belə uşaqların problemlə-

rini yalnız məktəb həll edə bilər. İstedadlı uşaqlarla aparılan metodik işlər ciddi araşdırmalar tələb etməklə günümüzün təxirəsalınmaz vəzifələrindən biri kimi öz həllini gözləyir.

**ədəbiyyat**

1. Bəylərov E. Ümumtəhsil məktəblərində şagirdlərin ümumi intellekt səviyyəsi və onun diaqnostikası. Bakı: BDU, "Psixologiya", 2005, №1.
2. Bəylərov E. İstedadlı uşaqların təliminin aktual problemləri. Bakı: "Azərbaycan məktəbi", 2008, № 4.
3. Колмогоров А.Н. Избранные труды. Математика и механика. Москва: «Наука», 1985.

**ОРГАНИЗАЦИЯ РАБОТЫ С ТАЛАНТЛИВЫМИ УЧЕНИКАМИ НА УРОКАХ МАТЕМАТИКИ**

**резюме**

В статье рассказывается об организации работы с талантливыми учениками на уроках математики. Отмечается, что определение таланта и умения – это то, которое идентифицирует друг друга. Основная задача учителей-предметников среднего общего образования – отслеживать прогресс каждого ученика и определять его способности. Так же отмечается важность создания условия для правильного руководства и осуществления их развития, приводится примеры от приоизведений гениального математика XX века Колмогорова А.Н.

**ORGANIZATION OF WORK WITH TALENTLY STUDENTS ON LESSONS OF MATHEMATICS**

**summary**

The article describes the organization of work with talented students in math lessons. It means that the definition of talent and skill is one that identifies one another. The main task of subject teachers in secondary general education is to monitor the progress of each student and determine his abilities. Also noted is the importance of creating the conditions for proper guidance and implementation of their development, examples are given from the introductions of the genius mathematician of the twentieth century A.N. Kolmogorov.

# İBTİDAİ SİNİFLƏRDƏ ŞAGİRD NAİLİYYƏTLƏRİNİN İNKİŞAFINA MƏKTƏBƏHAZIRLIQ TƏHSİLİNİN TƏSİRİ

**Səidə İbrahimova,**
Bakı şəhəri, Lökbatan qəsəbəsi, Səxavət Məhərrəmov adına 106 nömrəli
tam orta məktəbin ibtidai sinif müəllimi



**açar sözlər:** məktəbəqədər dövr, məktəbəhazırlıq, ibtidai təhsil, şagird nailiyyətləri, şəxsiyyətin formalaşdırılması, akselerasiya, təlim əməyi, fiziki və psixi inkişaf, beşyaşlılar, altıyaşlılar, fiziki hazırlıq, intellektual hazırlıq, sosial hazırlıq;

**ключевые слова:** дошкольный возраст, подготовка к школе, начальное образование, успеваемость учащихся, развитие личности, ускорение в развитии, ускоренное обучение, физическое и умственное развитие, пятилетки, шестилетки, физическая подготовка, интеллектуальная подготовка, социальная подготовка;

**key words:** pre-chool old age, development of the school, the education of the person, the development of personality, the development of personality, the development of the education, the physical training and physical development, the fifth year, the physical preparation, the intellectual preparation, the social preparation.

Şəxsiyyətin hərtərəfli inkişafının əsası məktəbəqədər dövrdə qoyulur. Uşağın ailədə və ya məktəbəqədər müəssisədə təlim-tərbiyə alması onun sonrakı illərdə formalaşmasının bünövrəsini qoyur, inkişafını müəyyən edir.

Şagird nailiyyətlərinin inkişafı, ümumpedaqoji problem kimi, təhsil sisteminin aktual məsələsidir. Şagird nailiyyətləri dedikdə, onun biliyi, bacarığı kimi keyfiyyətlər nəzərdə tutulur.

Bu gün dövlətin qərarı ilə həyata keçirilən məktəbəhazırlıq təhsili tarixən pedaqoqları, psixoloqları, metodistləri düşündürmüşdür. Bu, məktəbəqədər yaş dövründə uşaqların səhhəti, nitqi, əqli inkişafı və psixologiyasında baş verən nöqsanlarla bağlıdır. İnsan həyatının 5 yaşadək

dövrünü “qızıl dövr” adlandıran pedaqoq, psixoloq və fizioloqlar onların artıq təlimə hazır olduqlarını qeyd edirlər.

Təhsil islahatının həyata keçirildiyi bir vaxtda uşaqların məktəbə hazırlığının əsas məqsədi onların tələb və imkanlarını nəzərə almaqla təhsil, tərbiyə və inkişaf prosesini təşkil etməkdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Uşaqların məktəbə hazırlığının təşkili məsələləri haqqında” qərarında məktəbəhazırlığın vəzifələri belə qeyd olunur: uşaqlarda oxumaq həvəsi, onların məktəbə emosional münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, müvəffəqiyyətlə adaptasiya olunmaları üçün sosial xüsusiyyətlər formalaşdırılmalıdır.

Təhsilin ilk pilləsi olan məktəbəqədər dövrdə uşaqların təlim əməyinə və digər vərdişlərə yiyələnmələri, istedadlarının, qabiliyyətlərinin aşkara çıxarılması fiziki, pedaqoji-psixoloji inkişaflarını təmin edir.

Uşaqların məktəbə mükəmməl hazırlığı təlim prosesinin səmərəli qurulmasına əsaslı təsir göstərir. Yuxarıda qeyd etdiyimiz sənəddə məktəbəhazırlığın vəzifələri belə göstərilir: uşaqlarda oxumaq həvəsinin, məktəbə müsbət emosional münasibətlərinin inkişaf etdirilməsi, təlim-tərbiyəyə müvəffəqiyyətlə adaptasiya olunmaları üçün şəxsi-sosial xüsusiyyətlərin formalaşdırılması.

Hazırkı dövrdə I sinfə 6 yaşdan başlandığından məktəbə hazırlıq yaşı bir il aşağı salınmış – 5 yaşdan olmuşdur. Beşyaşlıların məktəbə hazırlanmalarını altıyaşlılarla olduğu kimi aparmaq mümkün deyil. Beşyaşlıların məktəbə hazırlığının məzmunu,formaları, metod və priyomları köklü dəyişikliklərin aparılmasını tələb edir.

Uşaq məktəbə hazırlaşarkən təhsil prosesində ona lazım olacaq aşağıdakı ümumpedaqoji keyfiyyətlərə yiyələnməlidir:

• dinləmək, anlamaq, danışmaq;
• düzgün sual vermək;
• suala müstəqil cavab vermək;
• təfəkkür əməliyyatları (müqayisə etmək,ümumiləşdirmək, nəticə çıxarmaq və s.) aparmaq.

Öyrənməyə maraq göstərməyən uşağın dərsdə fəal mövqe tutacağına, öz qüvvəsini, iradəsini səfərbər edəcəyinə, bilik, bacarıq və vərdişlərə yiyələnəcəyinə ümid bəsləmək mənasızdır. Uşağın inkişafı əqli tərbiyə ilə vəhdətdə həyata keçirilməlidir.

Uşağın məktəbə hazırlanması anlayışı müxtəlif aspektlərdə başa düşülür. Bəziləri onu yalnız uşağın sağlamlığı və normal inkişafı ilə əlaqələndirir, bəziləri ağır hesab edirlər. Elələri də var ki, fəaliyyəti yalnız dərs ləvazimatlarının alınması kimi yüngül məsələ ilə məhdudlaşdırırlar. Müəllimlər ilk növbədə oxu, yazı və hesab vərdişlərinə yiyələnməyi məsləhət görürlər. Bu, valideynlərin həmin sahədə maariflənməmələrindən və məktəbə hazırlığın pedaqoji tələblərini lazımınca qiymətləndirməmələrindən irəli gəlir.

Uşağın istər məktəbəqədər müəssisədə, istərsə də məktəbdə təlimə hazırlanması mühüm əhəmiyyətə malikdir. Bu dövrdə aparılan hazırlıq işi uşağın məktəbdə təlim nailiyyətlərinə yiyələnməsi üçün zəruri fiziki, intellektual, mənəvi-iradi keyfiyyətlər qazanmasını təmin edir.

Uşağın məktəbə hazırlanması anlayışına ilk növbədə onun fiziki hazırlığı, kollektiv üzvləri ilə normal ünsiyyətə nail olması, iradi keyfiyyətlərə yiyələnməsi, ətraf aləmlə tanışlığı, nitqinin inkişaf etməsi, oxumağı və yazmağı bacarması daxildir.

Hazırlıq siniflərində bu fənlər tədris olunur: ətraf aləmlə tanışlıq, savad təlimi, nitq inkişafı, bədii təfəkkürün inkişafı, təsviri fəaliyyət, musiqi, fiziki mədəniyyət, məntiqi və riyazi təfəkkürün inkişafı.

Bunlar kurikulumun tələbləri baxımından ilkin bacarıqların formalaşmasına, məzmun standartlarının daha yaxşı reallaşdırılmasına şərait yaradır.

Təcrübə göstərir ki, uşaqların təxminən 20 faizi təlim əməyinə hazır olur və tədris materiallarının öhdəsindən müvəffəqiyyətlə gəlir. Bu, hazırlıq qruplarından gələn uşaqların hesabına ya-

zılmalıdır. Pedaqoji maarifləndirməyə cəlb edilməyən valideynlərin öhdəsinə buraxılan uşaqlar, şübhəsiz, məktəbə lazımınca hazır gələ bilməzlər. Ailələrdə, həmçinin məktəbəqədər müəssisələrdə təlimə hazırlıq xarakterli məşğələlərə cəlb edilən uşaqlar, demək olar ki, bütün parametrlər üzrə tələblərə cavab verə bilmirlər.

Uşağı bioloji yaşına əsasən məktəbə qəbul etmək onu kortəbii olaraq ümumi axının ixtiyarına buraxmaq deməkdir. Ümumpedaqoji hazırlıqla əlaqədar yuxarıdakı vəzifələrin bəzi cəhətlərini açıqlayaq. Uşağın məktəbə hazırlanması üzrə işi normal təşkil etmək üçün, hər şeydən əvvəl, onu diqqətlə öyrənmək lazımdır. Erkən yaşda körpələr evində tərbiyə alan, sonrakı fəaliyyətini uşaq bağçasında keçirən uşaqların öyrənilməsi asandır. Bu halda tərbiyəçi uşaqların fəaliyyətini erkən yaşdan izləyir, bağçada üç il onunla məşğul olur. Uşaq ilk dəfə hazırlıq qrupuna daxil olduqda isə onu diqqətlə öyrənmək lazım gəlir.

Məşhur rus psixoloqu L.S.Vıqotski 6 yaşı təlim üçün "məktəb yetişkənliyi" dövrü hesab edirdi.

Tərbiyəçi çalışmalıdır ki, hazırlıq qruplarında uşağın optimal məktəb yetişkənliyi təmin edilsin. Akselerasiyanın təbii yolla baş verəcəyinə ümid bəsləmək, uşağı nəzarətsiz qoymaq təlim prosesində onun zəiflər qrupuna keçməsi ilə nəticələnir. *Akselerasiya* – latınca *acceleratio* sözündən götürülmüş, mənası *sürətlənmə*, yəni fərdlərin böyümə və yetişmələrinin tezləşməsi deməkdir. Cəmiyyətdə akselerasiya uşağı əhatə edən mühitin kompleks faktorlarının təzyiqi altında gedir. Belə şəraitdə ən yüngül təlim tapşırığı uşaq üçün ağır yükə çevrilə bilər. Bu dövrdə valideynlərin hər hansı təkidi, tələbkarlığı bəzən uşağı çıxılmaz vəziyyətdə qoyur, əsəbiləşdirir, xəstələndirir. Nəticədə tələbkarlıq uşaq–valideyn, uşaq–tərbiyəçi, uşaq–müəllim münasibətlərinə mənfi təsir göstərir.Təlim yükünün fərdin imkanlarına müvafiq olmaması onda öz qüvvəsinə inamsızlıq yaradır, tapşırığı yerinə yetirə biləcəyinə şübhə ilə yanaşmasına səbəb olur. Ona görə də uşaq hələ 4 yaşında olarkən, valideyn onun fiziki və psixi fəaliyyətini öyrənməyə çalışmalı, bu prosesi izləməli, məktəb yetişkənliyi istiqamətində inkişafın normal gedib-getmədiyini müəyyənləşdirməlidir.

5 yaşınadək uşaq ana dilində sərbəst danışa bilir, təlimə cəhd göstərir, hər şeylə maraqlanır, saysız-hesabsız suallar verir. Müəllim və tərbiyəçilərin bir qismi uşaqların suallarını cavabsız qoyurlar. Bir neçə dəfə müəllimdən, tərbiyəçidən, valideynlərindən rədd cavabı alan uşaq sıxıntı hissi keçirir, sual verməkdən çəkinir. Bu, uşağı ümumi inkişafdan saxlayır. Bəzi suallara "uşaqdır, hələ başa düşməz" kimi qeyri-elmi münasibət onların inkişafına daha pis təsir göstərir. Bu, uşağın özünə qapanmasına, psixoloji baxımdan geriləməsinə səbəb olur.

Məktəbəhazırlıq qruplarında məşğələlər məzmununa, xarakterinə və müddətinə görə I sinifdəki dərslərə bənzəyir. Məşğələlərdə uşaqlar 30–35 dəqiqə ərzində tərbiyəçini və ya müəllimi dinləməyi, onun suallarını cavablandırmağı, yoldaşlarına sual verməyi, onların səhv cavablarını düzəltməyi, kollektivlə işləməyi öyrənirlər.

Bütün bunlar uşaqları məktəb həyatına hazırlayır. Təcrübə göstərir ki, məktəbə hazırlıq zamanı müəllimin, tərbiyəçinin köməyi ilə uşaqlar müstəqil idrak vəzifələri qoymaq, təhlil etmək, başlıcanı ayırmaq, fəaliyyəti planlaşdırmaq, məsələlərin həlli qaydalarını seçmək, şəxsi planı ilə öz işinə nəzarət etmək, tapşırığı kifayət qədər cəld və keyfiyyətlə yerinə yetirmək, özünün və yoldaşının əməyini qiymətləndirmək kimi tədris bacarıqlarına yiyələnirlər. Bütün bunlar ibtidai sinif şagirdlərinin məktəbə müvəffəqiyyətlə adaptasiya olunmaları üçün sosial xüsusiyyətlərin formalaşdırılmasına imkan verir.

Uşağın məktəb nailiyyətlərinin yüksək olmasında savad təliminə hazırlıq, nitqin, bədii və məntiqi təfəkkürün inkişafı əsas yer tutur. Ən mühüm vəzifə nitq səslərinin düzgün tələffüz edilməsi vərdişlərinin yaradılmasıdır. Təcrübə göstərir ki, dil açmağa başladığı gündən uşağa nitq səslərinə yiyələnmə üzrə müəyyən bacarıq və vərdişlər aşılanır. Belə mövqe səslərin mükəmməl mənimsənilməsi, nitqin düzgün qurulması, məktəbdə şagirdlərə öz fikrini şifahi və ya-

zılı şəkildə məzmunlu, rabitəli, məntiqli, dəqiq, canlı, obrazlı ifadə etməyi öyrətmək baxımından əhəmiyyətlidir. Uşaqların məktəb təliminə hazırlanmalarında fiziki hazırlıq, şəxsiyyətyönümlülük, intellektuallıq və sosial yetkinlik nəzərə alınmalıdır.

**Fiziki hazırlıq dedikdə,** uşağın sağlamlığının vəziyyəti, orqanizminin morfofunksional yetişkənliyi, hərəki fəaliyyətin, xırda motorikanın koordinasiyası, fiziki inkişafı nəzərdə tutulur.

**Şəxsiyyətyönümlü hazırlığa** ünsiyyətin, özünüqiymətləndirmənin formalaşması, müstəqillik, məsuliyyətlilik, fəallılıq, təşəbbüskarlıq, başqasını dinləmək, öz hərəkətlərini onunla razılaşdırmağı bacarmaq, müəyyən olunmuş qaydalara riayət etmək və s. aiddir.

**İntellektual hazırlıq dedikdə,** obrazlı və məntiqi təfəkkürün, təxəyyülün, yaradıcılığın inkişafı; idraki fəaliyyət vasitələrinə (təhlil, müqayisə, təsnifetmə, ümumiləşdirmə); ana dilinə, nitqin əsas formalarına (dialoq, monoloq); digər spesifik uşaq fəaliyyəti növlərinin daxilində təlim elementlərinə (quraşdırma, rəsmetmə, yapma, oyunlar) yiyələnmək, prosesləri, obyektləri müqayisə etmək, əlamətlərinə görə ayırmaq, qruplaşdırmaq, ümumiləşdirmək, nəticə çıxarmaq nəzərdə tutulur.

**Sosial hazırlığa** yüksək əxlaqi təsəvvürlər, vətəndaşlıq, vətənpərvərlik, humanistlik, digər millətlərə hörmət hisslərinin inkişafı, böyüklər və yaşıdları ilə ünsiyyətin qurulmasında yüksək mədəni davranış qaydalarının mənimsənilməsi, öz hərəkətlərində hüquqi normaların rəhbər tutulması daxildir.

Təcrübə göstərir ki, uşağın məktəbə hazırlanmasında müəllim və tərbiyəçilərlə yanaşı, valideynlərin də üzərinə böyük məsuliyyət düşür.

**ədəbiyyat**


1. Məktəbəhazırlığın təşkili qaydaları. (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il, 8 yanvar tarixli, 4 nömrəli qərarı ilə təsdiq edilmişdir).
2. Məktəbəqədər təhsilin dövlət standartı və proqramı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il, 16 iyul tarixli, 137 nömrəli qərarı ilə təsdiq edilmişdir.
3. Kərimov Y. Uşaq məktəbə gedir. Bakı: "Nağıl evi", 2002.
4. Bağırlı L. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri. Bakı: "Nərgiz", 2003.


**ВЛИЯНИЕ ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ В РАЗВИТИЕ УЧЕНИЧЕСКИХ ДОСТИЖЕНИЙ**

**резюме**


В статье рассказывается о влиянии дошкольного образования в развитие ученических достижений. Отмечается, что подготовка ребенка к школе проводится в дошкольных учреждениях или в школе. Работа, выполненная в этот период, гарантирует, что ребенок обладал физическими, интеллектуальными и моральными качествами, необходимыми для успешного достижения успеваемости в школе. Современная, физическая, личная, интеллектуальная и социальная подготовка ребенка предназначена для школьного образования.


**INFLUENCE OF PRESCHOOL EDUCATION IN DEVELOPING SCHOOL ACHIEVEMENTS**

**summary**


The article describes the influence of preschool education in the development of student achievements. It is noted that the preparation of the child for school is in the preschool or in the school. The work done during this period ensures that the child has the physical, intellectual and moral qualities necessary to successfully achieve success in school. Modern, physical, personal, intellectual and social preparation of the child is intended for school education.

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ İNTEQRASİYA

**Arzu Asaliyeva,**
ADPU-nun magistrantı



**açar sözlər:** Azərbaycan dili, inteqrasiya, təlim, fənlərarası inteqrasiya, kurikulum;
**ключевые слова:** Азербайджанский язык, интеграция, обучение, междисциплинарная интеграция, куррикулум;
**key words:** Azerbaijan language, integration, training, interdisciplinary, curriculum.

Ümumtəhsil məktəblərində ana dilinin tədrisi təfəkkürün formalaşmasında mühüm vasitə kimi dəyərləndirilməklə, dövlətçilik baxımından vacib məsələlərdən biri hesab olunur. Şəxsiyyətin formalaşmasında Azərbaycan dili müstəsna rol oynayır. Firidun bəy Köçərli qeyd etmişdir ki, ana dili millətin mənəvi diriliyidir, ananın südü bədənin mayası olduğu kimi, ana dili də ruhun qidasıdır.

Uşaq ailədə ikən ana dilinin köməyi ilə ətraf aləmdə baş verənlərin fizioloji, bioloji səbəbləri haqqında xeyli məlumata yiyələnir. Həyat haqqında biliklər onun ətrafdakı əşya və hadisələr haqqında konkret düşüncələrini formalaşdırır, lüğət ehtiyatını zənginləşdirir. O, başqalarının dediklərini anlamağa çalışır.

İbtidai siniflərdə ana dili təliminin məqsədi şagirdlərə ifadəli, şüurlu oxumaq, fikrini aydın, dəqiq, məntiqi şəkildə ifadə etmək, savadlı yazmaq bacarıq və vərdişləri aşılamaqdan, onların idrak fəaliyyətini yüksəltməkdən,elmi dünyagörüşünü formalaşdırmaqdan, başqa problemlərdən ibarətdir. Şagirdlərin əqli, əxlaqi, psixi inkişafı, onlarda müstəqil işləmək, öyrəndiklərini təcrübəyə şüurlu surətdə tətbiq etmək bacarıqları formalaşdırılmalıdır. Bunun üçün, hər şeydən əvvəl, təlimə güclü maraq, öyrənməyə inam yaradılmalıdır.

İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi ilə əlaqədar məktəbin üzərinə mühüm vəzifələr düşür. Əsas vəzifə gündəlik məşğələlərdə mənsub olduqları xalqın tarixinə, ədəbiyyatına maraq oyatmaq, vətəni sevdirmək, şagirdlərə dili dərindən öyrətməkdən ibarətdir.

Azərbaycan dili ibtidai sinif şagirdlərinin ictimai-siyasi və mənəvi tərbiyəsində mühüm vasitə olduğundan, onların maddi aləm haqqındakı təsəvvürlərini genişləndirir. Məktəblilərə dil və oxuya aid materialları təhlil-tərkib etmək, obrazları qiymətləndirmək, onlara obyektiv münasibət bildirmək bacarığı aşılayır, qazanılmış bilikləri yaddaşda canlandırmaq, müxtəlif şəraitdə təcrübəyə tətbiq etmək qabiliyyəti yaradır.

- Azərbaycan dili uşaqların məktəbə gəldikləri gündən lüğət ehtiyatını zənginləşdirir, onların cümlə qurmaq, söz və ifadələri ədəbi tələffüz normalarına uyğun tələffüz etmək fikrini məntiqi ardıcıllıqla bildirmək bacarıqlarını inkişaf etdirir.
- Şagirdlərdə şüurlu, düzgün, sürətli, ifadəli oxu bacarıq və vərdişləri yaradır.
- Düşdükləri vəziyyətdən asılı olaraq, məktəblilərdə dilə həssas münasibət formalaşdırır.

İnteqrasiya təhsil sistemi çərçivəsində qloballaşmanın irəli sürdüyü vacib tələblərdən biri olmaqla, şagirdlərin yaradıcı, məntiqi təfəkküründə dünyanın tam obrazını formalaşdırmaq, onları özünüinkişafa yönəltmək məqsədi daşıyır. *İnteqrasiya* anlayışı həyatın bütün sahələrinə aid olmaqla sinkretik xarakter daşıyır, məzmun komponentləri arasında əlaqələr qurmaq, onların inkişaf istiqamətində dəyişiklikləri tənzimləməkdə müasirliyi təmin edir. Bu anlayışın mahiyyətinə varmaq üçün onun mənasını bilmək vacibdir. İnteqrasiya latın dilində *integer – bütöv, bütövləşmə* deməkdir. Sözün leksik mənası onun məzmun və məqsədini daha aydın ifadə edir.

Müasir dövrdə inteqrasiya qlobal dünyanın təhsil sistemlərində əhəmiyyətli yer tutur. O, bu gün – insan fəaliyyətinin bütün sahələrini xarakterizə edən informasiyaların çoxaldığı bir

dövrdə dünyanın dəyişən dinamikasını görmək və inkişafı üçün birləşmələr, bloklar yaratmaqla müəyyən islahatlar aparmaq ən səmərəli addımlardan biri kimi qəbul olunur.

"Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası"nda təhsilin inteqrativliyi əsas götürülmüşdür. Bu halda şagirdlər təlim prosesində ayrı-ayrı fənlərlə bağlı verilən bilik və bacarıqları mənimsəməklə ətraf aləmin dərk edilməsinə yaradıcı yanaşa bilirlər. Bu isə öz növbəsində onların problemli situasiyanın müzakirəsində və həllində obyektiv olmalarına, informasiyaların təhlilinə tənqidi yanaşmalarına imkan verir. Ölkəmizdə aparılan təhsil islahatları dövründə əsas fəaliyyət istiqamətlərindən biri inteqrativ təhsilin formalaşması olmuşdur. Təhsil quruculuğunda *inteqrativ təhsil* anlayışı yaradıcı şəkildə istifadə edilməkdədir. Görkəmli psixoloq, professor Əbdül Əlizadə yazırdı ki, müasir dövrdə humanitar fənlərin təbiət elmləri ilə inteqrasiyası daha çox vurğulanır. Bu ideya özlüyündə son dərəcə mühümdür. Bir tərəfdən elmi tərəqqi şəraitində məktəb sadəcə olaraq humanitar fənlərin ekstensivləşdirilməsi yolu ilə inkişaf edə bilməz. Digər tərəfdən fənlərin inteqrasiyasını dövrün səhv məntiqi "təhsil gündəminə çıxarıb". Respublikamızda bu sahədə ilk addımlar atılıb. Bu sahədə əldə edilmiş təcrübə elmi-metodik meyarlarla təhlil olunmalıdır. Ən başlıca fənlərin inteqrasiyasının konseptual modeli işlənməlidir. Humanitar fənlərlə təbii-elmi fənlərin inteqrasiyası ancaq bu kontekstdə həll oluna bilər.

Müasir təhsil konsepsiyası təlimin inteqrativ məzmununun ardıcıl davam etdirilməsi onun yeni texnologiyalar zəminində mənimsənilməsini lazım bilir. Başqa sözlə, inteqrativ məzmun inteqrativ texnologiyaların olması zərurətini meydana çıxarır. Sinkretik xarakterinə görə dərs bunların içərisində ən vacibi hesab edilir. Akademik M.M. Mehdizadənin təbirincə desək, "Dərs pedaqoji prosesin hüceyrəsi deyil, onun özəyidir, həlledici hissəsidir".

2012-ci ilin dekabr ayında Azərbaycan Prezidenti tərəfindən təsdiq olunmuş "Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası"nda ölkəmizdə aparılan təhsil islahatlarına, onun məzmununda gedən dəyişikliklərə xüsusi qiymət verilir. Göstərilir ki, təhsilin məzmunca yeniləşməsinə istiqamətlənmiş islahat tədbirləri görülmüş, Azərbaycan təhsilinin Avropa təhsil məkanına inteqrasiyası istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

Müasir dünya təcrübəsində inteqrasiya fəndaxili və fənlərarası olur.

Fəndaxili inteqrasiya – müəyyən bir fənn üzrə mövzunun öyrətdiyi anlayış, bilik, bacarıq və vərdişlərin əlaqələndirilməsi, faktların sistemli verilməsidir. Verilmiş material ayrı-ayrı tədris vahidlərində cəmləşdirilir, sonra inteqrasiya tətbiq olunur. Bu da öz növbəsində fənnin məzmun strukturunun dəyişməsini tələb edir. İnteqrasiya olunmuş məzmun informatik baxımdan şagirdlərin daha geniş səviyyələrlə düşünmə bacarıqlarının formalaşmasına yardım edir.

İnteqrasiya prosesində dəyərlər xüsusidən ümumiyə və ümumidən xüsusiyə istiqamətində müəyyənləşdirilə bilər. Bu, fənnin məzmununun aşıladığı bilik və bacarıqların müəyyən məlumatlarla zənginləşərək daha maraqlı hala gəlməsinə səbəb olur. Şagirdlər əvvəldən axıradək diqqəti yayındırmadan problemlə bağlı bilgilərini daha da genişləndirir və dərinləşdirirlər.

Fəndaxili inteqrasiya həm üfüqi, həm də şaquli ola bilər. İbtidai təhsil pilləsində bütün fənlərin, əsasən, eyni müəllim tərəfindən tədrisi inteqrasiyanın bu səviyyəsinin təmin edilməsində başlıca amilə çevrilir. Müəllim mövzuları ardıcıllıqla tədris etməli, hər bir mövzu özündən əvvəlki mövzu ilə əlaqələndirilməlidir. Təlimin məzmununun bu modelə uyğun sistemləşdirilməsi şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazının yaradılması ilə yanaşı, həm də ümumi elmi anlayışlar, kateqoriyalar, yanaşmalarla xarakterizə olunan yeni tip biliklərin formalaşdırılmasına təkan verir. Fərqli fənlərə aid olan oxşar, bir-birini tamamlayan mövzular eyni vaxtda öyrədilir.

Fəndaxili inteqrasiyanın əsas növləri aşağıdakılardır:

- bölmələrarası əlaqə;
- mövzulararası əlaqə;
- anlayışlararası əlaqə.

Bölmələrarası əlaqə bölmələr arasındakı əlaqəni müəyyənləşdirir. Mövzulararası əlaqə eyni bölmənin müxtəlif mövzularını əlaqələndirir. Anlayışlararası əlaqə isə müxtəlif fənlərdən olan anlayışlar arasında mövcuddur.

Fənlərarası inteqrasiya iki və ya daha artıq fənnin əhatə etdiyi anlayış, bilik, bacarıq, vərdiş və prinsiplərin sintezidir. Bu inteqrasiya bir fənnin qanun, nəzəriyyə və metodlarının başqa fənnin öyrədilməsində istifadə olunmasını nəzərdə tutur.

Fənlərarası əlaqələr məşhur pedaqoq-alimlərin (İ.D.Zverev, V.M.Korotod, E.İ.Monoszon, M.N.Skatkin, V.N.Maksimov, Z.Veysova, Y.Ş.Kərimov və b.) tədqiqatlarında həm "üfüqi" həm də "şaquli" istiqamətdə inteqrasiya təlim və tərbiyənin vəhdəti şərti, fənni sisteminə kompleks yanaşma kimi çıxış edir.

Tədris prosesində fənlərarası əlaqənin rolu əhəmiyyətlidir. O, bilavasitə tədrisin öyrətmək, tərbiyələndirmək və inkişaf etdirmək məqsədlərinə nail olmağa təsir göstərir. Bununla yanaşı, fənlərarası əlaqələr şagirdlərin təfəkkürünü formalaşdırır, dünyanı hərəkətdə və inkişafda görməyə, müxtəlif fənnlərin mövzuları arasında məntiqi əlaqələrin qurulmasına imkan yaradır. Onların biliklərindəki formalizmin ləğv edilməsi, qarşısının alınması metodları kimi çıxış edir. Məktəblilərin həddən artıq yüklənmələrinin qarşısını almağa, tədris müddətinin qısaldılmasına, dinamik, keyfiyyətcə dəyişkən biliklər sisteminin formalaşdırılmasına imkan yaradır. Bu əlaqələrin mənimsənilməsində müəllim şagirdlərə kömək göstərir.

K.D.Uşinski yazırdı: "Şagirdin başında sxolastik elmlər deyil, həyata, ətraf aləmə imkan daxilində geniş və işıqlı nöqteyi-nəzəri üzvi surətdə quran, hər hansı bir elmi məlumat verən bilik və ideyalar yerləşdirilməlidir".

Müşahidələr göstərir ki, tədris materialının fənlərarası inteqrasiya yaratmaqla öyrədilməsi əqlin sürətli inkişafına imkan verir.

Fənlərarası inteqrasiya faktik materialın məzmununa, əqli əməyin xarakterinə görə şagirdin fərdi, yaradıcı potensialının inkişafında, gerçəkliyin əsas problemlərini görmə qabiliyyətinə malik olmasında vacib əhəmiyyət kəsb edən idrak fəaliyyətinin elmi cəhətdən qurulmasına imkan verir ki, bu da daim yeniləşən və mürəkkəbləşən məsələlərin həllini bacaran mütəxəssislər hazırlamağa kömək göstərir.

Beləliklə, hərtərəfli fənlərarası əlaqələrin köməyi ilə şagirdlər fənlərin aparıcı ideyalarını öyrənir, nəticədə biliklərin sistemi yaradılır. Elm, incəsənət və təfəkkürün sintezi kimi dünyagörüşü formalaşır. İnteqrasiya təhsil islahatının əsas prinsiplərindən biri olub, təbii əlaqələr prosesində ümumiləşdirilmiş biliklərin verilməsi üçün əlverişli şərait yaradır. Ümumtəhsil məktəblərində fənlərin məzmun və strategiyalarının hazırlanmasında ona istinad olunur. İbtidai təlimdə heç bir fənni bir-birindən təcrid olunmuş şəkildə tədris etmək mümkün deyil. Azərbaycan dili öz məzmunu etibarilə inteqrativ kurs olduğundan onun imkanları daha genişdir. Azərbaycan dili, təlim dili kimi, şagirdlərin müasir dünyada baş verən texnoloji və mədəni dəyişikliklər haqqında araşdırma aparmaq, nəticə çıxarmaq, problemləri həll etmək kimi bacarıqlara yiyələnmələrini zəruri edir. Dil üzrə yeni anlayışların mənimsənilməsi prosesi intensivləşir, digər fənlərə istinad olunan biliklər möhkəmlənir, təlim vaxtına qənaət edilir.

Digər fənlərlə inteqrasiya məzmun və fəaliyyət baxımından uyğun standartlar üzrə aparılır. Müəyyən olunmuş standartların kodları Azərbaycan dili üzrə müvafiq standartların qarşısında qeyd edilir.

Azərbaycan dili fənninin inteqrativ şəkildə tədrisi dərsin daha maraqlı, məzmunlu və düşündürücü olmasına zəmin yaradır. Bu bacarıqlar vərdiş halına keçir və sona qədər davam edir. Oxu ilə yazının inteqrasiyası zamanı şagirdin şifahi və yazılı nitqi inkişaf edir. Məktəbə qədəm qoyan şagirdin aldığı biliklər müşahidə, dinləmə, eşitmə yolu ilə əldə olunur. O, fikirlərini yalnız şifahi şəkildə nümayiş etdirir. Şagirdin söz ehtiyatının zənginləşməsində, nitq bacarıqlarının formalaşmasında gözəl, səlis, rəvan danışıq mühüm rol oynayır. Düşündüyünü danışma bacarı-

ğını inkişaf etdirmək üçün şagirdə stimul verən mühit lazımdır. Onun dediklərinə hörmətlə yanaşılmaq, diqqətlə dinləmək, sərbəst mühakimə yürütmək imkanı yaradılmalıdır.

Təlimin keyfiyyətinin yüksədilməsində inteqrasiyanın rolu böyükdür. O, şagirdlərin bədii təfəkkürünü inkişaf etdirir, yaradıcı fəallığını artırır. İnteqrasiyanın aparılması zərurəti bir neçə səbəbdən yaranmışdır: Əvvəla, şagirdlər tərəfindən ətraf mühit öz müxtəlifliyi ilə bütöv şəkildə dərk edilir. Fənlərin tədrisində isə bəzən həmin hadisələr ayrı-ayrı öyrənildiyindən onlar arasında əlaqə qırılır.

İkincisi, inteqrativ dərslərin forması qeyri-standart olduğundan uşaqlarda böyük maraq yaradır, onları ətrafdakı varlıqları fəal şəkildə dərk etməyə, səbəb-nəticə əlaqələrini tapmağa, yönəldir, məntiqi təfəkkürü, ünsiyyət bacarıqlarını inkişaf etdirir. İnteqrativ dərslər müəllimlərin pedaqoji imkanlarını, yaradıcılıq qabiliyyətlərini aşkara çıxarır. İnteqrasiya materialı öyrənməyə həvəs yaradır, şagirdlərdə söylənilən fikirləri faktlarla əsaslandırmağa, müqayisəetmə, ümumiləşdirmə, nəticəçıxarma bacarıqlarının formalaşmasına imkan yaradır, dərsin hər bir mərhələsi dəqiq təsəvvür olunur.

**ədəbiyyat**


1. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikasının nəzəri problemləri. Bakı: "Nasir", 2005.
2. Kurikulumların hazırlanması və tətbiqi mənbələri. Bakı: "Kövsər", 2008.
3. Nəbiyeva Ş., Abdullayeva G. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası fənnindən mühazirələr. Bakı: "Elm və təhsil ", 2015.
4. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər. Bakı: "Adiloğlu", 2001.
5. Nəbiyeva Ş. Ana dilinin tədrisi metodikasının aktual problemləri. Bakı: ADPU-nun nəşriyyatı , 2010.


**ИНТЕГРАЦИЯ НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА**

**резюме**


В статье говорится о важности и значимости интеграции при преподавании Азербайджанского языка. Отмечается важность межпредметной интеграции для всестороннего развития знаний и умений учащихся. В то же время выделена важность интеграции в учебном процессе в мире.


**INTEGRATION IN THE LESSONS OF AZERBAIJAN LANGUAGE**

**summary**


The article deals with the importance and consideration of integration in the process of teaching Azerbaijan language. It is noted interdisciplinary integration has an important role in getting comprehensive knowledge and skills. At the same time the consideration of integration in the process of teaching in world practice is explained.


# ***AFORİZMLƏR***

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki, zəhər. **(M.Gəncəvi)**

- Faydasız həyat vaxtsız ölümə bərabərdir. **(İ.Höte)**
- Həyatda vaxt öldürmək özünü öldürmək deməkdir. **(C.Pekk)**
- Həyat nə tamaşa, nə də bayramdır. Həyat çətin bir imtahandır. **(C.Santayana)**

Şərəfli ölüm şərəfsiz həyatdan yaxşıdır. **(Q.Təbrizi)**

# KİÇİKYAŞLI UŞAQLARDA NİTQ İNKİŞAFININ LƏNGİMƏSİ SƏBƏBLƏRİ

**Leyla Həsənli ,**
ADPU-nun korreksiyaedici təlimin tədrisi metodika və metodologiyası ixtisası üzrə II kurs magistrantı
E-mail: hasanli.1994@bk.ru



**açar sözlər:** ümumi nitq inkişafının ləngiməsi, leksik struktur, lüğət, tələffüz, leksik-qrammatik quruluş, fonetik-fonematik;
**ключевые слова:** общее недоразвитие речи, лексическая структура, словарь, произношение, лексическо-грамматическая, фонетико-фонематическая структура;
**key words:** general hypoplasia of speech, lexical structure, dictionary, pronunciation, lexical,-grammatical, phonetic-phonemic structure.

İnsanın nitqi ünsiyyət prosesində yaranır və inkişaf edir. Nitq ünsiyyəti vasitəsilə insan zənginləşir və onun fəaliyyəti dolğunlaşır. Nitq dil vasitəsilə həyata keçir. O, kommunikativ funksiyanın əsasını təşkil edir. Buna görə də nitq ünsiyyətindən tam və geniş istifadə etmək üçün uşaqlarda zəngin lüğət ehtiyatına, düzgün leksik-qrammatik quruluşa, aydın, obrazlı tələffüzə malik nitq vərdişləri tərbiyələndirilməlidir.

Nitq normal inkişaf edərsə, uşaqlar 5 yaşda geniş, ibarəli nitqdən, müxtəlif quruluşlu mürəkkəb cümlələrdən sərbəst istifadə etməyi bacararlar. Onların lüğət ehtiyatı yaş səviyyələrinə uyğun inkişaf edir. Nitqin normal inkişafı zamanı uşaqlarda nitq səslərinin düzgün tələffüzü, təhlil-tərkibi yaranır, lakin ümumi nitq inkişafında ləngimə zamanı nitqin səs və məna komponentlərinin formalaşması pozulur. Eşitmənin və nitqin normal inkişaf etməsinə baxmayaraq, ÜNİL (ümumi nitq inkişafında ləngimə) uşaqlarda nitqin gecikməsi, söz ehtiyatının azlığı, səs tələffüzünün pozulması, fonematik qavramanın inkişafdan qalması, aqrammatizm kimi pozulmalar müşahidə olunur.Bəzi uşaqlarda eşitmə və intellekt normal olduğu halda, nitq komponentlərinin formalaşması kəskin şəkildə pozulur. Pozulmalar özünü daha çox nitqin fonetika, leksika, qrammatika bölmələrində göstərir. Bu pozulmalar ilk dəfə R.E.Levina tərəfindən müəyyən edilmiş və "nitqin ümumi inkişafının ləngiməsi"adlandırılmışdır. [2, səh.45]

Ümumi nitq inkişafı ləngiməsi müxtəlif dərəcələrdə təzahür edə bilər. Birinci və ikinci dərəcə nitqin ağır formada inkişafdan qalması ilə xarakterizə edilir. Üçüncü dərəcə isə daha yüngül hesab olunur və bu zaman uşağın tələffüzündə, lüğət ehtiyatında, nitqin qrammatik quruluşunda yüngül qüsurlar müşahidə edilir.

**Birincidərəcəli nitq inkişafının ləngiməsi** nitqin ünsiyyət vasitələrinin son dərəcə məhdudluğu ilə xarakterizə edilir. Bu dərəcəyə daxil olan uşaqlar anlaşılmaz sözlərdən, səs təqlidindən, səs tərtibatı pozulmuş məişət məzmunlu isim və feillərdən, yarımçıq cümlələrdən istifadə edirlər. Nitqin bu dərəcəsini daha çox əqli cəhətdən geri qalmış uşaqlarda müşahidə etmək olar, lakin birincidərəcəli nitq inkişafı ləngiməsi olan uşaqları bir sıra əlamətlərinə görə oliqofren uşaqlardan fərqləndirmək mümkündür. Bu, ilk növbədə qeyri-fəal lüğətin fəal lüğətdən xeyli zəngin olmasında özünü göstərir. Oliqofren uşaqlarda isə bu göstəricilər müşahidə olunmur. Oliqofren uşaqlardan fərqli olaraq, ümumi nitq inkişafı ləngiməsi olan uşaqlar öz fikirlərini ifadə etmək üçün diferensiallaşmış jestlərdən və ifadəli mimikadan geniş istifadə edirlər. Onlar üçün bir tərəfdən ünsiyyət prosesində nitq axtarışına yüksək təşəbbüskarlıq göstərmək, digər tə-

rəfdən isə öz nitqinə tənqidi yanaşma xarakterikdir. Fəal söz ehtiyatının məhdudluğu o halda müşahidə olunur ki, uşaq anlaşılmaz sözlə və ya səs birləşməsi ilə bir neçə müxtəlif anlayış ifadə edir. Eyni zamanda hadisəni əşyanın adı ilə və ya əksinə əşyanın adını hadisə ilə əvəzləndirir. Bu uşaqlar üçün xarakterik hallardan biri də təksözlü cümlələrdən istifadə etməkdir.

**İkincidərəcəli nitq inkişafı ləngiməsi.** Bu dərəcəyə keçid uşağın nitqinin fəallığı ilə xarakterizə edilir. Ünsiyyət, jest və anlaşılmaz sözlərdən başqa hamı tərəfindən istifadə edilən sözlər təhrif olunmuş şəkildə deyilir. Bəzi qrammatik normalar fərqləndirilmiş şəkildə ifadə edilir. Bu proses dəyişkən xarakterli olur və uşaqda nitqin inkişafdan qalması ilə nəticələnir. Belə ki, uşaqların nitqi ləng inkişaf edir, onlar yalnız qavradıqları əşyaların və hadisələrin adlarını sadalamaqla kifayətlənirlər.Nitqin ləngliyi bütün komponentlərdə özünü göstərir. Uşaqlar təsadüfi hallarda dörd sözdən ibarət sadə cümlələrdən istifadə edirlər. Onların lüğət ehtiyatı yaş səviyyələrindən xeyli geri qalır. Belə uşaqlar üçün forma, miqdar, cins və hal kateqoriyaları diferensial xarakter daşımır. Sözlərin ifadə olunması təsadüfi xarakterə malikdir. Odur ki, onlar tələffüzdə çoxsaylı səhvlərə yol verirlər.

**Üçüncüdərəcəli nitq inkişafı ləngiməsi** səviyyəsi özündə kifayət qədər inkişaf etmiş kobud fonetik və leksik-qrammatik qüsurları olmayan, lakin fonetik, leksik, qrammatik cəhətdən ayrı-ayrı nöqsanlara malik nitqi əks etdirir. Belə nitq qüsurları olan uşaqlarda səsin düzgün tələffüzünü formalaşdırmaq üçün nitq aparatının uyğunlaşdırılmış, dəqiq, incə hərəkətləri lazımi səviyyədə inkişaf etdirilməlidir. Nitq inkişafının bu səviyyəsində leksik-qrammatik və fonetik-fonematik inkişafdan qalma elementləri olan, geniş frazalı nitq xarakterikdir. Bu dərəcəli nitqə malik olan uşaqların tələffüz etdikləri səslər sərbəst ünsiyyət zamanı aydın səslənmir. Onlar üçün səslərin fərqləndirilmiş tələffüzü xarakterikdir. Səs eyni vaxtda bir fonetik qrupa daxil olan iki və ya daha çox səsi əvəz edir, məsələn, ***s*** səsi eyni vaxtda ***ş, ç, z*** səslərini əvəz edir: ***sarı-şarı; çay-say; səki-Zəki*** və s.

Normal intellektə və qavramaya malik olan uşaqlarda ümumi nitq inkişafının ləngiməsi dedikdə, nitqin fonetik-fonematik, leksik-qrammatik cəhətdən pozulması nəzərdə tutulur. Bu zaman nitqin məna və tələffüz cəhətdən pozulmasını qeyd etmək mümkündür. Kiçikyaşlı şagirdlərdə nitq ləngiməsi müxtəlif səviyyələrdə özünü göstərir. Bu səviyyəyə nitqin leksik-qrammatik və fonetik-fonematik pozulmalarından başlayaraq nitqin tam inkişafdan qalmasına qədər olan səviyyəni göstərmək olar. [3, səh.38]

Kiçikyaşlı ÜNİL uşaqların inkişaf dinamikası normal inkişaf etmiş həmyaşıdlarından spesifik xüsusiyyətləri ilə seçilir. Belə ki, onlar tapşırıqların icrası prosesində, zaman-məkan parametrlərindən istifadədə, hərəkət elementlərinin ardıcıllığında səhvlərə yol verirlər, məsələn, topu bir əlindən digər əlinə ötürdükdə, topu yaxın məsafəyə atdıqda, sağ və sol ayaqla hoppananda, musiqi sədası altında ritmik hərəkətlər edərkən çətinliklərlə qarşılaşırlar. [4, səh.62]

Uşaqların nitq inkişafında müşahidə olunan bu ləngimələr oxu və yazı təlimində də ciddi maneələr yaradır. Bu uşaqlar yazı zamanı hərfləri buraxmaqla yanaşı, şəkilçilərdən də düzgün istifadə etmirlər, məsələn: *Mən məktəb aparıram; Ata ev gəldi; Mən bağça gedirəm* və s.

Ümumi nitq inkişafından danışarkən nitq funksiyasının mürəkkəb quruluşunu əks etdirərək, onun səs (fonasiya), tələffüz tərəfinin, fonematik proseslərini, leksik və qrammatik quruluşunun inkişafı nəzərdə tutulur. Nitq qüsurları nitqin müxtəlif komponentlərinə toxuna bilər. Bəzi qüsurlar yalnız tələffüz proseslərinə toxunub, heç bir müşayiətedici hallar olmadan nitqin aydınlığında əks olunur. Digər qüsurlar dilin fonematik sisteminə toxunaraq yalnız tələffüz qüsurları deyil, həmçinin oxu və yazı pozulmaları, sözün səs tərkibinə yiyələnmədə çətinliklər yaradır. Daha mürəkkəb nitq qüsurları dilin həm fonetik-fonematik, həm də leksik-qrammatik cəhətlərini əhatə edir. Beləliklə, nitqin ümumi inkişafının ləngiməsi (ÜNİL) meydana gəlir.

**ədəbiyyat**

1. Ağayeva T., Əliyeva C.M. Loqopediyanın nəzəri-praktik məsələləri. Bakı,1999.

2. Левина Р.Е. Основы теории и практики логопедии. Москва: «Владос», 2003.
3. Волкова Л.С., Шаховская С.Н. Логопедия. Москва: «Просвещение», 2003.
4. Левина Р.Е. Воспитание правильной речи у детей. Москва: «Юнити», 2001.
5. Спирова Л.Ф., Шуйфер Р.И. Общие методические положения по обучению грамоте детей с недоразвитием речи. // «Логопедия». Методическое наследие. /Под ред. Л.С.Волковой. Книга V. Фонетико-фонематическое и общее недоразвитие речи. Москва, 2003.
6. Спирова Л.Ф. Особенности развития связной речи у детей с ее общим недоразвитием. Москва: «Оникс», 2004.

**Общее недоразвитие речи у детей младшего возраста**
**резюме**

В статье говорится об общей недоразвитии речи (ОНР) наблюдаемой у детей младшего возраста. Отмечается, что при общем недоразвитии речи нарушается формирование компонентов звуковой и смысловой стороны речевой системы. У детей наблюдаются задержка в речи, отсутствие словарного запаса, аграмматизм, задержка в развитии произношения и фонематики.

**General underdevelopment of speech of young children**
**summary**

The article refers to the general hypoplasia of speech (OGR) observed in young children. With the general underdevelopment of speech, the formation of components of the sound and the semantic side of the speech system is disrupted. Children have a delay in speech, lack of vocabulary, agrammatism, delay in the development of pronunciation and phonematics.

## HİKMƏTLİ SÖZLƏR

Tolerantlıq sözü mənim xoşuma gəlmir, lakin mən bundan yaxşı söz tanımıram. **(Mahatma Qandi)**

• Haqqı hər zaman müdafiə et! Anlayan olmasa belə, vicdanına hesab verməkdən xilas olarsan. **(Herbert Uells)**

Hər bir gözəllikdə pislik axtaranlar korlanmış insanlardır – bu, günahdır. Hər bir gözəllikdə onun yüksək mənasını görənlər mədəni insanlardır. Əsl insan gözəllikdə gözəlliyi görməyi bacaranlardır. **(Oskar Uayld)**

Azadlıq ifrat dərəcəyə çatdıqda anarxiyaya çevrilir. **(M.Qandi)**

• Sənin qəbahətlərini üzünə deyən düşmən bunları gizlədən dostdan yaxşıdır.

**(Sokrat)**

Yaxşı geyinmiş axmaq məclisdə ağzını açana qədər parlayacaq.
**(qədim hind aforizmi)**

• Başqalarının səhvlərindən dərs almağı bacaran insan xoşbəxtdir. **(T.Fontane)**

• Bu həyat təkcə bizim deyil. Bu həqiqəti anlayıb, başqalarına ziyan vermədən yaşamağı öyrənməliyik. **(Z. Freyd)**

# MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ TƏRBİYƏ ÜZRƏ İŞİN MƏZMUNU

**Vaqif Kərimov,**
ARTİ-nin Müəllim hazırlığı kurikulumu şöbəsinin aparıcı
elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: k.vagif@rambler.ru

**açar sözlər:** məktəbəqədər müəssisə, tərbiyə işi, tərbiyəçi, uşaq, valideyn, ailə, adət-ənənələr, böyüklərə hörmət, humanizm tərbiyəsi, vətənpərvərlik tərbiyəsi, ekoloji tərbiyə, canlılara qayğı, küçədə davranış qaydaları;

**ключевые слова:** дошкольное образование, воспитание, воспитатель, ребенок, родитель, семья, традиции, уважение к взрослым, воспитание гуманизма, патриотическое воспитание, экологическое воспитание, уход за животными, правила поведения на улице;

**key words:** pre-school education, upbringing, educator, child, parent, family, traditions, respect for adults, education of humanism, patriotic education, environmental education, caring for animals, rules of conduct on the street.



Məktəbəqədər müəssisələrdə tərbiyəvi işlərin növləri rəngarəngdir. Onlardan bir neçəsini nəzərdən keçirək. Hər şeydən əvvəl, insanın formalaşmasında mühüm rol oynayan adət və ənənələrdir.

**adət və ənənələr:** Təcrübə göstərir ki, milli adət-ənənələrə əməl etməyən, onu qorumayan adam həmin xalqın nümayəndəsi olmaqdan uzaqdır.

Pedaqoq və psixoloqların qarşısında uşaqların tərbiyəsi prosesində mütərəqqi adət və ənənələrin rolunu yüksək qiymətləndirmək, onları dəqiq öyrənib ümumiləşdirmək, yaymaq vəzifəsi durur. Adət və ənənələrə milli adət-ənənələr, Vətəni müdafiə ənənələri, qarşılıqlı münasibətlərdə ənənələr, əmək ənənələri, oyun, istirahət ənənələri və s.daxildir. Onların içərisində ailə adət və ənənələri özünəməxsus yer tutur. Bu, cəmiyyətin həyatında ailənin tutduğu yerlə ifadə olunur. Ailənin inkişafı cəmiyyətdən asılıdır, lakin ilkin özək olan ailə də öz növbəsində təbii bioloji, maddi və mənəvi funksiyaları yerinə yetirir. Bununla da o, cəmiyyət üçün həm təsərrüfat və tərbiyə sahəsinə, həm də təbii insan artımı mənbəyinə çevrilir.

Uşaqlar həyata gözlərini açanda ilk dəfə ailəni görür, onun qayda-qanunlarını yerinə yetirməyə məruz qalırlar. Onların gələcək fəaliyyətləri bu təməlin necə qoyulmasından asılı olur. Ata-ananın qarşılıqlı əlaqələri, cəmiyyətə bəslədikləri münasibətlər adət-ənənələrdə ifadə olunur. Adət və ənənələr müəyyən tarixi dövrdə ailənin maddi-mənəvi tələbatlından doğan, onun üzvlərinin rəğbətini qazanan, müntəzəm təkrar olunan, hamı tərəfindən qorunub saxlanan, gənc nəslə ötürülən fəaliyyət formaları, davranış qaydaları və əxlaq normalarının məcmusudur.

Ailədə adət-ənənələrin təsiri haqqında uşaqların psixi xüsusiyyətləri, şüuru, əxlaqi siması formalaşır. Yaxşı adət-ənənələri olan ailələrdə valideynlər olmayanda da hər şey öz qaydası ilə gedir. Rejim istər-istəməz saxlanır.

**böyüklərə hörmət:** Tarixən yaşlı insanlar təcrübəli, bilikli, ağıllı hesab olunurlar. Böyük gələrkən hörmət əlaməti olaraq ayağa qalxmaq, onunla salamlaşmaq, ona yer göstərmək, danışarkən sözünü kəsməmək, onun yanında yüksəkdən danışmamaq, bir iş buyurduqda "baş üstə" deyərək əməl etmək, lazım gələrsə, yeməkdən əvvəl və sonra ləyən gətirərək, böyüklərin əllərini yumalarını təmin etmək tarixi adət-ənənələrdir. Uşaqlar bilirlər ki, böyük stolun başında əyləşməli, hamıya məsləhət verməlidir. Böyüklərə hörmət ata-anaya hörmətdən başlayır. Uşaqlar ata-ana, baba-nənənin timsalında digər ağsaqqal və ağbirçəklərin də hörmətini

saxlayırlar. Onlar böyüyün hər hansı işə görə narazı qaldığını gördükdə səhvlərini düzəltməlidirlər.

**humanizm tərbiyəsi:** Məktəbəqədər yaşlı uşaqların şəxsiyyət kimi formalaşmalarında humanizm hissinin möhkəmləndirilməsinin əhəmiyyəti böyükdür. Humanizm yaşından, qohumluq dərəcəsindən, qonşu, dost olub-olmamasından, ondan xeyir görüb-görməməsindən asılı olmayaraq insanlara xeyirxahlıq, qarşılıqlı hörmət, qayğıkeşlik göstərmək, insaflı, hər bir halda rəhmli olmaq deməkdir. Uşaqlara humanizm hisslərinin aşılanmasında onların fərdi xüsusiyyətlərinin nəzərə alınması çox vacibdir. Humanist hisslərə malik insanlar həyat hadisələrinə münasibətdə həssas olurlar. Ailədə, məktəbəqədər müəssisələrdə elə mühit yaradılmalıdır ki, uşaq yaxşını pisdən seçə bilsin. Tərbiyəçi uşaqları səbrlə, diqqətlə, hərtərəfli öyrənməlidir. Bunun üçün o,valideynlərlə sıx əlaqə saxlamalı, uşağın ailədə kimə necə münasibət bəslədiyini bilməlidir. Uşaqlar yoldaşlarına, digər insanlara humanist hisslər bəsləməklə yanaşı, onların qayğılarına qalmağı bacarmalıdırlar.

Tərbiyəçinin humanizmi uşaqlara da sirayət edir. O, uşaqlara xeyirxahlıq, nəciblik, humanizm hissləri aşılayan kiçikhəcmli bədii əsərlər oxumalı, onların maraqlı filmləri izləmələrini, musiqi əsərlərini dinləmələrini təmin etməli, bəyəndikləri qəhrəmanlara bənzəmələri, həmin şəxsləri təqlid etmələri qayğısına qalmalıdır. O, uşaqlarla birlikdə tez-tez qocalara, xəstələrə, şəhid ailələrinə baş çəkməli, bununla da humanizm hisslərini gücləndirməlidirlər.

Bədii əsərlərin təsiri ilə əsəbilik, xəstəlik, yuxunun pozulması onların xasiyyətlərinin dəyişməsinə səbəb olur. Belə uşaqlarda hörmət, qayğıkeşlik, xeyirxahlıq hissləri arxa plana keçir.

Tərbiyə prosesində körpələrə qayğı xüsusi əhəmiyyət kəsb edir. Ailədə bu sahədə iş, əsasən, normal təşkil olunur. Məktəbəqədər müəssisələrdə isə onlara qayğı, təbii olaraq, tərbiyəçilərin üzərinə düşür.Tərbiyəçi hər bir uşağa öz övladı kimi yanaşmalıdır.

Uşaqların ailə tərbiyəsinə etnopsixoloji amillər güclü təsir göstərir. Bu məqsədlə ilk növbədə ailədə normal psixoloji mühit yaradılmalıdır. Ər-arvad,valideyn-uşaq münasibətlərinin pozulması ailənin psixoloji iqliminə mənfi təsir göstərir. Ailədə məişət birliyi olmalıdır. Ailə adət-ənənələri, dini inanc və əqidələr, yaşayış şəraiti,daxili münasibətlər və s. bunu təmin edir. Valideyn-övlad münasibətlərindəki psixoloji iqlim onun strukturundan, qohumlara münasibətin xarakterindən asılıdır. Valideynlər ömürlərini övladlarının xoşbəxtliyi naminə qurban verməyə hazır olurlar. Görəsən, məktəbəqədər yaşlı uşaqların hamısı bunu hiss edirlərmi? Müşahidələr göstərir ki, uşaqların bir çoxu valideynlərin qayğılarını, demək olar ki, hiss etmirlər. Bəziləri isə belə başa düşürlər ki, bu, valideynlərin borcudur. Onlar valideynlərdən daha böyük şeylər iddia edir, qayğı gözləyirlər.

Məktəbə getməyə hazırlaşan uşaqlarda bir qədər qeyri-müəyyənlik özünü göstərir. Bəzən onların valideynlərin hərəkətlərindən razı qalmaları hiss olunmur. Halbuki, onlar bu xidməti yüksək qiymətləndirməli, valideynlərinə xoş münasibət göstərməlidirlər. Onlar da övladlıq borcunu şərəflə yerinə yetirmək istədiklərini büruzə verməlidirlər. Belə münasibət hər iki tərəfin səadət və xoşbəxtliyindən, qəlb rahatlığından xəbər verir.

Anlaşılmazlıq üzündən kəskinləşən valideyn-övlad münasibətləri ailə üzvlərinə, qohumlara, dostlara ciddi təsir göstərir. Bəzən uşağın bacı və qardaşları, dostları ilə münaqişəyə girişməsi valideynləri çıxılmaz vəziyyətdə qoyur. Onlar hansı tərəfə üstünlük verəcəkləri haqqında nəticəyə gələ bilmirlər. Bu isə müsbət psixoloji iqlimə, sağlam duruma ciddi təsir göstərir. Bunların nəzərə alınmaması uşaqların fəaliyyətinə, inkişafına mənfi təsir göstərir. Məktəbdə oxuyarkən bəzi uşaqların ailədən çıxıb getmələri, az da olsa, intihar halları baş verir. Ona görə də müsbət psixoloji iqlim ailə üçün həyati əhəmiyyətə malikdir. Əlverişli psixoloji iqlim xoş güzəran, mənalı ömür, sağlamlıq deməkdir.

Valideyn-övlad münasibətlərində müsbət və mənfi emosional çalarlar ilk növbədə bilavasitə ana ilə bağlıdır. O, insani münasibətləri daha yaxşı başa düşür, məharətlə yerinə yetirir. Vali-

deyn-övlad münasibətlərində yaradıcılıq mexanizminin təmin edilməsi körpələrə müsbət təsir göstərir. Onların yaradıcılıq fəaliyyətinə qoşulmaları neqativ cəhətləri unutmalarına, stress hallardan uzaqlaşmalarına, müsbət nəticələri gördükdə rahat nəfəs almalarına şərait yaradır.

Hazırda valideyn–uşaq, tərbiyəçi–uşaq münasibətləri o qədər də ürəkaçan deyil. 5–6 yaşlı uşaqlar daha çox müstəqillik istəyir, tərbiyəçilər isə bunu intizamın pozulması mənbəyi hesab edirlər. Ünsiyyət prosesində bərabərlik yoxdur. Tərbiyəçi adət-ənənələrimizlə əlaqədar uşağa ifrat qəyyumluğu, onların böyüklər qarşısında qeyd-şərtsiz itaətkarlığını mənfi hal kimi qəbul edirsə, sərbəstliyə geniş yer verməlidir.

**Vətənpərvərlik tərbiyəsi.** Valideynlər özləri də hiss etmədən vətənpərvərlik hissini uşağa 2–3 yaşından aşılamalı olurlar. Vətən uşağın doğulduğu, ana laylasını eşitdiyi yerdən başlayır. Uşaqlar vətəni tədricən tanıyır, çox sevirlər. Beləliklə, vətənpərvərlik hissinin tərbiyəsi vətəndaş yetişdirməyə xidmət edir. Uşaqlarda doğma Vətənə məhəbbət, sədaqət, milli adət-ənənələrə hörmət tərbiyə olunmalıdır. “Torpaq, uğrunda ölən varsa, vətəndir!” fikri onlara başa salınmalıdır.

Kiçikyaşlı uşaqları gəzintiyə apararkən onlara yaşadıqları yerdə təbiətin gözəlliklərini görmək, başa düşmək, qorumaq öyrədilməlidir. Uşaqlar ətrafdakı insanları müşahidə edir, onlara oxşamağa çalışırlar. Ona görə də valideynlər, tərbiyəçilər öz davranışları, əməlləri ilə uşaqlara nümunə olmalıdırlar. Roma filosofu Seneka demişdir: “Nəsihətlərlə tərbiyə çətin, nümunələrlə tərbiyə asandır”. Bu məqsədlə sərgilərin təşkili vacibdir. Sərgilərdə fotolar, illüstrasiyalarla yanaşı, milli geyimlər, qədim qablar, sənət əsərləri nümayiş etdirilməlidir. Onlar ölkəmizin təbii sərvətləri (neft, qaz, qızıl, dəmir mədənləri, müalicəvi suları, taxıl, ipək istehsalı, meyvə bağları və s.) haqqında məlumatlarla tanış olmalıdırlar.

Uşaqların Vətənin müdafiəsi, onu qoruyan müxtəlif ordu hissələri (sərhədçilər, təyyarəçilər, dənizçilər və b.) haqqında təsəvvürləri olmalıdır. Onlar vətəni müdafiə etmək, yeri gəldikdə canlarından keçməyə hazır olmaq ruhunda tərbiyə edilməlidirlər.

Uşaqlarda Vətənə məhəbbət tərbiyə edərkən onlara ilkin komponentləri mənimsətmək lazımdır. Onlar hələ 5–6 yaşında Vətənimizin bir hissəsinin – Qarabağın ermənilər tərəfindən vəhşicəsinə zəbt olunduğunu bilməli, cəbhədə milli qəhrəmanlarımızın şücaəti, həmçinin dünya şöhrətli azərbaycanlı elm xadimlərinin, fəaliyyəti ilə tanış olmalıdırlar.

Vətənpərvərlik çox böyük təsir gücünə malik bir hiss kimi dövlətimizə sədaqətdə, onun güclənməsi, inkişafı və müdafiəsi yolunda canından keçməyə hazır olmaqda özünü göstərir. Valideyn, tərbiyəçi gələcək nəsli tərbiyə edərkən uşaqlara vətənpərvərlik hissinin aşılanmasına xüsusi diqqət yetirməlidirlər.

Müşahidələr göstərir ki, gənc nəslin Vətənpərvərlik tərbiyəsində tərbiyəçilər görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətinə əsaslanmalıdırlar. Ulu öndərimiz 1996-cı il, fevral ayının 2-də Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumundakı nitqində demişdir: “Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməli və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən, fəaliyyətə başlayıb, onu davam etdirərkən özü haqqında düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”. Daha sonra o demişdir: “Vətənpərvərlik böyük bir məfhumdur. Onun bir çox komponentləri vardır. Bu komponentlər sırasına Vətəni sevmək, Vətənə sadiq olmaq, torpağa bağlı olmaq, milli dəyərləri yaxşı bilmək, dilimizi yaxşı bilmək, mədəni irsi qiymətləndirmək və qoruyub saxlamaq, orduda xidmət etmək və s. daxildir. Bu komponentlər içərisində Vətəni sevmək, Vətən torpağına bağlı olmaq mühüm yer tutur”.

**oyun:** Vətənpərvərlik tərbiyəsində məktəbəqədər yaşlı uşaqların əsas fəaliyyət növü olan oyun mühüm əhəmiyyətə malik olmaqla, onlarda nəcib əxlaqi sifətlər, yüksək mənəvi keyfiyyətlər tərbiyə edir.

A.S.Makarenko demişdir: "Uşaq oyunda necədirsə, böyüyəndən sonra işində də bir çox cəhətdən elə olacaqdır". Professor Y.Talıbov yazmışdır ki, oyunsuz uşaq həyatı yoxdur. Oyun uşaqları maneələri dəf etməyə alışdırır, onlara mübarizlik, qorxmazlıq kimi əxlaqi keyfiyyətlər aşılayır. Bu, onlarda gələcəkdə doğma Azərbaycanı yadellilərdən qorumaq, Vətənin mənafeyini öz mənafeyindən üstün tutmaq kimi hisslər tərbiyə edir.

Uşaqlar hərbi oyunları, oyuncaqları çox sevirlər. Hərbi oyuncaqlar olmadıqda onlar taxtadan, dəmirdən tüfəngə, tapançaya oxşar oyuncaqlar düzəldib "döyüşlər" keçirirlər. 5–6 yaşlı uşaqları elə oyunlara cəlb etmək lazımdır ki, onlarda Vətənə məhəbbət hissi tərbiyə edə bilsin. Bu baxımdan "Bayrağa kim tez çatar?" oyunu çox maraqlıdır. Bu prosesdə uşaqlar tərbiyəçinin köməyi ilə öyrənirlər ki, bayraq dövlətimizin rəmzidir və müqəddəsdir. Onlar qaçaraq bayrağa tez çatmaq, onu qorumaq istəyirlər ki, o,"düşmən" əlinə keçməsin."Sərhədçilər və casuslar"oyunu da uşaqlarda maraq doğurur. "Sərhədçilər" sərhəd qərargahı düzəldib, oyuncaq tüfəng və avtomatlarla onu qoruyurlar. Onlar bilirlər ki, sərhəd xəttində işıq yanıbsa, deməli, "sərhədpozanlar" məftilə toxunmuşlar, hənirti eşidilirsə, deməli "casuslar" təxribat aparmaq üçün "sərhədi" keçməyə çalışırlar. Onları tutan "sərhədçi" uşaqların "hərbi rütbələri" yüksəldilir.

Uşaqlar "Kəşfiyyatçılar","Sərhədçilər", "Səngərdə", "Hücum", "Müharibə" oyunları prosesində çox şey öyrənirlər. Bu prosesdə onlarda Vətənə sədaqət, əsgəri borc haqqında təsəvvürlər zənginləşir, başa düşürlər ki, Vətəni qorumaq üçün idmanla məşğul olmaq lazımdır. Onlara məlum olur ki, sülhün keşiyində durmaq, Vətənin müdafiəsi ancaq sağlam, güclü, çətinliklərdən qorxmayanların işidir.

Hərbi formaların şəkillərinin təqdimatı, onların kimə məxsus olmasını müəyyənləşdirmək uşaqların məlumatını artırır. Onlar hansı paltarın əsgərə, komandirə, dənizçiyə, təyyarəçiyə aid olduğunu deyir, fəaliyyətlərini öyrənirlər.

**ekoloji tərbiyə:**Yer üzündə ekoloji tarazlığın təmin edilməsi müasir dövrün ən aktual problemlərindəndir. Təbii sərvətlərdən istifadə insanların mənafeyini güdməklə yanaşı, tarazlığın gözlənilməsini də təmin etməlidir.Təbiətə düzgün münasibət erkən yaşlardan tərbiyə olunmalıdır. Uşağın təbiətlə ünsiyyətdə olması onun həyatına emosional rəng verir. Bu prosesdə uşaq özünü, başqalarını daha yaxşı dərk edir. Uşaqda canlılara mərhəmətlə yanaşmaq, onların qayğısına qalmaq arzusu yaranır.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsində onların yaş xüsusiyyətləri nəzərə alınmalıdır. 5–6 yaşlı uşaqlar ekoloji tərbiyə haqqında müəyyən təsəvvürlərə malik olmalı, təbiətdə baş verən hadisələr arasında səbəb-nəticə əlaqələrini aşkar edə bilməlidirlər.

Ekoloji tərbiyə ilk növbədə uşaqların canlı və cansız təbiət haqqında biliklərə yiyələnmələrini tələb edir. Tərbiyəçi bu sahədə zəngin, dəqiq biliklərə nail olmalı, ekoloji tərbiyə üzrə işi düzgün qurmalıdır.

Məktəbəqədər müəssisələrdə ekoloji tərbiyəni başqa məşğələlərlə inteqrasiya prosesində, müşahidələr, ekskursiyalar, əmək fəaliyyəti, didaktik, süjetli-rollu oyunlar təşkil olunarkən, bədii ədəbiyyat nümunələri oxunarkən, televiziya verilişlərinə və videofilmlərə baxış, müstəqil fəaliyyət zamanı həyata keçirmək mümkündür.

Qruplarda canlı təbiət guşələri yaradılmalı, orada müxtəlif heyvanlar, akvariumlarda balıqlar saxlanılmalıdır. Uşaqlar onları qorumağa, bəsləməyə cəlb olunmalıdırlar.

Məktəbəqədər müəssisələrdə təbiət otağı da yaradılmalıdır. Otaqda canlı və cansız təbiətə aid nümunələr, onlara qulluğa aid əşyalar olmalıdır. Qrup otağındakı təbiət guşəsi, bağçanın sahəsindəki ağaclar, güllük, dərman bitkiləri əkilmiş ləklər ekoloji tərbiyə üzrə inkişafetdirici mühit ola bilər.

Uşaqlara düzgün məlumatın verilməsi üçün müvafiq qurumlardan, mərkəzlərdən ekoloqlar dəvət etmək məsləhət görülür. Onlar uşaqlarla maraqlı müşahidələr, əyləncələr, ekoloji təcrübələr təşkil edirlər.

Uşaqlarda təbiətdən səmərəli istifadə mədəniyyəti formalaşdırmaq üçün "İçməli su", "Faydalı tərəvəzlər", "Evimizdə enerji" mövzularında məşğələlər keçirmək məqsədəuyğundur. Uşaqlar su, qum, gil, torpaq kimi təbii materialların, havanın yaşadıqları mühitin komponentləri olduğunu bilməlidirlər. Tərbiyəçi bununla kifayətlənməməli, ətraf mühitə gəzintilər, ekskursiyalar da təşkil etməlidir. O, tibb işçiləri ilə birgə uşaqların orqanizmlərinin möhkəmləndirilməsi tədbirlərini həyata keçirməli, təbiətlə bağlı oyunlar təşkil etməlidir. Bütün bunlarla əlaqədar valideynlər əsaslı şəkildə maarifləndirilməlidirlər.

**canlılar aləminə qayğı tərbiyəsi:** Canlılar aləminin ən zəkalı,yetkin nümayəndəsi insandır. Həyat təcrübəsi göstərir ki, təbiətin özünəməxsus ümumi xüsusiyyətləri var və insanlar onu qorumalıdırlar.

Bitkilər istisna olmaqla, bütün canlılar ümumi həyat tərzinə malikdir. Canlılar ilk növbədə öz canlarını, varlıqlarını müdafiə edirlər. Uşaqlar öz həyat tərzlərinə münasib şərait tapmağa, ona uyğun yaşamağa çalışırlar. Canlıların hamısı təbiət hadisələrindən mühafizə olunurlar.

Yağış, qar, dolu, güclü külək, qızmar günəş, bir sözlə – isti və soyuq canlılara ciddi təsir göstərir. Ona görə də onlar bu hadisələrdən qorunurlar.

Canlıların hamısı özlərindən güclü canlılardan qorunurlar. Bəzən kiçik bir canlı böyüklər üçün təhlükə mənbəyi olur, amma onlar da qorunurlar. Belə bir xüsusiyyət əqlin, düşüncənin yalnız insana deyil, canlılara da aid olduğunu göstərir.

Yalnız minik üçün istifadə olunan, ətindən, yunundan, yumurtasından istifadə edilən canlıları deyil, zərərli heyvanları da qorumağın vacibliyi uşaqlara çatdırılmalıdır. Onlar bilməlidirlər ki, pələngi, aslanı, canavarı, tülkünü də məhv etmək olmaz. Bunu bilmək uşaqlarda canlılara məhəbbət hissi tərbiyə edir. Ev heyvanlarına (at, eşşək, öküz, camış, dəvə, it, pişik və s.) qayğı ilə yanaşmaq, onları yemləmək, məhv olmalarına yol verməmək, xüsusi damlarda, qəfəslərdə, hovuzlarda, akvariumlarda saxlamaq, qorumaq uşaqlara ibrət dərsidir. Yaşlıların etdiklərini onlar da yerinə yetirirlər.

Uşaqlar bilməlidirlər ki, canlılar da insan kimi öz övladlarını qoruyur, onların inkişafı qayğısına qalır. Bütün bunlarla yanaşı, uşaqlar bəzi canlıların (bəzi quşlar, kirpi və s.) zərərli həşəratları məhv etməklə insanlara xeyir verdiklərini öyrəndikdə onlarda heyvanlara məhəbbət hissi daha da güclənir. Əgər uşaqlarda heyvanlara düzgün münasibət tərbiyə edilərsə, şübhəsiz, insanlara da normal münasibət tərbiyə olunar.

Uşaqlar öyrənirlər ki, ekoloji cəhətdən təmiz məhsullar sağlam həyat tərzini təmin edir. Bütün bunlar uşaqlarda təbiəti çirkləndirməmək, ağaclar, bitkilər olan yerdə ocaq yandırmamaq, onları sındırmamaq, gülləri, çiçəkləri məhv etməmək və s. xüsusiyyətlər tərbiyə edir.

**küçədə davranış qaydaları:** Kiçikyaşlılara küçədə davranış qaydaları da öyrədilməlidir. Bu prosesdə bir sıra tərbiyəvi məqamlar diqqəti cəlb edir. Küçədə davranış qaydalarına əməl etmək həmişə insana lazım olacaqdır. Kiçikyaşlı uşaqlar küçəyə tək buraxılmamalı, daim nəzarət altında olmalıdırlar. Xüsusilə şəhərlərdə valideynlər, yaşlılar, tərbiyəçilər onlara yol hərəkəti qaydaları haqqında məlumat verməlidirlər. Uşaq yolu keçərkən əlində yük, oyuncaq olmamalıdır. Oyuncaq əldən düşə və uşaq onun ardınca qaça bilər. Onlar həmişə yolun hərəkət hissəsini, səki, dayanacağı fərqləndirməli, piyada keçidinin necə rəngləndiyini, küçəni yalnız yaşıl işıq yananda keçməyin mümkün olduğunu bilməlidirlər. Yolu müstəqil keçməli olmasalar belə, bilməlidirlər ki, qırmızı işıq gözləməyə, sarı işıq keçməyə hazırlaşmağa, yaşıl işıq küçənin o biri tərəfinə keçməyə istiqamətləndirir.

Uşaqlar piyada keçidlərindən, dayanacaqlardan istifadə, orada dayanıb gözləmə, avtobusa minib-düşmə qaydalarınını bilməlidirlər.

Uşaqların büstlər, heykəllər, maraqlı obyektlər qarşısında çox dayanmalarına, parkdakı çiçəkləri dərmələrinə, büstlərə, sərgilərə əl dəymələrinə yol verilməməlidir. Mağazaya girərkən

oradakı şeylərdən bir neçəsini icazəsiz götürmək, bazarda satılan meyvələrə əl atmaq qadağan edilməlidir.

Tərbiyəçi çalışmalıdır ki, uşaqlar küçədə ucadan danışmasın, qışqırmasın, ağlamasın, dalaşmasınlar. Gəzinti zamanı rast gəldikləri tanış adamların, valideynlərin üstünə qaçmağa da icazə verilməməlidir. Tərbiyəçi çalışmalıdır ki, uşaqlar ictimai yerlərdə təmizliyi gözləsinlər. Adi konfet kağızının belə küçəyə atılmasının qarşısı alınmalıdır.

Göründüyü kimi, bütün bunlar uşaqların erkən yaşlardan bir şəxsiyyət kimi formalaşmalarına şərait yaradan mühüm amillərdir.

**ədəbiyyat**


1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşməsi proqramı . Bakı, 2007.
2. Abbasov A.N. Pedaqogika. (orta ixtisas məktəbləri üçün dərs vəsaiti). Bakı: "Nərgiz", 2008.
3. Abdullayeva S.B. Tərbiyəçinin stolüstü kitabı. Bakı: "Nərgiz", 2008.
4. Амонашвили Ш.А. Искусство семейного воспитания. Педагогическое ессе. Москва: «Амрита», 2014.
5. Kərimov Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı: "R.S.Poliqraf MMC", 1997.
6. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı: "R.S.Poliqraf " MMC, 2002.
7. Makarenko A.S.Seçilmiş əsərləri. Bakı: "Azərnəşr", 1950.



**СОДЕРЖАНИЕ ВОСПИТАТЕЛЬНОЙ РАБОТЫ В ДОШКОЛЬНЫХ УЧРЕЖДЕНИЯХ**

**резюме**

В статье речь идет о содержании воспитательной работы в дошкольных учреждениях. Рассказывается о нескольких видах воспитательной работы, как уважение к взрослым, воспитание гуманизма, патриотизма, экологическое воспитание, уход за животным, правила поведения на улице и т.д. Так же отмечается, что правильное во всех отраслях воспитание, способствует развитию настоящего гражданина своей родины.



**CONTENTS OF THE EDUCATIONAL WORK IN PRESCHOOL INSTITUTIONS**

**summary**

The article deals with the content of educational work in preschool institutions. It tells about several types of educational work, such as respect for adults, the education of humanism, patriotism, environmental education, caring for animals, rules of conduct on the street, etc. It is also noted that the correct, in all branches, education, contributes to the development of a real citizen of his homeland.


# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA ESTETİK TƏRBİYƏNİN FORMALAŞDIRILMASI YOLLARI


**Könül Nəsibova,**
ADPU-nun Məktəbəqədər təhsilin
pedaqogikası və metodikası kafedrasının müəllimi,
E-mail: samsung1918272@gmail.com





**açar sözlər:** məktəbəqədər dövr, təlim-tərbiyə prosesi, estetik tərbiyə, yaş xüsusiyyətləri;

**ключевые слова:** дошкольный период, учебно-воспитательный процесс, эстетическое воспитание, возрастные особенности;

**keywords:** pre-school period, educational process, aesthetic education, age features.


Estetik tərbiyə hərtərəfli inkişaf etmiş şəxsiyyətin mühüm keyfiyyətlərindən biridir.Onun başlıca xüsusiyyəti uşaqlarda estetik hisslərin tərbiyə edilməsindən və bədii fəaliyyətin müxtəlif sahələrində yaradıcı qabiliyyətlərin inkişafından ibarətdir.

Estetik tərbiyə uşaqda zövqün, bədii hisslərin, mühakimələrin təşəkkül tapmasını, möhkəmlənməsini təmin edən incəsənət əsərlərini, təbiət və cəmiyyətdəki gözəllikləri düzgün başa düşməyə kömək göstərən təsirlərin məcmusudur.

Estetikanın mahiyyəti *estetik tərbiyə, estetik inkişaf, estetik şüur, estetik ideal* və s. məfhumlarla sıx bağlıdır. Bu elmin inkişafı uzunmüddətli prosesdir. Bu proses uşağın yaşından, inkişafından, sosial şəraitdən asılı olaraq, cəmiyyətdəki estetik keyfiyyətləri qavraması, dərk etməsi ilə şərtlənir.

Estetik tərbiyə məktəbəqədər dövrdən başlayaraq uşaqlarda ilkin estetik hisslər yaradır və tədricən inkişaf etdirir. Uşaqlar yaşadıqları evdə, həyətdə, uşaq bağçasında, küçədə, meşədə təbiətin füsunkar gözəlliklərini, mədəni müəssisələrdə rəsm əsərlərini, memarlıq abidələrini görür, musiqini dinləyirlər. Bu, onların həssaslığını artırır, bədii zövqünü inkişaf etdirir. Bağçada tərbiyəçi, ailədə valideynlər uşaqların bu gözəllikləri qavramalarına kömək göstərməlidirlər.

Estetik tərbiyə uşaqların yaş və dərketmə səviyyələrinə uyğun mühakimələrin formalaşmasına kömək göstərməlidir. Məktəbəqədər yaşlı uşaqlar müşahidə etdikləri gözəlliklər haqqında mühakimə yürütməyi, nəyin pis, nəyin yaxşı olduğunu müəyyənləşdirməyi bacarmalıdırlar. Onlar yalnız baxmaq, eşitmək deyil, həm də görmək və duymaq qabiliyyətinə malik olmalıdırlar. Məktəbəqədər yaşlı uşaqlar tədricən müşahidə etdikləri gözəl şeylər haqqında "gözəldir", "yaraşıqlıdır", "yaxşıdır", çirkin şeylər haqqında isə "pisdir", "xöşum gəlmir" kimi ifadələri yerində işlətmək bacarığına yiyələnməlidirlər.

Estetik tərbiyə əxlaq tərbiyəsi ilə vəhdətdədir. Uşaqda əxlaqi keyfiyyətlərin təkmilləşməsində estetik hisslərin təsiri, gözəlliklərdən ilhamlanmağın əhəmiyyəti çox böyükdür. Estetik hisslərin digər müsbət keyfiyyətlərlə qarşılıqlı təsiri daha güclüdür. İstər insandan, istərsə təbiət və cəmiyyətdəki gözəlliklərdən alınan zövq məktəbəqədər yaşlı uşaqların əxlaqına güclü təsir göstərir. Bu hiss nifrəti məhəbbətə, kədəri sevincə, xəbisliyi comərdliyə, kobudluğu nəcibliyə çevirmək qüvvəsinə malikdir. Estetik zövq uşağı kobud hisslərdən, vəhşi instinktlərdən, saxta həzzlərdən qoruyur.

Yüksək estetik zövq uşaqda ləyaqətli, əxlaqi keyfiyyətlərin yaranmasını təmin edir. Estetik zövq nəinki uşağın sevincini artırır, həm də onu tərbiyə edir, mədəniləşdirir. Estetik tərbiyə uşaqların fiziki tərbiyəsi ilə də sıx bağlıdır. Gözəl qamət, yeriş, musiqi sədaları altında rəqs, bədii gimnastika, sırada düzgün hərəkət uşaqların fiziki sağlamlığında çox əhəmiyyətlidir.

Estetik tərbiyənin səmərəli olması üçün bir sıra prinsipləri rəhbər tutmaq lazımdır. Həmin prinsiplərə aşağıdakılar daxildir:

- Estetik tərbiyə insanın ideya-mənəvi tərbiyəsi, dünyagörüşünün formalaşması prosesi ilə əlaqəli şəkildə aparılmalıdır.
- Estetik tərbiyə müxtəlif sahələri əhatə etməlidir.
- Estetik tərbiyədə müəyyən sistem, tədricilik, ardıcıllıq gözlənməlidir.
- Estetik tərbiyə prosesində uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalıdır.
- Estetik tərbiyədə məktəb ailə, məktəbdənkənar müəssisələr, mədəniyyət ocaqları, bədii yaradıcılıq təşkilatları (rəssamlar, bəstəkarlar, yazıçılar birliyi və s.) ilə sıx əməkdaşlıq etməli, əlbir işləməlidir.

Estetik tərbiyə sisteminə ailədə və uşaq bağçasında tərbiyə, təlim prosesində, sinifdənxaric, məktəbdənkənar tədbirlərdə insanlar arasında xoş münasibətlər daxildir.

Estetik tərbiyənin bünövrəsi ailədə qoyulur. Ailə uşaq tərbiyəsinin ilk ocağı,ana laylası uşaqların eşitdikləri ilk melodiyadır. Ailədəki səliqə-sahman, təmizlik, uşaq oyuncaqları, ev avadanlığı və əşyaların gözəlliyi, valideynlərin oxuduqları mahnılar, şeirlər, nəql etdikləri nağıllar, gəzintilər kiçik yaşlardan uşaq zövqünü formalaşdırır.

Uşaq bağçasında estetik tərbiyə daha sistemli xarakter kəsb edir. Uşaqlarla estetikaya dair məşğələlər – təbiətlə, ətraf aləmlə tanışlıq, musiqi, rəsm, gil, plastilindən yapma, aplikasiya, quraşdırma işləri, əmək məşğələləri aparılır, didaktik oyunlar keçirilir, bayram və əyləncələr yüksək estetik səviyyədə təşkil edilir.

Məktəbdə estetik tərbiyə üzrə iş daha geniş məzmunda aparılır. Təlim prosesi şagirdlərin estetik zövq və bacarıqlarının formalaşmasında böyük rol oynayır. Bu sahədə Azərbaycan dili və ədəbiyyat, musiqi, təsviri incəsənət, əmək fənlərinin imkanları genişdir. Musiqi və nəğmə dərsləri estetik tərbiyənin ən qüdrətli vasitələrindən biridir. Xüsusilə xorla oxunan mahnı zehni yorğunluğu götürür, xoş əhvali-ruhiyyə yaradır.

Estetik tərbiyə yetişməkdə olan nəslin hərtərəfli inkişafına kompleks yanaşmanın mühüm amillərindən biri olduğu üçün məktəbəqədər müəssisə, ailə və ictimai mühit buna geniş imkan yaratmalıdır.

**ədəbiyyat**


1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin Proqramı ( kurikulumu). (3–6 yaş). Bakı, 2013.
2. Mursaqulova R. Məktəbəqədər pedaqogika. Bakı: ADPU-nun nəşriyyatı, 2012.
3. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı: “Nasir”, 2000.
4. Логинова В.И., Саморукова П.Г. Дошкольная педагогика. Москва: «Просвещение», 1988.
5. Турченко В.И. Дошкольная педагогика. Москва: «Флинта» МПСИ, 2012.


**СПОСОБЫ ФОРМИРОВАНИЯ ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА**

**резюме**


В статье рассказывается о способах формирования эстетического воспитания у детей дошкольного возраста. Отмечается, что эстетическое образование должно создавать чувство эстетических чувств у детей и постепенно развивать эти чувства с дошкольного возраста. Поскольку эстетическое образование является одним из ключевых факторов комплексного подхода к всестороннему развитию подрастающего поколения, детский сад, семья и сообщество должны создавать для него огромные возможности.


**METHODS OF FORMATION OF AESTHETIC EDUCATION IN PRESCOOL CHILDREN**

**summary**


The article describes the ways of forming aesthetic education in preschool children. It is noted that aesthetic education should create a sense of aesthetic feelings in children and gradually develop these feelings from the preschool age. Since aesthetic education is one of the key factors in the complex approach to the comprehensive development of the younger generation, a kindergarten, family and community must create great opportunities for it.


# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ UŞAQLARIN MİLLİ VƏ VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏ OLUNMASI TƏCRÜBƏSİNDƏN


**Sədaqət Rəhimova,**
Bakı şəhəri, Xətai rayonu, 240 nömrəli körpələr evi-uşaq
bağçasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru,
ARTİ, Məktəbəqədər kurikulum şöbəsinin elmi müxbiri,
E–mail: rehimova.sedaqet@mail.ru





**açar sözlər:** məktəbəqədər yaşlı uşaq, inkişaf, milli tərbiyə, onun prinsipləri, əxlaqi keyfiyyətlərin təşəkkülü, mənəvi mikromühit, davranış qaydaları, milli mənlik, kollektivçilik, vətənpərvərlik, dostluq, doğruçuluq, ədalət;

**ключевые слова:** дошкольный возраст, развитие, национальное образование, его принципы, этические качества, нравственная микросреда, поведенческие нормы, национальная идентичность, коллективизм, патриотизм, дружба, справедливость, правдивость;

**кey words**: preschool age, development, national education, its principles, ethical qualities, moral microenvironment, behavioral norms, national identity, collectivism, patriotism, friendship, truthfulness, justice.


Azərbaycan XX əsrdə ikinci dəfə dövlət müstəqilliyi əldə etdikdən sonra onun qorunub möhkəmləndirilməsi, inkişafı üçün xalqın əzmlə mübarizə aparması vacibdir. Müstəqil dövləti qoruyub saxla-

maq və inkişaf etdirmək üçün gənc nəslin üzərinə mühüm vəzifələr düşür. Azərbaycan Respublikası çətinlikləri arxada qoyaraq, addım-addım irəliləyir. Bütün sahələrdə yeniliklər həyata keçirilir. Təhsilimizdə, o cümlədən, məktəbəqədər təlim-tərbiyə prosesində köklü dəyişikliklər baş verir. Əldə etdiyimiz tarixi uğurları qoruyub saxlamalı, inkişaf etdirməliyik. Məktəbəqədəryaşlı uşaqların, vətənpərvərlik, mənəvi-siyasi, estetik, əmək, əxlaq, fiziki, ekoloji, yoldaşlıq, dostluq, qayğıkeşlik, insanpərvərlik tərbiyəsi, dünyagörüşünün formalaşdırılması və s. tərbiyəçilərin, pedaqoq və psixoloqların praktik fəaliyyətində əsas yer tutmalıdır.

Azərbaycan müstəqil bir dövlət kimi öz tarixi, adət-ənənələri, əsrlər boyu yaratdığı mədəniyyət əsərləri ilə fəxr edir. Elm öyrənməyi, onun qədrini bilməyi, elm adamlarına hörmət etməyi uşaqlara öyrətmək vacibdir, çünki "Elm səhrada dostumuz, tənhalıqda musiqimiz, kimsəsizlikdə yoldaşımız, xoşbəxtliyə tərəf yolumuz, dostlar arasında zinətimiz, düşmənlər arasında silahımızdır". (Məhəmməd Peyğəmbər S.Ə.S.)

Bu gün ictimaiyyətin, bütövlükdə təhsil işçilərinin qarşısında mühüm bir vəzifə qoyulmuşdur: Azərbaycanı sevən, onun keşiyində duran, ona xidmət edən, yüksək intellektual səviyyəli, təmiz mənəviyyatlı vətəndaş tərbiyə etmək. Bunun üçün, ilk növbədə, uzun illər milli zəmindən uzaqlaşdırılmış tərbiyə sistemimizi meydana çıxarıb, formalaşdırmaq lazımdır. Bu zaman tərbiyə prinsiplərini xalq tərbiyəsinin məzmununda, Qurani-Kərimin müqəddəs ayələrində, dünya şöhrətli, zəngin klassik irsimizdə, şifahi xalq ədəbiyyatı nümunələrində, Azərbaycan xalqına yaxın olan Şərq ənənələrində, həmçinin ümumbəşəri dəyərlərdə axtarmalıyıq. Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi qarşısında duran başlıca məqsədlər hərtərəfli biliyə, mütərəqqi dünyagörüşünə, milli və ümumbəşəri əxlaqa, yüksək mənəviyyata malik, mədəni dəyərlərə yiyələnmiş şəxsiyyət formalaşdırmaq, cəmiyyətimiz üçün layiqli vətəndaşlar yetişdirmək olduğundan körpəlik illərindən tərbiyəni müasir tələblər səviyyəsinə qaldırmaq vacibdir.

Məktəbəqədər yaşlı uşaqlarda təlim-tərbiyənin formalaşdırılması bu gün aktual vəzifələrdəndir. Bu mənada məktəbəqədər dövr gələcək şəxsiyyətə bir çox qiymətli keyfiyyətlərin aşılanmasında son dərəcə mühüm mərhələ hesab olunur. Ona görə də məktəbəqədər müəssissələrin rəhbərləri bu mərhələnin imkanlarından səmərəli istifadə etməlidirlər. Uşaq bağçasında təlim-tərbiyə işi rəngarəng və maraqlı tədbirlərin köməyi ilə həyata keçirilir. Bu sahədə Azərbaycan musiqisindən, təsviri sənət nümunələrindən, bədii ədəbiyyatdan, xalq yaradıcılığından, təbiətə ekskursiyalardan və s. istifadə xüsusi əhəmiyyət kəsb edir. Kiçikyaşlı uşaqlar gerçəkliyin bədii sənət və musiqi əsərlərində necə əks olunduğunu gördükdə onların gözəllik haqqında təsəvvürləri təkmilləşir, estetik zövqü formalaşır. Bütün bunlar gənc nəsildə əxlaqi keyfiyyətlərin təşəkkülünə və təkmilləşməsinə nə üçün belə əhəmiyyət verdiyimizin səbəbini aydın göstərir. İnkişaf etməkdə olan Azərbaycanın hazırkı vəziyyəti körpələrimizin tərbiyəsi və təlimi, milli özünüdərk, tərbiyə prosesində islam əxlaqının, türk dünyasının mənəvi dəyərlərindən istifadənin zəruriliyi onların mənəvi tərbiyəsi prosesinin müasir tələblər əsasında, daha optimal metodlarla aparılmasını tələb edir. Hesab edirik ki, kiçikyaşlı uşaqların tərbiyəsi, təhsili və inkişafı haqqında dünya mütəfəkkirlərinin nəzəriyyələrinin öyrənilməsi çox faydalı olar.

Məktəbəqədər yaşlı uşaqların inkişafı, təlim-tərbiyə sahəsindəki vəzifələr, bu problemin dövlətçilik baxımından konseptual prinsip və müddəaları Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin məruzə və çıxışlarında həmişə diqqət mərkəzində olmuşdur. Tərbiyənin mühüm tərkib hissəsi olan milli tərbiyədən danışarkən Heydər Əliyev demişdir: "Tərbiyə geniş məna daşıyır. Tərbiyə təkcə o deyil ki, gedib Vətəni silahla müdafiə edəsən. İnsan gərək həyatının hər dövründə, fəaliyyətinin bütün sahələrində öz Vətəninin, ölkəsinin qayğıları ilə yaşasın, onun həm iqtisadiyyatının, həm siyasətinin, həm də mədəniyyətinin qayğıları ilə yaşasın. Bunlar hamısı tərbiyədən doğan şeydir. İnsan öz mədəniyyətinin də, iqtisadiyyatının da, dilinin də, təhsilinin də inkişaf etməsini istəyir" (1).

“Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı”nda təhsil sistemi qarşısında bir sıra vəzifələr qoyulmuşdur. Yüksək keyfiyyətli, dərin, hərtərəfli biliyə, mədəniyyətə, mütərəqqi dünyagörüşünə malik, Azərbaycan xalqının azadlıq, demokratik ənənələrinə bağlı olan, Vətənini, millətini, dilini sevən, insan hüquqları və azadlıqlarına hörmət edən müstəqil, yaradıcı düşünən, yüksək əxlaqi, mənəvi keyfiyyətləri özündə cəmləşdirən, yeni cəmiyyət qurmağa qadir olan, hərtərəfli inkişaf etmiş vətəndaş yetişdirmək əsasdır. Dövlətin, xalqın gələcəyi belə vətəndaşlardan asılıdır.

Müasir dövrdə dövlət quruculuğuna dair sənədlərdə uşaqların əxlaq və mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsinə ciddi diqqət yetirmək təlim-tərbiyə müəssisələrinin başlıca vəzifələrindən biridir, çünki yer üzündə qara qüvvələr mövcud olduqca vətənimizə qarşı təxribat həmişə gözlənilir. Nə qədər ki, Ermənistan kimi mürtəce dövlətlərin təbiəti dəyişməmişdir, irticaçı və təcavüzkar qüvvələr silahı yerə qoymamışlar, belə vəziyyət beynəlxalq münasibətlərdə müsbət dəyişikliklərə mane olacaqdır.

Kiçikyaşlı uşaqlar xeyir, şər, ailə, yoldaşlıq, qayğıkeşlik, ədalət, sülh, müharibə, ekoloji fəlakətlər, hüquqi, iqtisadi biliklər və s. haqqında təsəvvürlərə, anlayışlara məhz məktəbəqədər müəssisələrdə, məktəblərdə yiyələnirlər. Cəmiyyətimizdə şəxsiyyətin inkişafı və mənəvi keyfiyyətlərin tərbiyə olunmasına dair vəzifələr gənc nəslin məsuliyyət hissini artırır. Gənc nəslin formalaşması şəraiti isə yaxşılaşmaqla yanaşı, əhəmiyyətli dərəcədə mürəkkəbləşir. Bu mürəkkəbləşmənin əsas səbəblərindən biri elm və texnikanın sürətlə inkişaf etdiyi müasir dövrdə uşaqların mənəvi tərbiyəsinə təsir göstərən amillərin getdikcə artmasıdır. Bütün bunlar o deməkdir ki, gənc nəsildə lazımi mənəvi və fiziki keyfiyyətlər tərbiyə etmək üçün cəmiyyətin şüurlu, məqsədyönlü fəaliyyəti ilə yanaşı, tərbiyənin də rolu ildən-ilə artır.

Cəmiyyətin hazırkı inkişaf mərhələsində gənc nəslin təlim-tərbiyəsi üçün ölkəmizdə ən əlverişli şərait yaradılmışdır. İqtisadi, sosial-siyasi, ideoloji vəzifələr müvəffəqiyyətlə həyata keçirilir, xalqın mədəni səviyyəsi, rifah halı yüksəlir, uşaq və gənclərin inkişafında mühüm rolu olan ailənin imkanları genişlənir. Bununla yanaşı, cəmiyyətdə şəxsiyyət, onun mənəvi keyfiyyətlərinə, təhsilinə, tərbiyəsinə verilən tələblər də yüksəlir. Belə şəraitdə gənc nəslin formalaşması prosesi xeyli mürəkkəbləşir. Deməli, inkişaf prosesinin özü də müəyyən ziddiyyətlər yaradır. Bu ziddiyyətlərin başlıca səbəbi, tərbiyə prosesinin obyektiv əsası kimi, insanların sosial həyatının da mürəkkəbləşməsidir.

Məktəbəqədər yaşlı uşaqlarda yoldaşlıq, dostluq və qayğıkeşlik kimi əxlaqi keyfiyyətlərin formalaşmasına təsir göstərən mühüm şərtlərdən biri müvafiq mənəvi mikromühitin yaradılmasıdır. Bu mühitin yaradılmasının əsasında uşağın şəxsiyyətinə hörmət, qayğı və ağıllı tələbkarlıq durur. Belə mikromühitdə baş verən hadisələrin heç də hamısı sosial həyatın normalarına uyğun gəlmir. Uşaq şəxsiyyətinin formalaşdığı bu mikromühitin obyektiv təsiri ilə inkişaf etmiş cəmiyyətin irəli sürdüyü əxlaq normalarının toqquşması heç də həmişə cəmiyyətin xeyrinə səbəb olmur. Bütün bunlar uşaq və gənclərin tərbiyəsində yanlış istiqamətlərin yaranmasına gətirib çıxarır. Nəticədə uşaqlarda qorxaqlıq, yalançılıq, ikiüzlülük, tənbəllik və s. kimi mənfi xüsusiyyətlər formalaşır. Deyilənlərdən aydın olur ki, uşaqlarda dövrün tələblərinə uyğun əxlaqi keyfiyyətlərin inkişaf etdirilməsində cəmiyyətin rolu getdikcə artır.

Davranış qaydaları insanların ailədə, kollektivdə, cəmiyyətdə bir-birinə münasibətlərini müəyyənləşdirir. İnsanlar, tənzim etdikləri münasibətlərin xarakterindən asılı olaraq, müəyyən qruplara bölünürlər.

Onlar müəyyən normalar, prinsiplər və ideallar əsasında hərəkət edir, bir-biri ilə qarşılıqlı münasibətlərdə olurlar. Deməli, cəmiyyətdə yaşayan, fəaliyyət göstərən insanlar başqalarının davranış normalarına necə əməl etdiklərinə göz qoyur, bir-birinin hərəkətlərini tənzimləyir və qiymətləndirirlər. Məhz nəzarət etmək, qiymətləndirmək əxlaqa real məna verir və onun inkişafını təmin edir. Qiymət əxlaqlı insanın davranışına, hərəkətinə ictimai nəzarətin mühüm

vasitəsinə çevrilir. Hüquq normaları pozulduqda insanlara cəza verilirsə, əxlaq normaları pozulanda onlar məzəmmət olunur, hərəkətləri pislənilir. Bu zaman ictimai rəy mühüm rol oynayır. Milli mənlik, kollektivçilik, humanizm və digər əxlaqi kateqoriyalar şəxsiyyətin mənəvi təfəkkürünün vacib cəhətləridir. Müasir dövrdə əxlaqi dəyərlər insanların davranışının qəbul edilib-edilməməsi ilə deyil, onların davranışda özünə nə dərəcədə möhkəm yer tutması və şəxsiyyətlərarası münasibətlərdə davamlılığı ilə ölçülür. Cəmiyyətin inkişafının müasir mərhələsində elmi-texniki tərəqqi ictimai həyatın bütün sahələrinə – ailəyə, istehsalatdakı əlaqələrə, milli münasibətlərə, varisliyə, əxlaqa, mənəviyyata ciddi təsir göstərir.

Əxlaqi, mənəvi tərbiyənin mühüm vəzifələrindən biri də *milli mənlik şüurunun* formalaşdırılmasıdır. XX əsrin sonlarında aşkarlıq və demokratiyanın təsiri ilə, bütün xalqlar kimi, azərbaycanlılar da tarixin açılmamış səhifələrinə müraciət edərək, öz köklərini - görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətini öyrənir, milli özünüdərkin, özünütəsdiqin, özünəməxsusluğun bütün faktlarını aşkar etməyə çalışırlar.Milli rəmzlərə, adət-ənənələrə yeni həyat verilir, dini etiqadlar, müqəddəs bayramlar xalqa qaytarılır. Bu qayıdışda yeni ruh, təfəkkür tərzi, münasibət öz əksini tapır. Milli ləyaqət, torpağa bağlılıq, vətəndaşlıq dəyanəti bu köklərdən qidalanır, gənc nəsli müstəqilliyə, azadlığa çağırır. İnsanda milli mənlik şüuru bu zəmin üzərində təşəkkül tapır və belə bir həqiqəti təsdiq edir ki, mədəniyyətin, elmin, ədəbiyyatın inkişafı xalqın sayca böyüklüyündən, kiçikliyindən deyil, onun müdrikliyindən, zəngin təfəkkür tərzindən asılıdır. Kiçikyaşlıların müsbət əxlaqi keyfiyyətlərinin, mənəviyyatının inkişafı milli mənlik şüurunun formalaşması ilə bilavasitə bağlıdır. Milli mənlik şüuru vətənlə, torpaqla, mədəniyyətlə, incəsənətlə bağlı gerçəkliyin təzahürü olub, sosial-iqtisadi, mədəni-mənəvi irsin qavranılması, dərk edilməsi və təsdiqi deməkdir. Milli mənlik şüuru Vətənə, doğma torpağa, doğma yurda məhəbbət hissini formalaşdırır. Vətən torpağı insanın yaşayış və əbədiyyət məskənidir. Uşaqların öyrəndikləri yeni biliklər, iştirak etdikləri kütləvi tədbirlər, müxtəlif hərbi oyunlar onlarda belə bir əqidəni formalaşdırır ki, torpaq, Vətən müqəddəsdir.

Məktəbəqədər yaşlı uşaqlar yaxşı dərk edirlər ki, dünyada Azərbaycan xalqı yaşayır və çox hiyləgər düşmənə – ermənilərə qarşı mübarizə aparır.Vətənpərvərlik mövzusunda oyunlar və tədbirlər xalqımızın qüdrətli azadlıq hərəkatı ilə birləşib, tariximizə misilsiz qəhrəmanlıq səhifələrinin yazılmasına səbəb olacaqdır. Milli mənlik şüurunun tərbiyəsi, doğma yurda, torpağa məhəbbət hissi körpə fidanları gözəgörünməz tellərlə bir-birinə bağlayır. Onlar belə bir həqiqəti dərk edirlər ki, torpağa bağlılıq, milli borc, qürur və iftixar hissləri hər bir insana vətəndaşlıq hüququ qazandırır. Fəal ictimai varlıq olan balacalar vətən, millət, torpaq məhəbbətini hiss və duyğuları, təfəkkürləri vasitəsilə özününküləşdirirlər. Milli mənlik şüuru uşaqlarda əqidə bütövlüyü, sözlə işin vəhdəti şəklində təzahür edir. Milli mənlik şüuru olmayan şəxslər ötəri hisslərlə yaşayıb, hansı məsləyə xidmət etdiklərini bilməzlər. Milli mənliyi olan şəxs isə əqidəsi naminə hər cür işgəncəyə tab gətirər. Nəsimi, Babək, Cordano Bruno kimi tarixi şəxsiyyətlər əqidələri naminə ölümə gediblər. Bu baxımdan məktəbəqədər yaşlı uşaqların inkişafı və tərbiyəsi məsələsi hələ çox qədim dövrlərdən mütəfəkkirlərin diqqətini cəlb etmişdir. Tanınmış tarixi şəxsiyyətlərin və pedaqoqların gəldikləri qənaətlər müasir dövrdə uşaq tərbiyəsi və inkişafı üçün təcrübə əldə etməyin, nəzəri fikirlər söyləməyin əsasını qoymuşdur. Belə ki, bu gün onların fikirlərindən istifadə etməklə məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin mahiyyətini, məzmununu müəyyənləşdiririk.

*Vətənpərvərlik tərbiyəsi* əxlaqi və mənəvi tərbiyənin mühüm tərkib hissələrindən biridir. Xalqımızın Vətənə, doğma yurda məhəbbəti öz mənbəyini onun folklor nümunələrindən, böyük söz ustadlarının əsərlərindən, məşhur dövlət xadimləri və sərkərdələrinin, xalq qəhrəmanlarının nümunələrindən alır. Söz dünyasının korifeyləri – Ə.Xaqani, Nizami Gəncəvi, N.Tusi, M.Əvhədi, Ə.Təbrizi, Ş.İ.Xətai, M.Füzuli, A.Bakıxanov, M.F.Axundov, A.Səhhət, S.Vurğun və b. vətə-

ni, onun gözəlliklərini vəsf etmiş, gəncləri doğma torpağın qədrini bilməyə, onu göz bəbəyi kimi qorumağa çağırmışlar.

Əxlaq tərbiyəsinin tərkib hissələri sırasında yaşlı nəslə hörmət, sadəlik, təvazökarlıq, düzlük və doğruçuluq mühüm yer tutur. Bu əxlaqi keyfiyyətlər bir-biri ilə sıx bağlıdır. Yaşlı nəslə hörmət etməyən adam düzgün əxlaqlı insan hesab oluna bilməz. Doğru danışan, sadə və təvazökar insan cəmiyyət üçün faydalıdır.

Əxlaq tərbiyəsinin zəruri tərkib hissələrindən biri də *kollektivçilikdir*. Kollektivçilik qarşılıqlı yardıma, yoldaşlığa və dostluğa əsaslanır. Cəmiyyət böyük bir kollektivdir. Onun üzvləri əmək xariqələri yaradır, çətin anlarda bir-birinə kömək edir, qayğı göstərirlər. Yoldaşlıq, dostluq münasibətləri kollektivdə formalaşaraq böyük tərbiyəvi qüvvəyə çevrilir. Kollektivçilik, tərbiyənin başlıca prinsiplərindən biri kimi, həyatımızın bütün sahələrində bizə kömək edir. Müsbət mənəvi keyfiyyətlərə istinad etmək kollektivin tərbiyəvi gücünü xeyli artırır.

Məktəbəqədər dövrdə uşağın mənəvi inkişafında böyük sıcrayışlar olur və o, yeni əxlaqi münasibətlər aləminə daxil olmağa başlayır. Bu yaşda uşaqlarda formalaşan müsbət əxlaqi keyfiyyətlər sırasında dostluq və yoldaşlıq mühüm yer tutur. Uşaq həmişə ünsiyyətə, kiminləsə ülfət bağlamağa çalışır. Uşaqlarla ünsiyyət və münasibətdə olmaq kiçikyaşlıların müstəqil fəaliyyətinin mühüm tərəfidir. Həmin fəaliyyətdə kiçikyaşlı uşaq bir tərəfdən yoldaşları ilə ünsiyyətdə olur, digər tərəfdən onların hərəkətləri, münasibətləri haqqında düşünür. Yaşıdlarından bir necəsi uşağa daha yaxın olur. Bu zaman kiçikyaşlılarda dosta sədaqətlilik kimi müsbət keyfiyyət tərbiyə olunur. Beləliklə, ünsiyyət prosesində şəxsiyyətlərarası münasibətlər formalaşır.

Əxlaq və hüquq normalarına riayət olunması, Vətən naminə çalışmaq hər bir uşağın təbii tələbatına və daxili qanununa çevrilməlidir. İlkin mənəvi təsəvvürlər, anlayışlar, əxlaqi-etik kateqoriyalar – milli şüur, ləyaqət, psixologiya, mənlik, vətəndaşlıq dəyanəti, dözümlülük, ailəyə qayğı, məhəbbət, şərəf, qeyrət və s. kateqoriyalar məktəbəqədər yaş dövründə daha sürətlə formalaşmağa başlayır. Uşağın əqidəsi, dünyagörüşü, etiqadı, əxlaqı, ailə həyatı ilə bağlı məsələlər erkən uşaqlıq dövründə təşəkkül tapır. Müasir dövrdə bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi, kiçikyaşlıları müstəqil həyata hazırlamaq onların vətəndaşlıq, insanpərvərlik və Vətənə məhəbbət ruhunda tərbiyə olunmalarından asılıdır.Bu, doğma vətənə bağlılıq, təbiətə məhəbbət, ana dilinə, mənsub olduğu xalqa vurğunluq, respublikamızın konstitusiyasına, onun bayrağına, gerbinə, himninə hüsn-rəğbət tərbiyəsidir.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi onların uşaqlıq illərinin necə keçməsindən, bu dövrdə ətraf aləmdən nələri əxz etmələrindən həlledici dərəcədə asılıdır. Böyük arzu və həvəslə bağçaya gələn körpələr ilk günlərdən təlim-tərbiyə prosesinin güclü təsirinə məruz qalırlar. Onlar bütün tapşırıqları səylə yerinə yetirməyə çalışır və ilkin ictimai tapşırıqlar alırlar. Verilmiş tapşırıqların səliqəli, təmiz və vaxtında yerinə yetirilməsinə nəzarət etmək zəruridir, çünki kiçikyaşlılar diqqətlərinin qeyri-sabitliyi, əhvali-ruhiyyələrinin dəyişkənliyi, tez yorulmaları ilə fərqlənirlər. Tərbiyəçi onların qayğısına qalmalı, tapşırıqları müəyyən edilmiş normada verməlidir. Gümrah əhvali-ruhiyyə, təbəssüm, şən və sevinc bəxş edən baxışlar balacaların mənəvi aləminin formalaşmasında mühüm rol oynayır.Tərbiyəçinin səmimiliyi, uşaq təfəkkürünün konkretliyini, fərdi xüsusiyyətlərini yaxşı bilməsi və təlim-tərbiyə prosesində onları nəzərə alması balacaların gələcəkdə bir şəxsiyyət kimi formalaşmalarına, əxlaqi keyfiyyətlərinin inkişafına böyük təsir göstərir.

Təlim-tərbiyə prosesində tərbiyəçi ilə uşaqlar arasında çox mürəkkəb münasibətlər, qarşılıqlı əlaqələr sistemi formalaşır. Tərbiyəçi balacaların nəzərində müqəddəs varlıq kimi canlanır, onlar tərbiyəçinin şəxsində böyükləri görür, münasibətlərində özünü axtarırlar. Hər bir uşaq öz aləminə malik, təkrarolunmaz fərddir, şəxsiyyətdir. Ona görə də tərbiyəçi-müəllim hər bir uşağa sevinc bəxş etməli, onun mənəvi aləminin təməlini böyük ustalıqla qoymalıdır.

Kiçikyaşlı uşaqlar təbiət və cəmiyyət hadisələrinə böyük maraqla yanaşır, onların sirlərini öyrənməyə can atırlar. Yaşlı adamların həyatı, onların diqqətini cəlb edir. Onlar ata və analarının harada, hansı vəzifədə işlədiklərini bilirlər. Məktəbəqədər yaşlı uşaqlar dünyaya böyüklərin gözləri ilə baxmağa, onları təqlid etməyə çalışırlar.Onların əxlaqi keyfiyyətləri tərbiyəçi şəxsiyyətinin təsiri altında formalaşır. Onlar tərbiyəçinin mövzunu necə başa salmasına, adamlarla ünsiyyətinə, özünün və yoldaşlarının cavablarını necə qiymətləndirməsinə xüsusi əhəmiyyət verirlər, çünki tərbiyəçi uşaqların gözlərini elm və mənəviyyat dünyasına açan ilk insandır. İlk elmi bilikləri, əxlaqi-etik anlayışlar haqqında məlumatları tərbiyəçi verir. Əlbəttə, yaxşı tərbiyəçilər çoxdur, lakin öz ləyaqətini qiymətləndirməyən, kövrək, zərif xarakterli uşaqların mənəvi dünyasına mənfi təsir göstərən, onların qəlbini yaralayan tərbiyəçilər də var. Beləiləri uşaqları şəxsiyyət hesab etmir, öz davranışlarına, nitqlərinə, başqa insanlara münasibətinə əhəmiyyət verməyərək kobud danışır, qeyri-normal sözlərlə, hərəkətlərlə uşaq qəlbini yaralayırlar. Belə uşaqlar böyüdükdən sonra da böyüklərin vurduqları yaraları unutmurlar.

Pedaqoqun peşə fəaliyyətinin nəticələri ilk növbədə uşaqların sağlamlığı, ideya və əxlaqi keyfiyyətlərinin inkişafı, həyata və əməyə hazırlıq səviyyəsi ilə müəyyən edilməlidir. Çoxillik təcrübəmdən bu qənaətə gəlmişəm ki, hazırkı şəraitdə təlim-tərbiyə işinin yüksək səviyyədə təşkilində, təlimin müasir tələblərə cavab verməsinin təmin edilməsində pedaqoji kollektivə düzgün rəhbərlik və nəzarət ən mühüm amillərdən biridir.

Bildiyimiz kimi, təlimin təşkilat forması məşğələdir. Məşgələ prosesində tərbiyəçinin rəhbərliyi altında uşaqlara bilik, bacarıq və vərdişlər mənimsədilir.

Hər bir tərbiyəçi bilməlidir ki, vətən sevgisi, doğma yurda məhəbbət asanlıqla tərbiyə edilmir. Bu, mürəkkəb prosesdir. Vətənpərvərlik düşmənə nifrət hissini artırır. Vətənpərvərlik tərbiyəsinin ən yüksək zirvəsi hərbi xidmətdir.

Ümummilli liderimiz Heydər Əliyev demişdir. "Uşaqlarımız məktəbəqədər yaş dövründən başlayaraq, bəşəri dəyərlərdən istifadə olunmaqla, milli zəmin üzərində, milli adət-ənənələr ruhunda tərbiyə olunmalıdırlar".

Biz məktəbəqədər təhsil işçiləri ona nail olmalıyıq ki, hər bir məktəbəqədər yaşlı uşaq gerbimizi, bayrağımızı tanısın, onun rənglərinin mənasını bilsin və himnimizi oxumağı bacarsın.

Rəhbərlik etdiyim pedaqoji kollektivdə təlim-tərbiyə prosesində dövlətimizin atributları haqqında uşaqlara məlumat verdikdən sonra rəsm və aplikasiya məşğələlərində bu mövzular müasir metod və texnologiyalardan istifadə olunmaqla möhkəmləndirilir. Bu prosesdə vətənə məhəbbət və sevgi hissini artır.

Müşahidələrimə əsasən deyə bilərəm ki, rəhbərlik və nəzarət möhkəm olduqda pedaqoji kollektiv də yüksək əhvali-ruhiyyə ilə çalışır. Uşaqların yaşı atrdıqca, onlar qrupdan qrupa keçdikcə proqram materialları da mürəkkəbləşir. Məktəbəhazırlıq qrupunda uşaqlar artıq məktəb təliminə hazır olurlar. Tərbiyəçilər təlim məşğələlərini sistemli və ardıcıl şəkildə həyata keçirdikdə öz məqsədlərinə nail ola bilirlər.

Məktəbəqədər müəssisədə təlim-tərbiyə prosesini müasir tələblər səviyyəsində qurmağa çalışıram, pedaqoji kollektiv də öz işlərini bu istiqamətdə aparır.

Rəhbərlik kollektivin hər bir üzvündə öz qüvvəsinə inam oyatmalı, onu pedaqoji fəaliyyətin səmərəliliyini daha da artırmağa ruhlandırmalıdır. Bu isə o vaxt mümkündür ki, rəhbər özü də yenilikdən çəkinməsin, bu işdə nümunə olsun. Belə olan halda onun fəallığı pedaqoji kollektivə də təsir edir, sözü eşidilir və sayılır.

Pedaqoji kollektivin işinə rəhbərlik dərin elmi, nəzəri, habelə metodiki hazırlıq tələb edir. Odur ki, hər bir rəhbər əvvəlcə öz üzərində ciddi çalışmalı, planlı, yaradıcı şəkildə fəaliyyət göstərməli, icra prosesində qarşıya çıxan çətinlikləri aradan qaldırmaq üçün vasitələr tapmaqda çətinlik çəkməməlidir.

Bir sözlə, müasir rəhbər işçi dərin səriştəliliklə yanaşı, intizamlılığı, təşəbbüskarlıq və işə yaradıcı münasibəti üzvi surətdə birləşdirməlidir. O, hər bir işin tərbiyəvi cəhətlərini nəzərə almalı, işçilərinə, onların ehtiyac və tələblərinə həssaslıqla yanaşmalı, işdə, məişətdə nümunə olmalıdır.

**ədəbiyyat**


1. Əliyev H.Ə. "Azərbaycan müəllimi" qəzeti, 1998-ci il, may ayının 7-si.
2. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı, 2000.
3. Əhmədov H.M. Azərbaycan pedaqoji fikir tarixi. Bakı, 2001.
4. Qədimbəyova Ə.B. Uşaq bağçasında əxlaq tərbiyəsi. Bakı, 1989.
5. Rəhimova S.Ə. Müasir məşğələlərin uşaqlarda mənəvi keyfiyyətlərin formalaşmasına təsiri. "Məktəbəqədər və ibtidai təhsil" jurnalı, 2016, № 3.
6. Rəhimova S.Ə. Məktəbəqədər yaşlı uşaqların fəaliyyət növlərinin qarşılıqlı əlaqə şəraitində təşkilinin psixoloji-didaktik əsasları. "Elmi əsərlər" , 2010, № 3.


**ОБ ОПЫТЕ РАБОТЫ ВОСПИТАНИЯ ДЕТЕЙ В НАЦИОНАЛЬНОМ И ПАТРИОТИЧЕСКОМ ДУХЕ**


**резюме**

В статье рассказывается об опыте работы воспитания детей в национальном и патриотическом духе. Рассказывается о нравственных качествах, которые нужно воспитывать у дошкольников. Отмечается роль нравственной микросреды в процессе воспитания. Так же отмечается важность воспитания у детей таких качеств, как национальная идентичность, коллективизм, патриотизм, любовь к родине, дружба, правдивость, справедливость и т.д.В статье так же рассказывается о личных качеств педагога-воспитателя и руководителя дошкольного учреждения.


**ON THE EXPERIENCE OF THE EDUCATION OF CHILDREN'S EDUCATION IN THE NATIONAL AND THE PATRIOTIC SPIRIT**


**summary**

The article describes the experience of the work of raising children in a national and patriotic spirit. It tells about the moral qualities that need to be brought up in preschool children. The role of the moral milieu in the process of upbringing is noted. The importance of educating children in such qualities as national identity, collectivism, patriotism, love of the motherland, friendship, truthfulness, justice, etc. is also noted.

The article also describes the personal qualities of a teacher-educator and the head of a pre-school institution.


## ***YENİ NƏŞRLƏR***

# KAMİL ARAZIN UŞAQ DÜNYASI


**Arif Ağalarov,**
Naxçıvan Müəllimlər İnstitutunun
Dil və ədəbiyyat kafedrasının müdiri, dosent




Uşaq ədəbiyyatının yeni-yeni nümunələrlə zənginləşməsi Azərbaycan ədəbiyyatının inkişafı hesab olunur. Ədəbiyyatın bir qolunu təşkil edən uşaq ədəbiyyatı nümunələrini digər bədii nümunələrlə eyniləşdirmək düzgün deyil, çünki böyüklərlərin dünyagörüşünə və düşüncə tərzinə uyğun bədii nümunələrlə uşaq düşüncəsini əks etdirən nümunələrin yazılması arasında fərq böyükdür. Uşaq ədəbiyyatı nümunələri kiçikyaşlıların maraq dünyasına, onların düşüncə və anlam tərzinə uyğun yazılmalı, fikir lakonik və aydın olmalıdır. Buna görə də uşaq şeirləri yazan istedadlı qələm sahibləri uşaqlarda vətənə, torpağa sevgi, böyüklərə hörmət, ehtiram və s. təlqin edən nümunələr yaradarkən bu məsələlərə uşaq təfəkkürü, dünyagörüşü cəhətdən yanaşmalıdırlar. Bu keyfiyyətləri yazılarında yüksək səviyyədə əks etdirməyi bacaranların cərgəsində Kamil Araz da var.

Kamil Araz ədəbiyyatçı olmasa da, ədəbiyyatı və mütaliəni sevir, rahatlığını isə uşaqların könül dünyasını əks etdirən şeir və tapmacalar yazmaqda tapır. Onun müxtəlif mövzularda yazdığı şeir nümunələri bu sahəyə sanki yeni nəfəs gətirir.

Nə qədər nəğmə qoşub, bəstəkar, şair Vətənə,
Hələ çox yazılacaq bəstələr, şeir Vətənə.

K.Arazın xalq şeri üslubunda qələmə aldığı hər bir poetik nümunə uşaqların ürəyində nəcib duyğuların formalaşmasına xidmət edir.

Düşməninə qəsd ilə de,
Dostlarına şəst ilə de:
Mənim elim Azərbaycan – bu mahaldır!
Ana dilim Azərbaycan – yağdır, baldır!

(“Sev Vətəni”.)

K.Arazın qələmə aldığı tapmacaların uşaqların düçüncə və məntiqi təfəkkürünün inkişaf etdirilməsi sahəsində uğurlu nümunələr olacağına ümidlə yanaşan “Məktəbəqədər və ibtidai təhsil” jurnalının baş redaktoru, prof. Y.Kərimov onun bir çox tapmacalarını həmin jurnalda çap etdirmişdir. Bu tapmacaların uşaqların maraq dünyasının görkəmli tədqiqatçısı, prof. Y.Kərimov tərəfindən çap etdirilməsi müəllifin orijinal nümunələrinin təbliği ilə yanaşı, onun yaradıcılığına verilən yüksək qiymətdir. K.Arazın “Göydən üç alma düşdü” (2014), AMEA-nın müxbir üzvü prof. Ə.Quliyevin ön söz yazdığı “Xəzinə” kitabında (2015), “Günəş” jurnalında uşaq aləmini bədii lövhələrlə əks etdirən əsərləri onun müasir dövrün məhsuldar və yaradıcı qələm sahiblərindən biri olduğunu göstərir.

“Göydən üç alma düşdü” kitabının ilk səhifəsində verilmiş “Qarabağ marşı” şairin vətən sevgisinin təzahürü olmaqla yanaşı, işğal altındakı torpaqlarımızın azad edilməsinə, vətən uğrunda birliyə, mübarizlik və qəhrəmanlığa səsləyir.

Qarabağ torpağında
Olduqca düşmən izi,
“Qalx ayağa!” – çağırır,
Anamız Vətən bizi!

Şairin uşaqlar üçün yazdığı vətənpərvərlik şeirləri azyaşlıların ideologiyasının formalaşmasında, onların düşmənimizi tanımalarında xüsusi rol oynayır. K.Araz “Sev vətəni!” adlı şeirində fikrini sadə və başa düşülən tərzdə uşaqlara çatdırır. Bu kiçik şeirdə vətən sevgisi, ona bağlılıq və vurğunluq, vətəni göz bəbəyi kimi qorumağın şərəf işi olması fikri balaca oxucular üçün tam dərk olunandır.

Yaradıcılığının əsas hissəsini uşaq şeirləri, tapmacalar təşkil edən K.Araz ixtisasca ibtidai sinif müəllimi olduğundan, onların maraq dünyasını və psixologiyasını yaxşı bildiyindən uşaqların yaş xüsusiyyətlərini nəzərə alaraq yazır. Onun mənəvi dəyərləri – valideynlərə hörmət və ehtiram, yaşlılara sayğı təbliğ edən poetik nümunələr yazmaqda çətinlik çəkmədiyini oxucu hiss edir. Fikrimizcə, toxunduğu mövzuları sadə dillə oxucusuna çatdırmağı bacaran şairin uğuru mövzunun tam şəkildə özününküləşdirməsi ilə bağlıdır.

Şairin toxunduğu mövzuların çoxunda onun uşaqlar tərəfindən başa düşülməsi üçün hadisələrin məntiqi ardıcıllığı elə seçilib ki, problem hərtərəfli və tam mənimsənilir.

Yavaş-yavaş gəlir qış,
Heyvalar da saraldı.
Uca dağların başın
Duman tutdu, qar aldı.

Otlar başını əydi,
Ağ qırova döndü şeh.
Yamaclara gəldi çən,
Yarpaqları tökdü meh.

(“Qış gəlir”.)

K.Arazın elə şeirləri var ki, məktəbəqədər müəssisələrdə onların uşaqlara öyrədilməsi mövzu ilə bağlı bilik mənbəyi rolunu oynaya bilər.

Yaz gələr, gül-çiçəklər
Alar bizi qoynuna.
Dərə, təpə, çöl-çəmən,
Bürünər yaşıl dona.

Yazdan sonra olur yay,
Zaman gedir irəli.
Yetişir hər cür meyvə,
Ərik, üzüm, şaftalı...
("Dörd fəsil")

Bu şeirdə hər bir fəslin əlamətlərinin dəqiq və başa düşülən şəkildə verilməsi müəllifin yaradıcılıq qabiliyyətini üzə çıxarmaqla yanaşı, adı çəkilən fəsillərin mənzərəsini də göz önündə canlandırır.

Kamil Arazın başqa bir şeirindən ("Çay süfrəsi") ibtidai siniflərdə həndəsi biliklərin mənimsədilməsi üçün istifadə etmək olar:

Paxlava romb şəkilli,
Üstündə ləpəsi var.
Şəkər elə doğranıb,
Düz səkkiz təpəsi var.

Nəlbəkilər dairə,
Diyircəkdir noğullar.
Oxşada bilmədiyim
Hələ çoxlu fiqur var.

K.Arazın uşaqlar üçün yazdığı poetik nümunələrlə yanaşı, müxtəlif səpkili şeirləri də az deyil. Qələm təcrübəsi olan istedadlarımızdan biri kimi K.Arazın az təbliğ olunması, şeirlərinin az nəşr olunması onun Naxçıvan ədəbi mühitində üzdə olan şairlər sırasına çıxmasına imkan vermir. Naxçıvan ədəbi mühitində qələminin gücü, zəkası və yaradıcılıq istedadı ilə tanınan şairlərimiz həqiqətən çoxdur. Bu şairlər işərisində K.Araz qədər uşaq şeirləri, tapmacalar yazan qələm sahibləri isə çox azdır. Fikrimizcə, mətbuat nümunələri və almanaxlarda K.Araz imzasına az rast gəlinməsinin bir səbəbi də müvafiq jurnal və almanaxlarla əməkdaşlığının zəif olmasıdır.

K.Arazın dilinin sadə və anlaşıqlı olması müəllifin yaradıcılıq uğuru hesab edilməlidir.

Təqdir olunan məqamlarla yanaşı, bəzi kicik iradları da çatdırmağı özümüzə borc bilirik. K.Arazın şeirlərində, xüsusən tapmacalarında dialektizmlərə də rast gəlinir. Dialektizmlərin mənasının azyaşlılar üçün aydın olmadığını nəzərə alaraq həmin sözlərin izahı verilsə, bəzi şeirlərdə isə qafiyə quruluşuna diqqət yetirilsə, yaxşı olar.

Kamil Araza yeni-yeni yaradıcılıq uğurları arzu edirik!

## YAZA DAİR ŞEİRLƏR



**Elvira Süleymanova,**
Xırdalan şəhərində yerləşən Qubadlı rayon
3 nömrəli tam orta məktəbin dərs hissə müdiri

### *Gəlib gözəl yaz deyir.*

Al-yaşıl xalısını
Sərib çəmənə, çölə,
Nur saçaraq günəş tək
–Gəlirəm , ay qız,–deyir.

Uçur yaz böcəkləri,
Rəngli kəpənəkləri,
Dövrə vurub uçuşur,
–Tut məni, ay qız,– deyir.

Bənövşə kol dibindən
Səsləyir Bahar qızı.
Gülümsəyib boylanır,
–Dər məni, ay qız,–deyir.

Qış da kürkünü geyir,
Bizimlə vidalaşır.
–Bu bərəkətli çöllər
Sizə əmanət, – deyir.

Geyib yaşıl libası,
Parıldayır ləçəyi.
Əl edir tər çiçəyi,
–Sevirəm, ay qız,– deyir.

Uzaqlardan süzülür,
Bir aşığın avazı.
Şirin nəğməsi ilə
–Gəlib gözəl yaz,–deyir.

## *Yazın gəlişi*

Gəlibdir qaranquşlar,
Açılıb novruzgülü.
Yayılıb, hər tərəfə
Çiçəklərin ətiri.

Körpə-körpə quzular
Çəmənlikdə mələşir.
Anaların görməyə
Onlar necə tələsir.

Şəkərbura, paxlava
Süfrələri bəzəyir.
Çiçəklənib ağaclar,
Yaşıllaşıb səməni.

Yayılıb hər tərəfə
Bahar qızın gülüşü.
Üzlərə nur çiləyir,
Gözəl yazın gəlişi.

# *SUALLARA CAVAB*

Bakıdakı 276 nömrəli məktəbin sinif müəllimi **Elza Ələsgərova** redaksiyamıza sualla müraciət etmişdir:

## NİTQDƏ DİLLƏRARASI MÜNASİBƏTLƏRİ ŞAGİRDLƏRƏ NECƏ AYDINLAŞDIRAQ?

Bu suala Kaspi Təhsil Mərkəzinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Emiliya Kərimova** cavab verir:



İbtidai sinif şagirdləri danışarkən hər an sözlərin mənalarına fikir verirlər. Beləliklə, hər bir sözün mənasına fikir verərək, onu yerində işlətməklə nitqlərini zənginləşdirmək istəyirlər.Bu prosesdə onlar eyni sözün müxtəlif mənalarından istifadə etməyi öyrənirlər. Uşaqlar hələ məktəbə gələnədək yaşlarına o qədər də uyğun olmayan, başqa dillərdən alınma sözlər eşidir və onları nitqlərində işlədirlər. Bu sözlərə adi danışıq prosesində, məşğələlərdə yiyələnirlər. Müxtəlif üsullardan istifadə etməklə şagirdlərin alınma sözlərlə bağlı söz ehtiyatını müəyyənləşdirir, sonra onlar üzərində iş aparıram, məsələn, I sinifdə “2.1.1. Rast gəldiyi əşya və hadisələri adlandırır” məzmun standartını reallaşdırarkən şəkillər nümayiş etdirməklə şagirdlərin lüğət ehtiyatını müəyyənləşdirirəm. Məlum olur ki, onların ən çox işlətdikləri sözlər aşağıdakılardır: ***jurnal, qəzet, albom, bloknot, papka, doska, telefon, mebel, parta, stol, stul, kino, teatr, stadion, gimnastika, futbol, voleybol, boks, park, zoopark, bulvar, restoran, boçka, velosiped, poyezd, avtobus, trolleybus, ostanovka, koridor, polis, kassa, parket, aptek, kran, bazar, mağaza, peçenye, suxarı, krujka, qrafin*** və s. Bu sözlərdən fəal istifadə olunmasını təmin etməklə sonralar aşağıdakı sözlərin işlədilməsinə də fikir verirəm: ***laboratoriya, mikrofon, diktofon, reklam, həndbol, tennis, traktor, kombayn, vafli, tvoroq*** və s.

Dillərin bir-birinə qarşılıqlı təsirini təlimdə nəzərə alıram.

Müşahidələr göstərir ki, rus dili dərslərində və adi danışıq zamanı uşaqlar onların dillərində də xeyli Azərbaycan sözlərinin işlənməsinin şahidi olurlar. Eyni zamanda onların nəzərinə çatdırılır ki, başqa dillərdən alınma sözlərlə (bura ərəb–fars mənşəli sözlər də daxildir) yanaşı, Azərbaycan dilində işlənən elə sözlər var ki, onlar rus dilində olduğu kimi və ya müəyyən dəyişikliklər edilməklə işlənir. Bu sözləri xarakterik xüsusiyyətlərinə görə belə qruplaşdırmaq olar:

Eynilə keçən sözlər: ***ислам*** (islam), ***намаз*** (namaz), ***чай*** (çay) və s.

Bir-iki hərfin dəyişməsi ilə keçən sözlər: ***коран*** (Quran), ***мечеть*** (məscid), ***дом*** (dam), ***чердак*** (çardaq), ***шашлык*** ( şişlik) və s. Mənim köməyimlə ***утюг*** (ütü), ***изюм*** (üzüm qurusu), ***арбуз*** (qarpız), (***лошадь*** (loş – heç bir şeyə yaramayan at), ***инжир*** (əncir), ***кирпич*** (kərpic), ***карандаш*** (içində qara daşa bənzər maddə – qrafit olan dərs ləvazimatı), ***урюк*** (ərik), ***шаровары*** (şalvar), ***башмак*** (başmaq), ***нарды*** (nərd), ***алый (al), караван (***karvan), ***башлык*** (başlıq) və s. sözlər dəfələrlə təkrarlanır və onların nitqlərində özünə yer edir.

Azərbaycan dilindəki bəzi sözlər rus dilində eynilə işlənir.

Dilimizdən rus dilinə keçən bəzi sözlərin mənaları eynilə qalmışdır, məsələn, **çay.** Azərbaycanlılar dizlərini yerə qoyaraq əyilib axar çaydan su içmişlər. Sonralar həmin suyu qaynadaraq fincana töküb içdikdə də ona **çay** demişlər. Ruslar **çay** sözünü götürmüş, ona uyğun **çaynik** sözünü düzəltmişlər. Dilimizdəki **çayxana** sözü ruscada **чайхана, çayxanaçı** isə **чайханщик** şəklində işlənir. Qaynadılmış suyu tökdüyümüz fincanı **su tökən** sözünə uyğun olaraq **стакан** (stəkan) adlandırmışlar.

Bəzi sözləri azacıq dəyişikliklərlə işlədirlər. **Şalvar** (Vaxtilə yundan şal parça toxunub, ondan şalvar tikiblər.) sözünü ruslar **шаровары** şəklində işlədirlər. ***Колбаса*** – qol basa (çəkilmiş əti qol ilə basa-basa bağırsağa doldurmaq); ***очаг*** – ocaq (*очаги войны*– müharibə ocaqları) və s.

Bəzi sözlərin mənalarını dəyişməklə qəbul etmişlər: ***mama*** sözü Azərbaycan dilində **bibi** mənasını verir, ruslarda isə ***ana*** mənasında işlənir. Atamızın atası ***baba*** sözü rus dilində vurğusunu dəyişərək ***baba – qadın*** mənasında işlənir. Onlar **ata** sözünü ***отец*,** **dədə, dayı** sözlərini ***дядя*** kimi işlədirlər.

Bəzi yer adları türk, Azərbaycan sözlərinin köməyi ilə düzəlmişdir: ***Байкал*** (Bəy,qal.), ***Бештау***– (beş dağ), ***Темиртау*** (dəmir dağ). ***Нальчик*** (nalcıq), ***Балтам*** (bal təmi), ***Арбат*** (araba, at), ***Енисей*** (yeni su) və s. kimi sözlər buna misaldır.

Müəllim rus dilindən bizim dilimizə və əksinə, bizim dilimizdən rus dilinə keçən başqa sözlərin də dəqiq mənada işlənməsinə, düzgün tələffüzünə diqqət yetirməlidir.

Beləliklə, şagirdlərin lüğət ehtiyatı xeyli artır, nitqləri zənginləşir.